**Yusif SƏFƏROV**

# QƏDİM AZƏRBAYCAN:

## nə bilirik

**AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI**

**Bakı – 1989**

ББК9 (С 42)
С 49

Əsərə
tarix elmləri doktoru
*İ. Babayev* rəy vermişdir.

**Səfərov Y.**
С 49 Qədim Azərbaycan: nə bilirik. Bakı, Azərnəşr, 1989. 157 s.

Kitabda Azərbaycan ərazisində siniflərdən qabaqkı və erkən sinifli cəmiyyətlərin mənşəyi və inkişafı haqqında tədqiqatlar şərh edilir. Burada ibtidai insanın meydana gəlməsi və daha sonrakı təkamülü göstərilir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

С 0503020907-47 34-89
M - 651 - 89
ISBN 5-552-00244—X

ББК9 (С 42)

© Azərnəşr, 1989

# GİRİŞ

Keçilmiş yolun güzgüsü olan tarix həmişə xalqa bəşəriyyətin inkişafında baş verən dəyişiklikləri keçmişin təcrübə sınağı əsasında təfəkkür süzgəcindən keçirməyə kömək edir. Xalqın tarixini bilmədən, onun ictimai-siyasi təfəkkürunü qavramaq olmaz.

Sosial varislik bəşəri varlığın mühüm şərtidir. Bu varlığı özündə əks etdirən tarix insanlarda ictimai şüurun, dünyagörüşünün formalaşmasında, cəmiyyətdə baş verən iqtisadi, ictimai-siyasi və sosial dəyişikliyi dərk etməkdə ən etibarlı tərbiyəçidir. XIX əsrin görkəmli Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov «Gülüstani-İrəm» adlı məşhur kitabında göstərir ki, «...Tarix elə bir danışmayan natiqdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilatı və təriflərlə xələflərə bildirir, ehtiyac və rifah səbəblərini, tərəqqi və tənəzzül yollarını anladır. Gələcəkdə törəyə bilən əhvalatı keçmişin libasında insanların ibrət nəzərinə çatdırır».

İnsanda onun öz əməyi haqqında, daxili aləmi barəsində düzgün təsəvvür yaratmaq tarixçinin borcudur. Tarixə dair yazılan əsər təkcə ictimai hadisələrin işıqlandırılmasının aydınlığı və canlı olması ilə deyil, xüsusilə, gətirilən faktların inandırıcı, kütləri maraqlandıran yeni fikir, elmi mülahizə və düşünülmüş nəticələrin zənginliyi ilə qiymətlidir.

Hər bir tarixçi öz dövrünün övladıdır. Onun yazdığı əsərlər də yaşadığı ölkənin və zamanın güzgüsü olmalıdır.

*I fəsil*

## AXTARIŞLAR. TAPINTILAR

Azərbaycanda insanlar 2 milyon il bundan əvvəl məskunlaşmış, müstəqil həyat sürməyə başlamışlar. 2 milyon yaşı olan Azərbaycanın qədim sakinlərinin tarixinin yalnız son 2—3 min ili haqqında yazılı məlumatlar qalmışdır. Onlardan da az bir qismi dövrümüzə gəlib çatmışdır. A. Bakıxanov «Gülüstani-İrəm» əsərində yazır: «...Bu ölkə müxtəlif tayfaların gediş-gəlişi və istilası üzündən həmişə iğtişaş və qarışıqlıq meydanı olmuşdur. Bir çox kitab, tarix sənədləri və maddi mədəniyyət əsəri məhv və tələf olmuşdur». Lakin dövrümüzə gəlib çatan yazılı abidələrin də hamısının dürüstlüyünə tam etibar etmək olmaz. Bakıxanov doğru olaraq qeyd edir ki, «Əxbar kitabları və asari-ətiqə (qədim abidələr — Y. S.) qalıqları heç bir ölkədə keçmişdə vaqe olan işləri lazımi tərtib və təfsil ilə ifadə edə bilməz».

Beləliklə, ölkəmizin qədim tarixinə aid müxtəlif dillərdə yazılan məlumatların xeyli hissəsinin dürüst olmadığı nəzərə alınsa, maddi-mədəniyyət abidələrinin, arxeoloji materialların dəqiq tarixi mənbə olmaları şübhəsizdir. Onlar hər bir xalqın milli sərvətidir. Məlum olduğu kimi, insan nəslinin ilk ünvanı daşlarda, qayalarda həkk olunur. Onlar qədim insanların ilk əmək aləti, silahı, bəzəyi və sığınacağı olmuşlar. Təbii qüvvələr qarşısında aciz olan ilk insan daşlara, qayalara pənah gətirmiş, təbii mağaraları, zağaları və kahaları özünə məskən seçmişdir.

Azərbaycan maddi-mədəniyyət abidələri ilə zəngin olan ölkələrdən biridir. Antik tarixçilərin və coğrafiyaşünasların, səyyahların bu ölkəyə xüsusi maraq göstərmələrinin səbəblərindən biri də arxeoloji yadigarların burada zəngin olması idi. Qədim yunan tarixçisi Böyük Plini Qafqazı çoxdilli ölkə adlandırır. O, «Təbiətin tarixi» adlı əsərində Albaniyadan söhbət açarkən bir çox toponimik adların ünvanını göstərir.

1829-cu ildə Rusiya İmperator Arxeologiya komitəsi rus arxeoloqu A. Yanovskini Azərbaycana, buranı arxeoloji baxımdan nəzərdən keçirmək məqsədi ilə ezam etdi. A. Yanovski ilk dəfə olaraq Şimali Azərbaycan ərazisində Böyük Plininin adlarını çəkdiyi toponimlərin tarixi coğrafiyasını dürüstləşdirməyə səy göstərdi. O, əldə etdiyi məlumatlara əsaslanaraq 1846-cı ildə «Qədim Qafqaz Albaniyası» adlı məqalə nəşr etdirir.

1847—1849-cu illərdə isə qraf Vorontsovun göstərişi ilə məşhur şərqşünas V. N. Xanıkov «Müsəlman ruhanilərinin ali təriqətinin vəziyyəti haqqında layihə»ni hazırlayarkən Bərdə, Dərbənd, Naxçıvan ərazisində olan maddi-mədəniyyət abidələri, 1862-ci ildə şərqşünas səyyah A. Berje isə Muğan düzündəki yerüstü tarixi abidələr haqqında maraqlı məlumatlar verdilər.

Qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərindən etibarən rus arxeoloqları ilə yanaşı, əcnəbi həvəskar «arxeoloqlar» da Azərbaycanın maddi mədəniyyətinə maraq göstərmişlər. Lakin sonuncuların apardıqları arxeoloji axtarışlar sistemsiz və qeyri-elmi xarakter daşımış və başlıca olaraq kommersiya məqsədi güdmüşdür. Onlar buradan əldə etdikləri mədəniyyət abidələrini Avropanın ayrı-ayrı şəhərlərinə göndərmişlər. 1834-cü ildə fransalı səyyah Dübua de Manpera Şuşadan Tiflisə gedərkən yolüstü Xanlarda (Yelenendorf) dayanmış və bu ərazidə qazıntı işi aparmışdı. Aşkar etdiyi tuncdan hazırlanmış əşyaları və qara rəngli boyalı qabları Fransaya göndərmişdi.

Keçən əsrin II yarısından başlayaraq Gədəbəy, Qalakənd mis mədənləri xarici kapitalın diqqətini özünə cəlb edir. Buraya gələn xarici mütəxəssislər misəridən zavodların inşası zamanı üzə çıxarılan zəngin qəbirlərə və başqa arxeoloji yadigarlara xüsusi maraq göstərmişlər. 1883-cü ildə zavodun mühəndislərindən Kox Şamxor yaxınlığında apardığı qazıntı zamanı üzə çıxarılan 40-a qədər çaxmaq daşından hazırlanmış daş aləti zavodun sahibinə bağışladı. Sonuncu isə onları Azərbaycanın maddi mədəniyyətinə xüsusi maraq göstərən dostu R. Virxova hədiyyə vermişdi. «Hədiyyələr» Berlinə göndərildi. 1884-cü ildə zavodun əməkdaşı Krome Simis zavodun ərazisində qazma-torpaq işləri apararkən bir neçə daş qutu qəbiri, 1888—1889-cu illərdə isə V. Belk Virxovla birlikdə 300-ə qədər qəbir açdılar. Onların əksəriyyəti daş qutu qəbir tipi nümunələri idi. Qəbirlərdən qarət edilən mədəniyyət abidələri Almaniyanın Hamburq və Münhen muzeylərinə göndərildi.

XIX əsrin 80-ci illərində naməlum həvəskar arxeoloq Xanlar şəhərinin cənubunda apardığı qazıntı zamanı uzunboğaz çəkməyə oxşayan gildən hazırlanan çox nəfis qab aşkar etdi. Sonralar almaniyalı Emil Resler, daha sonra isə Y. Hummel keçən əsrin sonlarında Xanlar rayonu ərazisində uzunboğaz çəkməyə oxşar gil qabın tapılmasını təsdiq etdilər.

XIX əsrin 30-cu illərində Azərbaycanın qədim tarixinin arxeoloji baxımdan öyrənilməsi 70-ci illərə qədər sistemsiz şəkildə aparılmış və qeyri-elmi xarakter daşımışdır. 70-ci illərdən etibarən Qafqazın, o cümlədən Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsində yeni mühüm addım atıldı. 1871-ci ilin oktyabr ayında Tiflis şəhərində Qafqaz Arxeoloji Komitəsi təsis edildi. 1872-ci ildə o, Qafqaz arxeologiya həvəskarlarının cəmiyyəti adlandırıldı. 1879-cu ildə rus həvəskar arxeoloqları İ. S. Polyakov Naxçıvan ərazisində, N. O. Selosani isə qədim Bərdədə apardıqları qazıntı-axtarış işləri zamanı bir sıra maddi-mədəniyyət abidələri üzə çıxarıldı. Lakin sonuncular qeydə alınmadı.

1881-ci ildə toplanan cəmiyyətin qurultayı Qafqazın arxeoloji baxımdan tədqiq edilməsinin zəruri olduğunu qeyd etdi. Məhz bu andan etibarən Qafqazın, o cümlədən Azərbaycanın nisbətən sistemli şəkildə və Qafqaz arxeologiya cəmiyyətinin nəzarəti altında öyrənilməsi başlandı. 80-ci illərdən başlayaraq Azərbaycanın maddi-mədəniyyət tarixinə həm Rusiya arxeoloqlarının, həm də

xarici arxeoloqların marağı daha da artdı. Keçən əsrin 80—90-cı illərində Moskva arxeoloji cəmiyyətinin tapşırığı ilə cəmiyyətin üzvü A. A. İvanovski və Şuşa realni məktəbinin alman dili müəllimi Emil Resler Azərbaycanın qərbində bir sıra qazıntı işləri apardılar. 1896-cı ildə onlar Gədəbəy və Qalakənd ərazisində 72 daş qutu qəbiri aşkar etdilər. Oradan üzə çıxarılan çox qiymətli maddi mədəniyyət abidələri Moskva Dövlət Tarix Muzeyinə göndərildi. Bu yadigarları ilk dəfə olaraq elmi arxeoloji cəhətdən tədqiq edən A. A. İvanovski əldə etdiyi nəticələri «Qafqaz arxeologiyasının materialları» toplusunda çap etdirdiyi «Zaqafqaziya haqqında» hesabatında ümumiləşdirdi. Lakin A. İvanovskinin hesabatı Azərbaycanın maddi-mədəniyyət tarixinin elmi baxımdan öyrənilməsində ilk addım olsa da, onun elmi-metodoloji səviyyəsi aşağı olmuşdur. Hesabatda tədqiq edilən abidələrin, aşkara çıxarılan qəbirlərin xəritələri tərtib edilməmişdir. Qərbi Azərbaycanın dağətəyi ərazisindəki kurqanların öyrənilməsilə maraqlanan E. Resler ilk dəfə olaraq göstərdi ki, bu ərazidə kurqan altında dəfn etmək adəti çox qədimdir.

1896—1899-cu illərdə A. İvanovski və E. Resler Xanlar şəhərinin cənubunda bir neçə kurqan açıb tədqiq etdilər. Lakin onlar haqqında hesabat tərtib edilmədi. Tarixi ədəbiyyatda bu kurqanlardan aşkar edilən maddi-mədəniyyət abidələri haqqında məlumat yoxdur. E. Resler 1892—1893-cü illərdə Gəncəçay hövzəsində bir sıra arxeoloji abidələri nəzərdən keçirdi, 1901-ci ildə isə Şamxor rayonu ərazisində iki qəbirdə qazıntı işi apardı. Onun aşkar etdiyi əşyalar eneolit, tunc və ilk dəmir dövrləri—e. ə VI—I minilliyin əvvəlləri tarixinə dair materiallardır. O, tədqiqatının nəticələrini Arxeologiya Cəmiyyətinə göndərdiyi hesabatda ümumiləşdirdi.

1896-cı ildə Yelizavetpol (Gəncə) əyalət xalq məktəbinin inspektoru A. Y. İoakimov Xanlar rayonu ərazisinin müxtəlif yerlərində qazıntı işləri apardı və bir sıra qiymətli qəbir əşyaları üzə çıxardı. O, aşkar etdiyi qəbir əşyalarını və yerli əhalinin torpaq işləri zamanı bu ərazidən üzə çıxardıqları maddi-mədəniyyət abidələrini toplayıb sistemə saldı və onları Moskva Dövlət Tarix Muzeyinə göndərdi.

Qərbi Azərbaycanın arxeoloji abidələrinə maraq göstərən əcnəbilər arasında dağ mühəndisi, almaniyalı B. Şults, aptek işçisi, almaniyalı B. Rozendorf və onun qardaşı burada aşkar etdikləri maddi-mədəniyyət abidələrini sənədləşdirmədən, onların nəfislərini Avropa muzeylərinə göndərmiş, «qiymətli» saymadıqlarını isə məhv etmişlər.

Fransalı arxeoloq Jak de Morqan 1886—1889-cu illərdə Qafqazda, o cümlədən Azərbaycan ərazisində və Şimali İranda son tunc və dəmir dövrünə dair bir sıra qazıntı işləri aparmışdır. Jak de Morqan 80-ci illərdə Talış rayonunda 230-dan artıq qəbir abidəsini tədqiq etdi. Burada zahirə çıxarılan maddi-mədəniyyət yadigarları Azərbaycanın tunc və ilk dəmir dövrü tarixi inkişafı haqqında məlumat verirlər. O, burada üzə çıxardığı abidələrin ən nəfislərini Parisin Sen Jermen muzeyinə göndərdi. Bu materialları sonralar elmi baxımdan tədqiq edən Jak de

Morqan belə bir konsepsiya irəli sürdü ki, Azərbaycan ərazisində ilk insanlar tunc dövründə, miqrasiya yolu ilə məskunlaşmışlar.

1901-ci ildə Tiflisdə Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsi təsis edildi. 1905-ci ildə Moskva Arxeoloji Cəmiyyətinin Tiflis şöbəsinin razılığı ilə ehtiyatda olan zabit Skinder V.A. Gəncəçay ərazisində, Kirovabadla (Yelizavetpol) Xanlar (Yelenedorf) arasındakı sahədə 7 kurqan və Çovdar kəndi yaxınlığında 2 daş qutu qəbiri aşkar etdi. Əldə etdiyi materialların tədqiqi nəticələrini 1906-cı ildə çap etdirdiyi «Опыт археологической разведки» adlı kitabında ümumiləşdirdi. 1908-ci ildə isə dağ mühəndisi Ferdinand Lass Daşkəsən və Quşçu kəndi ərazisində 7 daş qutu qəbiri açdı. Onun buradan aşkar etdiyi abidələrin yalnız bir qismi Xanlar ölkəşünaslıq muzeyinə daxil ola bildi. Digərlərinin ünvanı məlum deyil.

1908—1920-ci illərdə V. Ter-Qukasov Gəncəçay ərazisində arxeoloji kəşfiyyat işi aparmış və Azərbaycanın tunc dövrü tarixinə dair bir sıra maddi-mədəniyyət abidələri aşkar etmişdir. V. Ter-Qukasov 1913-cü ildə Quşçu kəndi yaxınlığında apardığı qazıntı işləri nəticəsində daş qutu qəbirlərindən üzə çıxardığı abidələri və yerli əhalidən əldə etdiyi tuncdan hazırlanmış əşyaları, gil qab qalıqlarından ibarət materialları sistemə salmış və Gürcüstan Dövlət muzeyinə bağışlamışdı.

Xanlarda müəllimlik edən almaniyalı O. Vensel və D. Berman bu ərazidə bir neçə yeni kurqanı sistemsiz və özbaşına açmış, onlardan aşkar edilən maddi abidələrin ən nəfisini Almaniyaya göndərmiş, «qiymətli» saymadıqlarını isə məhv etmişlər.

Azərbaycanın arxeoloji cəhətdən tədqiqinin dövrümüzə gəlib çatan materiallarının təhlili göstərir ki, onlar, əsasən, Azərbaycanın qədim tarixinin, e. ə. II minilliyin II yarısından başlayaraq I minilliyin I yarısına qədər olan dövrünü əhatə edir.

Azərbaycan tarixinin, o cümlədən onun qədim dövrü tarixinin öyrənilməsi və yazılmasında respublikada ilk elmi-pedaqoji mərkəz olan və 1922-ci ildən fəaliyyətə başlayan Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsi mühüm rol oynayıb.

1920-ci ildə Azərbaycan Dövlət Tarix Muzeyi, 1923-cü ildə «Azərbaycan tədqiq və tətəbbə cəmiyyəti» («Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət») və s. mərkəzlər təşkil edildi. Bu mərkəzlər, xüsusilə 1929-cu ilə qədər fəaliyyət göstərən «Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət» Azərbaycanın tarixini, o cümlədən, onun qədim dövrü tarixinə dair materialların toplanması, qeydə alınması, sistemə salınması və qismən dərc edilməsi sahəsində xeyli iş gördü.

İ. Meşşaninov 1926-cı ildə çap etdirdiyi «Azərbaycandan tapılmış Assuriya muncuğu» adlı məqaləsində göstərirdi: Mən, mənim üçün doğma olan Azərbaycanı, onun qədim maddi-mədəniyyət abidələrini intensiv öyrənməklə məşğul olan yerli həmkarlarımla birlikdə tədqiq etməyə başladım.

T. Passek, B. Latıninin apardıqları arxeoloji axtarışlar zamanı aşkar edilən maddi-mədəniyyət abidələri tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərini əhatə edirdi.

20-ci illərin ortaları və ikinci yarısında ilk dəfə olaraq Azərbaycanın qısa tarixini yazmağa səy göstərildi. Bu sahədə ilk təşəbbüsü Y. A. Paxomov və iki il sonra isə V. M. Sısoyev etdi.

Y. A. Paxomovun və V. M. Sısoyevin yazdıqları Azərbaycan tarixinə dair əsərlər o dövrün mütərəqqi hadisəsi idi. İlk dəfə olaraq Azərbaycanın tarixi xronoloji ardıcıllıqla, tunc dövrünün sonu və dəmir dövrünün əvvəllərindən XIX əsrin birinci rübünün sonlarına qədərki dövrün tarixinin işıqlandırılmasına təşəbbüs edilmişdir. Hər iki əsərdə Qafqaz albanlarının tarixi və onunla bağlı olan siyasi məsələlər şərh edilmişdir.

V. M. Sısoyevin «Azərbaycan tarixinin qısa oçerki (Şimal)» və həm də Azərbaycan SSR orta məktəb şagirdləri üçün yazdığı «Azərbaycan tarixinə giriş oçerki»* adlı kitablarında Azərbaycanın qədim tarixi, əsasən onun tunc və ilk dəmir dövrü tarixi məsələlərinə daha ətraflı nəzər salır və oxucuda o dövr haqqında təsəvvür yaranmasına səy göstərir.

«Azərbaycan tarixinin qısa oçerki (Şimal)» adlı kitabın «Qədim dövrdən Arşakı dövrünə qədər» adlanan I fəslində Azərbaycanın qədim dövrünün tədqiqinə nəzər salınır. Kitabın mənbəşünaslıq əsasını Assuriya-Babil, Xett-İran (Əhəmənilər), Urartu və ya Van mixi yazıları təşkil edir. İndiyə qədər (XX əsrin 20-ci illərinə qədər) 150-yə qədər mixi yazı aşkar edilmişdir. Lakin onlardan heç biri də Şimali Azərbaycan ərazisində aşkar edilməmişdir. Bunun səbəbini V. M. Sısoyev bu ərazinin Urartu dövləti təsirinə məruz qaldığını, Urartu dövləti hakim dairələrinin burada olmamaları faktı kimi qeyd edir. Van mixi yazılarına yaxından bələd olan V. M. Sısoyev qeyd edir ki, bu yazılarda Şimali Azərbaycanın əhatə etdiyi ərazidə yaşayan bəzi tayfaların, xüsusən udinlərin və albanların adları çəkilir. Bu baxımdan həmin yazılara diqqət yetirmək, onları tədqiq etmək mühüm elmi əhəmiyyət kəsb edir.

Görkəmli şərqşünas akademik V. V. Bartold da Azərbaycanın qədim tarix salnaməsinə bəzi yeni səhifələr gətirmişdir. O, Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində oxuduğu və 1925-ci ildə çapdan çıxan «Müsəlman aləmində kaspiətrafı vilayətlərinin yeri» adlı mühazirələr toplusunda Azərbaycanın qədim tarixi məsələlərinə diqqət yetirir.

«Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət» 1926-cı ilin yayında akad. İ. İ. Meşşaninovun, həmin ilin payızında isə A. A. Millerin rəhbərliyi altında ilk geniş arxeoloji ekspedisiyalar təşkil etdi. Azərbaycanın arxeologiya elminin ilk nümayəndələrindən biri olan Davud bəy Şərifov 20-ci illərin ortalarında

* V. M. Sısoyev bu «Oçerk»lə orta məktəblər üçün Azərbaycan tarixinə dair dərsliyin yazılmasının əsasını qoydu.

Yaloylutəpə qədim yaşayış yerində apardığı qazıntı işləri zamanı yurdumuzun qədim mədəniyyətinə dair bir sıra qiymətli tapıntılar üzə çıxartdı. Məhz bu ekspedisiyalarla Azərbaycanın arxeoloji cəhətdən planlı və sistemli öyrənilməsinin təməli qoyuldu. Azərbaycan arxeologiyasının planlı şəkildə öyrənilməsində 1923-cü ildə təşkil edilən «Azərbaycan Arxeoloji komitəsi» mühüm rol oynamışdı.

1925—1926-cı illərdə təşkil edilən ekspedisiyalar nəticəsində Dağlıq Qarabağ, Qafqaz Albaniyasının paytaxtı Qəbələ, Gəncə qəzasına daxil olan Çövdar kəndi və Naxçıvan Muxtar Respublikası ərazilərində arxeoloji qazıntı işləri aparıldı. Qazıntı işlərinin nəticələri qruplaşdırıldı və onların ilk arxeoloji xəritələri tərtib edildi. Qazıntılar zamanı 29 qədim maddi-mədəniyyət abidəsi qeydə alındı.

Bu illərdə ilk dəfə olaraq arxeoloji qazıntı işləri nəticəsində aşkar edilən maddi-mədəniyyət abidələri, habelə ayrı-ayrı muzeylərdə saxlanılan materiallar sistemə salındı və ümumiləşdirildi. T. Passek və B. Latının «Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət»in materialları səhifələrində çap etdikləri «Şimali Azərbaycanın qədim tarixi» və «Tarixdən əvvəl Azərbaycanın oçerki» adlı əsərlərdə respublika ərazisində aparılan qazıntıların nəticələri ümumiləşdirilir və habelə 20-ci illərin ortalarında vətənimizin qədim tarixini öyrənmək məqsədilə təşkil edilən arxeoloji və etnoqrafik ekspedisiyaların yığcam icmalı verilir. Həmin icmalda Azərbaycanın ərazisindən tapılan maddi-mədəniyyət abidələrinin harada, hansı muzeylərdə saxlandığı, onların kimlər tərəfindən öyrənildiyi və nəticələrinin hansı elmi arxeoloji məcmuələrdə çap edildiyi barədə məlumat verilir.

1926-cı ildə akademik İ. İ. Meşşaninov və A. A. Millerin rəhbərliyi altında Naxçıvandan 18 km cənubda yerləşən Qızılvəng monastrı* yaxınlığında aparılan qazıntı işləri nəticəsində aşkar edilən tunc dövrü mədəniyyətinə aid zəngin material bir çox tədqiqatçıların diqqətini özünə cəlb etdi. Burada əldə edilmiş maddi-mədəniyyət abidələrini öyrənən İ. İ. Meşşaninov Azərbaycanın qədim tarixi üçün onların çox böyük elmi əhəmiyyətə malik olduğunu qeyd edirdi.

Ekspedisiyanın iştirakçısı, 1926-cı ildən «Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət»in və «Azərbaycanın qədim və incəsənət abidələrini qoruyan komitə»nin əməkdaşı, İshaq Cəfərzadə göstərir ki, ekspedisiya zamanı Qızılvəng monastrının qapılarının birinin üzərinə geydirilmiş daşüstü yazı aşkar edilmişdir. Bu daş parçası üzərindəki yazıda Naxçıvan ərazisinin Atropatakan, yəni qədim Azərbaycan ərazisi olduğu göstərilirdi. Həmin yazı sonralar yoxa çıxmışdı.

1926-cı ildə Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsi məqsədi ilə təşkil edilən ekspedisiyanın tərkibində Azərbaycanın bir sıra gənc arxeoloq və etnoqrafları—İ. Cəfərzadə, Ə. Ələkbərov, Ə. Ələsgərzadə, İ. Əzimbəyov, V. M. Sısoyev, İ. P. Şeblıkin və b. iştirak etmişlər. Onların apardıqları arxeoloji və

* 1896-cı ildə ilk dəfə rus zabiti Fyodorov Qızılvəngdə qazıntı işləri aparmış və bir sıra qiymətli maddi-mədəniyyət abidələri aşkar etmişdir. Lakin onların çox hissəsi qeydə alınmamışdır.

etnoqrafik axtarışlar nəticəsində babalarımızın həyat tərzi və yaşayışı haqqında məlumat verən materiallar qeydə alınmışdır.

20-ci illərin ortalarında görkəmli arxeoloq-etnoqraf Ə. Ələkbərov Quruçay və Köndələnçay vadisində yerli maldar əhalinin həyat tərzini öyrənmək məqsədi ilə apardığı tədqiqat işləri zamanı təsadüfən küp qəbirlərə rast gəlir. Bununla da Ə. Ələkbərov tarixi ədəbiyyatda ilk dəfə olaraq küp qəbirlərin yayılmasının tarixi coğrafiyası haqqında əvvəllər mövcud olan mülahizələri xeyli dürüstləşdirir.

1927—1928-ci illərdə respublikanın arxeoloji baxımdan öyrənilməsinin sahəsi daha da genişlənir. Bu illərdə Qafqaz tarixi-arxeoloji institutunun iştirakı ilə təşkil edilən ekspedisiyalar nəticəsində Araz çayı boyu, Culfa şəhəri və onun yaxınlığındakı Xanağa kəndi (Noraşen), Xaraba-Gilan ərazisində ilk şəhər mədəniyyəti üzə çıxarıldı və öyrənildi.

Respublikanın ərazisində aparılan arxeoloji qazıntı işləri zamanı əldə edilən maddi-mədəniyyət abidələri materiallarını tədqiq edən akademik İ. İ. Meşşaninov 1932-ci ildə Zaqafqaziyada və o cümlədən Azərbaycanda siklopik tikinti mədəniyyəti tarixi haqqında ümumiləşdirilmiş əsər çap etdirdi[1].

30-cu illərin ortalarında (1934—36-cı illərdə) istedadlı alim Ə. Ələkbərov Naxçıvan ərazisində arxeoloji tədqiqatı genişləndirmiş və tunc dövrü mədəniyyəti tarixinə aid bir sıra yeni abidələr aşkara çıxarmışdır.

20-ci illərin ortalarından etibarən İ. İ. Meşşaninov, A. A. Miller, T. S. Passek, B. A. Latınin və b. yaxından iştirakı ilə Azərbaycanın müxtəlif zonalarında aparılan arxeoloji axtarışlar nəticəsində zəngin maddi-mədəniyyət abidələri aşkar edilib ünvanlaşdırıldı. Azərbaycanın arxeoloji cəhətdən müntəzəm öyrənilməsində, bu illərdə yaradılan başqa bir elmi mərkəzlərlə yanaşı, 1927-ci ildə təşkil edilən «Azərbaycanın Tarix, İncəsənət və Təbiət Abidələrini Qoruyan Komitə» mühüm rol oynamışdır.

20-ci və 30-cu illərin əvvəllərində Azərbaycan ərazisində aparılan arxeoloji və etnoqrafik axtarışlar və üzə çıxarılan tapıntılar «Azərbaycan Arxeoloji Komitəsinin əsərləri» (1925-1926), «Azərbaycanı Tədqiq və Tətəbbə Cəmiyyətinin xəbərləri» (1926-1929), «Azərbaycanın Tarix, İncəsənət və Təbiət Abidələrini Qoruyan Komitənin xəbərləri» (1927-1929) və b. jurnallarda nəşr edildi.

30-cu illərin əvvəllərindən etibarən Azərbaycanı tədqiq edən və öyrənən mərkəzlərin fəaliyyət dairəsi xeyli genişlənir. 1929-cu ildə Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyətin bazası əsasında Azərbaycan Elmi Tədqiqat İnstitutu (Az ETİ) təşkil edildi. «Cəmiyyətin» tarix-etnoqrafiya bölmələri tarix-etnoqrafiya şöbəsi kimi elmi tədqiqat institutunun tabeliyinə verildi. İnstitutun tarix-etnoqrafiya şöbəsi Azərbaycan etnoqrafiyasının öyrənilməsi işini bir xeyli canlandırdı. Şöbənin elmi fəaliyyətində Ə. Ələkbərov yaxından iştirak etmişdir. O, topladığı maddi-mədəniyyət abidələrini və qədim yazılı ədəbiyyatdan əldə etdiyi

---

[1] И.И. Мещанинов. «Циклопические сооружание Закавказья, «Изд. ГАИМК», л., т. в. вып. 4-7, Л., 1932.

materialları qarşılıqlı surətdə tədqiq etməklə «Azərbaycanlılar» adlı əsərini yazıb başa çatdırdı. Əsərdə ilk dəfə azərbaycanlıların qədim xalqlardan olduğunu əsaslandırmağa səy göstərilir və «Azərbaycanlılar» termininin meydana gəlməsi tarixi, həmçinin bu anlayışın toponimik və linqvistik kökləri müəyyən dərəcədə aydınlaşdırılır.

30-cu illərin ortalarında Azərbaycanın arxeoloji, etnoqrafik, dilçilik, numuzmatik, memarlıq və incəsənət tarixi baxımından öyrənilməsi sahəsi də xeyli genişləndi. Bu illərdə 80-dən çox elmi ekspedisiya təşkil edildi. Elmi axtarışlar zamanı 60-a qədər yeni abidə aşkar edildi. Bir çox qəbirlər üzərində təpə tədqiq edilib qeydiyyata alındı.

1939-cu ildə tarix, arxeologiya, etnoqrafiya və ədəbiyyat institutu əsasında müstəqil tarix institutu təşkil edildi. Aparılan tədqiqat işlərinin nəticələri bu dövrdə nəşr edilməyə başlayan «Azərbaycan tarixinə dair mənbələrin icmalı» adlı topluda çap edilirdi.

1928-ci ildə təşkil edilən, 1929-cu ildən «Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyət»in şöbəsinə çevrilən Xanlar ölkəşünaslıq muzeyi əməkdaşları Y. Hummelin rəhbərliyi altında Gəncəçay vadisində qazıntı işləri apardılar və ilk dəfə olaraq neolit və eneolit dövrünə aid mədəniyyət nümunələri aşkar etdilər. 1934-cü ildə SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsi Şamxor—Gədəbəy zonasını arxeoloji baxımdan öyrənmək üçün elmi ekspedisiya təşkil etdi. Aparılan arxeoloji axtarış zamanı 50-yə yaxın qala tipli siklopik tikinti abidələri aşkar edildi və qeydə alındı. 1937-ci ildə SSRİ Elmlər Akademiyasının maddi-mədəniyyət, dil və ədəbiyyat şöbəsinin Azərbaycan filialının təşkil etdiyi elmi ekspedisiya Dəstəfur, Şamxor, Xanlar, Gədəbəy («Xocalı Gədəbəy mədəniyyəti») rayonlarında arxeoloji axtarış dairəsini daha da genişləndirdi.

Ekspedisiyanın məqsədi bu regionda aşkar edilən qədim yaşayış məskənlərinin, siklopik tikinti abidələrinin yayılma dairəsini təyin etmək idi. Tədqiqat işləri zamanı Dəstəfur, Şamxor, Gədəbəy rayonları ərazisində bir sıra yeni maddi-mədəniyyət abidələri aşkar edilib qeydə alındı. Ekspedisiyanın iştirakçılarından İshaq Cəfərzadə tədqiqatın nəticələrini 1938-ci ildə nəşr etdirdiyi «Azərbaycanın siklopik tikintiləri» adlı əsərində ümumiləşdirdi.

1937-ci ildən SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının tarix, dil və ədəbiyyat institutunun maddi-mədəniyyət bölməsinin rəhbəri Ə.Ələkbərov Azərbaycanın arxeoloji və etnoqrafik tədqiqi və Azərbaycanda arxeologiya və etnoqrafiya elminin inkişaf etdirilməsi işində yaxından iştirak etmiş və bu sahədə bir sıra faydalı tədbirlərin təşəbbüsçüsü, təşkilatçısı və iştirakçısı olmuşdur. 30-dan artıq qiymətli elmi əsərin müəllifi olan Ə.Ələkbərov Zaqafqaziya arxeologiyasında əhəmiyyətli yer tutan küp və sinifli cəmiyyətin təşəkkül tapması dövrünə aid olan qəbirlərin, onların ayrı-ayrı tiplərinin, küp qəbirlərinin yayılma coğrafiyasının, xronoloji əhatə dairəsinin müəyyən edilməsinin görkəmli tədqiqatçısı olmuşdur.

Şərq ölkələri arxeologiyasında çox diqqətlə tədqiq edilən və öz elmi əhəmiyyətinə görə mühüm yer tutan boyalı qablar mədəniyyəti alimin diqqətini cəlb edən mühüm sahələrdən biri olmuşdur. Onu da deyək ki, Azərbaycanda qədim şəhər mədəniyyəti kimi mühüm bir məsələnin qoyuluşu da Ə. Ələkbərovun adı ilə bağlıdır.

1930—1940-cı illərdə Y. İ. Hummel Gəncəçay hövzəsində apardığı geniş arxeoloji qazıntı işləri nəticəsində tunc dövrünə aid bir sıra qəbirlər və b. maddi abidələr aşkara çıxartdı və tədqiq etdi. O, Zaqafqaziyanın arxeoloji tədqiqi tarixində ilk dəfə olaraq paleobotanika materiallarına diqqət yetirdi. Beləliklə, 30-cu illərin ikinci yarısında Ə. Ələkbərov, İ. Cəfərzadə, Y. Hummelin başçılığı altında aparılan arxeoloji qazıntı işləri nəticəsində çoxlu miqdarda maddi-mədəniyyət abidələri aşkar edildi. Bu materiallar Azərbaycanın neolit, tunc və dəmir dövrünün əvvəlləri haqqında qiymətli məlumat verirdilər. Onların ümumiləşdirilməsi əsasında Azərbaycanın e. ə. II minilliyin sonu, I minilliyin əvvəlləri tarixi haqqında bir sıra yeni fikir söyləmək mümkün oldu. Bu axtarışların nəticələri Azərbaycanın qədim tarixinin öyrənilməsi dairəsini və onun tarixi coğrafiyasını xeyli genişləndirdi. 1941-ci ildə Uzuntəpə (Muğan düzü) nekropolu aşkar edildi.

İ. Cəfərzadə 30-cu illərin ortalarından keçən dövr ərzində arxeoloji axtarışlar nəticəsində aşkar edilən maddi-mədəniyyət abidələrinin geniş tədqiqinə əsaslanaraq belə bir elmi nəticəyə gəldi ki, Azərbaycan qədim insanların ilk məskənlərindən olmuşdur.

Alim Abşeronda daş alətin aşkar edilməsi faktına əsaslanaraq bu regionda qədim insanların yaşadıqları haqqında əvvəllər söylənilən fərziyyələrin real olduğunu sübuta yetirdi. Daş arşinin (daş bıçaq) tapılması Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsində, burada paleolit dövrü mədəniyyətin yayıldığını, ilk qədim insanların əmək fəaliyyətinə başladığını söyləməyə imkan verdi. Sonrakı elmi axtarışlar göstərdi ki, bu regionda həyat 400 min il bundan qabaq başlamışdır. Azərbaycanın arxeoloji və geoloji tədqiqi zamanı aşkar edilən nəsli kəsilmiş heyvan növlərinin qalıqları bunu bir daha isbat edir.

İ. Cəfərzadənin Abşeron yarımadasının cənubunda yerləşən Qobustanda aşkar etdiyi qayaüstü təsvirlər 40—50-ci illərdə Azərbaycan arxeologiya elmində mühüm kəşf idi. Bu qayaüstü rəsmlər ilk dəfə 30-cu illərin sonlarında diqqəti cəlb etmişdir. Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar onları tədqiq etmək, bu rayonda fundamental elmi axtarışlar aparmaq işi təxirə salınmış və onların müntəzəm tədqiqinə yalnız 1947-ci ildən başlanmışdır.

Müharibədən sonra Azərbaycanın arxeoloji baxımdan öyrənilməsinin coğrafi ərazisi xeyli genişləndi. 1945-ci ildə təsis edilən Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu Azərbaycanın arxeoloji cəhətdən tədqiq edilməsi işini bərpa edib, onu daha da canlandırdı. Bununla da respublikanın kompleks arxeoloji təlqiqi başlandı. Mingəçevir SES-nin tikintisi ilə əlaqədar Kür çayı

sahilində aparılan arxeoloji tədqiqatlar bu qədim diyarın bir sıra mühüm tarixi sirlərinin aşkar edilməsinə imkan verdi. S. M. Qazıyevin rəhbərliyi ilə aparılan Mingəçevir qazıntıları (1946—1953-cü illər) Azərbaycan arxeologiya elminin inkişafında böyük rol oynamış, milli tarixçi arxeoloqların hazırlanması üçün əsl məktəb olmuşdur. Bu arxeoloji tədqiqatlar nəticəsində Azərbaycan tarixinin ilk tunc (e. ə. III minillik) dövründən başlamış orta əsrlərə (XVI—XVII əsrlərə) qədərki geniş bir tarixi dövrün mədəniyyətini özündə qoruyub saxlayan yaşayış yerləri və qəbir abidələri aşkar edildi, 40 mindən artıq maddi-mədəniyyət qalıqları üzə çıxarılıb qeydə alındı. Tədqiqatların nəticələri nəşr edilən «Qədim Mingəçevir», «Mingəçevirin küp qəbirlər albomu», «Mingəçevir III—VIII əsrlərdə», «Azərbaycanın maddi-mədəniyyəti» adlı məqalələr toplusu və b. əsərlərdə ümumiləşdirildi.

Azərbaycanın qədim dövrünün arxeoloji abidələr əsasında öyrənilməsində görkəmli arxeoloq kimi tanınan və bir sıra qiymətli elmi əsərlərin müəllifi olan Osman Həbibullayevin başçılığı ilə Naxçıvan ərazisində aparılan qazıntı işləri nəticəsində aşkar edilən zəngin maddi-mədəniyyət abidələri mühüm elmi əhəmiyyət kəsb edir. Naxçıvan şəhərindən 8 km şimal-şərqdə yerləşən Kültəpə kəndi ərazisindəki çoxtəbəqəli qədim yaşayış yerində aparılan arxeoloji qazıntılar (1951—1964-cü illər) nəticəsində aşkar edilən zəngin materiallar Zaqafqaziyanın, xüsusən Azərbaycanın eneolit və tunc dövrü mədəniyyətlərinin sirlərini açmaq, bu tarixi dövrün insanlarının həyat tərzi, ictimai quruluşu haqqında yeni elmi ümumiləşdirmələr etmək, fikir aydınlığı yaratmaq mümkün oldu.

Naxçıvan ərazisinin möhtəşəm və mürəkkəb qədim abidələr silsiləsinə aid olan I, II Kültəpə, Qızılvəng nekropolu və b. qədim yaşayış yerlərində aşkar edilən maddi-mədəniyyət qalıqları nəinki Azərbaycanın, hətta bütün Qafqazın ən qədim tarixinin eneolit və tunc dövrü mədəniyyətlərinin, eləcə də ölkəmizin qədim dövrü tarixinin bəzi mühüm məsələlərini öyrənmək üçün zəngin elmi laboratoriyadır. Kültəpə abidələri Zaqafqaziya arxeologiyasında xüsusi elmi əhəmiyyəti olan «Kür-Araz mədəniyyəti»nin (ilk tunc dövrü mədəniyyəti) xüsusiyyətlərini müəyyənləşdirməyə imkan vermişdir. Bu abidələrin öyrənilməsi nəticəsində Azərbaycan ərazisində altı min il bundan əvvəl yerli zəmin əsasında metallurgiyanın və metalişləmə sənətinin meydana gəlib yayılmağa başladığı barədə fikir söyləmək mümkün oldu.

Azərbaycan arxeologiyasının müharibədən sonrakı illərdəki uğurlu axtarışları və qiymətli tapıntıları respublikada elmin bir sıra yeni sahələrinin — etnoqrafiyanın, epiqrafiyanın, numizmatikanın, heraldikanın (qədim gerbləri öyrənən elm), memarlığın və başqa qovuşuq elm sahələrinin inkişafına əsaslı təkan oldu.

*II fəsil*

## DAŞLAR DANIŞIR

Xalq arasında məsəl var: «—Daş olsaydım əririrdim, torpaq idim dayandım». Daşlar da insan kimi torpaqdan yaranır. Sonra onlar da insanlar kimi torpağa qayıdır, ovulur, yerə qarışıb torpaq olur. Daşları əridən torpaq, lakin ona can verən, soraqlı edən insanın — Azıx adamının çənəsini 400 min il qoynunda hifz edib saxlamış və dünyaya bəyan etmişdir ki, indiki azərbaycanlıların ulu babaları bu kainatın ilk sakinlərindən olmuşlar.

F. Engels «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» adlı əsərində mədəniyyətin tarixdən əvvəlki dövrünü vəhşilik, barbarlıq və sivilizasiyadan ibarət olan 3 pilləyə bölür və qeyd edir ki, bu pillələr yaşayış vasitələri istehsalındakı tərəqqiyə uyğun olaraq bir-birini əvəz etmişdir.

Vəhşiliyin aşağı pilləsində yaşayan insanlar təbiətin onlara bəxş etdiyi qidadan—meyvə, qoz, kök və s. istifadə etmişlər. Bu dövr insanların heyvanlar aləmindən ayrıldığı dövr idi. Vəhşiliyin orta pilləsində insanlar balıq və s. ərzaqdan istifadə edirlər. Onların odla ilk tanışlığı da bu pillədə başlayır. Balıqdan ərzaq məmulatı kimi istifadə etmək və od əldə etmək, bunların hər ikisi təbii surətdə bir-birilə bağlıdır. Balıq odun gücünə ərzaq üçün yararlı məmulat ola bilmişdir. Azərbaycan tarixçilərindən İ. Cəfərzadənin, M. M. Hüseynovun uzunmüddətli və gərgin arxeoloji axtarışları nəticəsində toplanılan maddi-mədəniyyət abidələrinin kompleks şəkildə öyrənilməsi ilə belə bir elmi ümumiləşmə edildi ki, Zaqafqaziya və xüsusən Azərbaycan insanın odla tanış olduğu ilk regionlardan biri, bəlkə də birincisi olmuşdur.

Azərbaycanın iqlim şəraiti, çayların bolluğu və ərazisinin müəyyən bir hissəsinin dənizlə əhatə olunması bu ölkənin ilk yaşayış məskənləri olmasına imkan vermişdir. Arxeoloji tədqiqatlar bunu sübut edirlər. İnsan yaşayışının bu pilləsində qədim insanların yaşayış vasitələri istehsalında istifadə edilən əmək aləti cilalanmış daş alətlər olmuşlar. 50-ci illərin əvvəllərinə qədər aparılan arxeoloji axtarışlar zamanı Azərbaycan ərazisində bu tipli istehsal vasitələri aşkar edilməmişdir. Bununla belə, Qobustan qayaüstü rəsmləri içərisində yemək hazırlanan çalaların, «qazma sobaları» xatırladan rəsmlərin olması burada ilk insanların vəhşiliyin orta pilləsində yaşadıqlarını fərz etməyə əsas verir. Qobustan qayaüstü təsvirləri burada yaşayan qədim insanların ov aləti kimi ox və kamandan da istifadə etdikləri barədə məlumat verirlər. Bu, onlara balıqçılıqla yanaşı ovçuluqla da məşğul olmağa və beləliklə, əlavə ərzaq ehtiyatı əldə etməyə imkan vermişdir.

Vəhşiliyin yuxarı pilləsi kaman və oxun ixtirası ilə başlayır. Onların ixtira edilməsi insanların geniş həyat təcrübəsinə və inkişaf etmiş əqli qabiliyyətə malik olmalarına parlaq sübutdur.

Qobustan qayaüstü təsvirlərin aşkar edilməsi və onların öyrənilməsi Azərbaycan ərazisində qədim insanların vəhşiliyin yuxarı pilləsi dövründə yaşayıb yaratdıqlarını sübut edir. Lakin qeyd etmək lazımdır ki, bu fərziyyə yalnız son zamanlar, 60-cı illərdən etibarən başlanan geniş miqyaslı və planlı arxeoloji tədqiqat işləri nəticəsində elmi cəhətdən sübut edildi. 60-cı illərə qədərki Azərbaycan tarixşünaslığında respublikanın ərazisində yaşayan insanların daş dövrü ilə mis dövründən ibarət olan keçid dövründə — eneolit dövründə məskunlaşdıqları fərz edilmişdir.

Məlumdur ki, metal qədim insanların məişətində, onların şüuru və mənəvi tərəqqisində mühüm rol oynamışdır. Qədim insanlar qızıl və gümüş metalla tanış olsa da, insanların iqtisadi və mənəvi inkişafında mis başlıca rol oynamışdır. Qədim insanlar qızıldan və gümüşdən yalnız zinət və bəzək şeyləri kimi istifadə etdikləri halda, misdən istehsal aləti, silah və s. hazırlamışlar. Məhz bu mənada mis qədim insanın həyatında və onun məişətində inqilabi rol oynamışdır. Azərbaycanın ərazisində yaşayan qədim insanların mislə tanışlığı və ondan istifadə etməsi eneolit dövründən başlanmışdır. Arxeoloji tədqiqatlar sübut etdi ki, Qafqazda, o cümlədən Azərbaycan ərazisində e. ə. V—IV minilliklərdə misdən əmək aləti və silah hazırlanmağa başlanmışdır. Lakin misdən hazırlanan alət və silahlar praktiki cəhətdən əlverişli olmadığı üçün qədim insanlar misi qalayla qarışdırıb tunc əldə etdilər. İndiyə qədər tuncdan hansı ölkədə ilk dəfə istifadə edilməsi dəqiq müəyyən edilməmişdir. Lakin bu bir həqiqətdir ki, mis yataqları ilə qalay yatağının yaxın olduğu region tunc dövrünün ilk vətəni olmuşdur. Onu da deyək ki, qədim insanlar qalayla tanış olana qədər mərgümüşdən (mışyak) istifadə etmişlər. Deyilən fərziyyələri ümumiləşdirdikdə belə bir nəticəyə gəlmək olar ki, Qafqaz, o cümlədən Azərbaycanda mis yataqlarının çox geniş olması və mərgümüş ehtiyatının da zəngin olması burada qədim insanların tunc mədəniyyəti ilə daha erkən tanış olmalarına imkan vermişdir. Bu fərziyyəni Kültəpə və b. arxeoloji tapıntıları sübut etdilər.

Geoloji tədqiqatlar həm də sübut edir ki, Azərbaycan ərazisində qalay olmamışdır. Onu buraya kənardan—Ön Asiyadan gətirmişlər. Eyni zamanda təbiidir ki, qalay qədim zamanlarda Azərbaycanın qonşu ölkələrlə iqtisadi əlaqələrinin inkişafında və o ölkələrin ictimai həyat tərzi ilə tanışlığında da ilk mühüm vasitə olmuşdur.

Görkəmli arxeoloqlar İ. Cəfərzadə, S. M. Qazıyev və b. 50-ci illərə qədər apardıqları qazıntı-axtarış işləri nəticəsində aşkar edilən maddi-mədəniyyət abidələrinin tədqiqinə əsasən sübut etdilər ki, Azərbaycanda, eləcə də bütövlükdə Qafqazda erkən tunc dövrü e. ə. III minillikdə başlanmışdı. Xalis misdən hazırlanan əmək alətləri və silahlar praktiki cəhətdən əlverişli olmadığı üçün onlar məişətdə daş alətləri sıxışdırıb aradan çıxara bilməmişdir, hətta mislə qalayın qatışığından ibarət olan tuncun əldə edilməsi də daşdan hazırlanan istehsal vasitələrini məişətdən çıxarmağa qadir olmadı.

Daşdan və habelə misdən hazırlanan əmək alətləri, ev əşyaları qəbilə üzvlərinin ümumi malı hesab olunmuşdur. Güman etmək olar ki, bu dövrdə matriarxat quruluşu mövcud olmuşdur.

İlk mülkiyyət tayfa mülkiyyəti olmuşdur. Azərbaycanda tayfa mülkiyyəti e. ə. III minilliyin II yarısında meydana gəlmişdir. Müharibəyə qədərki dövrdə bu ərazidə qədim insanların mis dövründə yaşadıqları fərz edildiyi halda, son axtarışların nəticələri göstərdi ki, burada yaşayıb-yaradan qədim tayfalar insan cəmiyyətinin ilk pillələrinə mənsub olmuşlar. 50-ci illərdən Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq qədim daş dövrünə: muster mədəniyyətinə aid bir neçə mağara aşkar edildi. Daş dövrünə aid maddi-mədəniyyət abidələrinin öyrənilməsinin nəticələri ayrı-ayrı elmi əsərlərdə ümumiləşdirildi.

1953-cü ildə Azərbaycan SSR EA Tarix və Fəlsəfə İnstitutu S. N. Zamyatinin rəhbərliyi altında Azərbaycanın daş dövrünü tədqiq etmək məqsədilə elmi ekspedisiya təşkil etdi. Ekspedisiyanın bir neçə il apardığı elmi-arxeoloji axtarışların nəticəsində-respublikanın qədim daş dövrü mədəniyyətinə aid bir sıra qiymətli maddi abidələr aşkar edildi.

Bu abidələrin öyrənilməsi, 50-ci illərin ortalarına qədər Azərbaycan ərazisində qədim daş dövrü mədəniyyətinin olub-olmaması, o dövr insanlarının bu ərazidə yaşayıb-yaşamamaları haqqında fikir ayrılığını təkzib etməyə və burada qədim daş dövrü—paleolit mədəniyyətinin yayıldığı barədə elmi fikir söyləməyə əsas verdi.

Arxeoloqların Azərbaycanın qədim sakinlərinin paleolit dövrü haqqında söylədikləri elmi mülahizə geoloq B. Q. Vəkilov və paleontoloq N. İ. Burçak-Abramoviçin geoloji vo paleontoloji tədqiqatlarının nəticələri ilə bir daha əsaslandırıldı.

Beləliklə də, Azərbaycanın qədim daş dövrü tarixi inkişafının öyrənilməsinin ilk əsaslı təməli qoyuldu. Bu başlanğıc sonralar daha da genişlənmiş, sistemli şəkil almış və uğurlu olmuşdur.

50-ci illərin ortalarından 60-cı illərin ortalarınadək Azərbaycanın paleolit dövrünün öyrənilməsinin əsası qoyulduğu halda, eneolit, tunc və ilk dəmir dövrü və bu dövrlərin sakinlərinin yaradıcı fəaliyyəti və həyat tərzinin tədqiqi daha geniş olmuşdur.

60-cı illərin ortalarından sonra Azərbaycanın qədim daş dövrü tarixinin tədqiqi sahəsində mühüm addım atıldı. Respublikanın görkəmli arxeoloqu M. Hüseynov 1968-ci ilin yayında Azıx mağarasında (Hadrut rayonu) apardığı qazıntı işləri zamanı Preneandertal-Azıxantrop adamının aşağı çənəsini aşkar etdi. Bu, çox mühüm elmi kəşf idi. Bu nadir abidə dünyada beşinci, SSRİ-də isə birinci tapıntıdır. Preneandertal və ya Azıxantrop adamın Azərbaycan ərazisində aşkar edilməsi respublikada elm aləminin və birinci növbədə, arxeologiya elminin böyük müvəffəqiyyəti idi.

Əvvəllər tarixi ədəbiyyatda daş dövründə Azərbaycan ərazisində ibtidai insanların yaşamadığı güman edilirdi. M. M. Hüseynovun rəhbərliyi altında Azıx mağarasında aparılan arxeoloji axtarış nəticəsində üzə çıxarılan qədim daş dövrünə aid abidələr bu fikrin doğru olmadığını elmi surətdə sübut etdi. Azərbaycan tarixşünaslığında daş dövrünün tədqiqi mühüm məsələ idi. Bu dövrə aid maddi-mədəniyyət abidələrinin öyrənilməsi nəticəsində aydın olmuşdur ki, Azərbaycan ibtidai insanların arasıkəsilməyən ən qədim yaşayış məskənlərindən olmuşdur. Burada qədim insanlar Alt və Orta Paleolit dövründə yaşamış və yığma (mənimsəmə) təsərrüfat formasından daha mütərəqqi olan istehsal təsərrüfat formasına yüksələ bilmişlər.

Azıxantropun məskəni olan Azıx mağarası Quruçayın sol sahilində yerləşir. Azıx mağarasından aşkar edilən Qədim daş dövrünə aid zəngin materialların kompleks şəkildə təhlilinə əsaslanan tədqiqatçılar ona «Quruçay mədəniyyəti» adı verdilər. Mağara dəniz səviyyəsindən 900 m. hündürlükdədir. Onun cənub və şimalı qalın meşəliklə əhatə olunur. Onun dağ yamacında yerləşməsi və meşəliklə əhatə olunması burada ilk insanın yaşayışı üçün əlverişli olmuşdur.

Azıx mağarasında ilk insan 400 min il bundan əvvəl məskunlaşmışdı. Bu 700 mindən 400 minə qədər geoloji yaşı olan Bakı dövrü bölgüsünə uyğun gəlir. Uzunmüddətli arxeoloji axtarışlar nəticəsində ümumi qalınlığı 14 m. olan mağara çöküntüsündə 10 mədəni təbəqə aşkar edildi. Burada çay daşı, ilk aşel, orta aşel, son aşel, qədim mustye mədəni təbəqələri tapılmışdır. Mağaradakı Olduvay mədəniyyəti tipli çay daşı alətlərinə 700 min ildən artıq yaşı olan altıncı təbəqədə təsadüf edilmişdir. Mağaradan üzə çıxarılan kobud daş çapacaqlar, qaşovlar və s. alətlər burada qədim insanların paleolit (qədim daş dövrü) dövründə yaşadığını ilk dəfə söyləməyə imkan verdi. Tapıntılar içərisində 4—5 kq ağırlığında olan nəhəng çapacaqlar diqqəti xüsusilə cəlb edir. Bu alətlərin hazırlanmasında ən ibtidai üsul olan vurub qoparma üsulundan istifadə edilmişdir. Bu fakt bir daha bu ərazinin qədim sakinlərinin ilk daş dövründə yaşadıqlarını sübut edir. Burada aşkar edilən qədim aşel mədəniyyətinə aid abidələrə öz əhəmiyyətinə görə indiyə qədər üzə çıxarılan tapıntılar arasında oxşarı yoxdur.

Mağarada qədim daş dövrünə aid alətlərlə yanaşı, külli miqdarda heyvanların daşlaşmış sümükləri də aşkar edilmişdir. Onların içərisində mağara ayılarının kəllələri və kəllələr üzərində güman ki, azıxantropların ideoloji təsəvvürlərinin rəmzi kimi həkk olunmuş xətlər elm aləmi üçün çox qiymətlidir. Kəllə üzərində nəqş edilmiş bu xətlər hələlik dünyanın heç bir yerində aşkar edilməmişdir. Azıxda tapılan mustye mədəniyyətinə aid 2 mindən çox daş alətlər və müxtəlif heyvan sümükləri çox az tədqiq edilən mustye mədəniyyətinin bir sıra sirlərini açmağa imkan verdi. Qədim daş dövrünün orta paleolit pilləsində, yəni - mustye mədəniyyəti zamanı ilk və bəsit icma münasibəti meydana gəlir. İstehsal təsərrüfatı yığma təsərrüfatını əvəz edir. Neolit inqilabı baş verdi.

1981-ci ildə Fransanın insan muzeyində və 1982-ci ildə Nitse Universitetində təşkil olunmuş Beynəlxalq sərgidə nümayiş etdirilən Azıx abidələri dünya ictimaiyyətinin diqqətini xüsusilə cəlb etdi. Azıx mağara abidələri Parisdəki «Avropanın ilk sakinləri» adlı xəritəyə SSRİ-dən qədim abidə kimi daxil edildi.

Azıx mağarasından aşkar edilən materialların kompleks tədqiqi göstərdi ki, «Azıx mağara paleolit düşərgəsi öz qədimliyinə, çoxtəbəqəliliyinə, stratiqrafik ardıcıllığına, arxeoloji cəhətdən zənginliyinə və elmi əhəmiyyətinə görə dünyada yeganə abidədir».

Dünya şöhrəti qazanan Azıx mağara düşərgəsi M. Hüseynovla yanaşı Ə. Cəfərovun, D. Hacıyevin, Ə. Məmmədovun, N. Şirinovun, V. Veliçko, V. Hacıyevin, M. Süleymanovun və b. tədqiqatçıların da diqqətini cəlb etmişdir. Qədim daş dövrünə aid tapıntıların təhlili və tədqiqi göstərir ki, mustye (orta paleolit) mədəniyyəti Azərbaycanda 140—150 minillik bir dövrü əhatə etmişdir. Bu dövrdə daş alətlərin istehsal texnikası xeyli təkmilləşmişdir.

Məlum olduğu kimi ən qədim insanın qalıqları planetimizin dörd guşəsində—Cənubi—Şərqi Asiyada (Yava adasında Pitakantrop adam), Almaniyanın Heydelberq şəhəri yaxınlığında (Heydəlberq adamı), Pekin yaxınlığında (Sinantrop-Çin adamı), Afrikada (Allantrop adamı) aşkar edilmişdir. Bu tapıntılar əsasında tərtib edilən ən qədim insan məskənlərinə aid xəritəyə 70-ci illərdə yeni bir kəşf—Azıxantrop adamı da daxil edildi.

Azıx, Tağlar, Daşsalahlı mağaralarından aşkar edilib tədqiq edilən materiallara əsasən respublikanın tarixçiləri, guya Azərbaycan ərazisində qədim daş dövründə ibtidai insanların yaşamadıqları haqqında əvvəllər söylənilən fikri alt-üst etdilər. M. Hüseynov Azərbaycanın ərazisində qədim daş dövründə insan yaşayışının olduğunu elmi baxımdan sübut etməklə qədim dövr tarixşünaslığına «daş dövrü» mövzusunu gətirdi. Azıxla yanaşı Tağlar, Damcılı və b. mağara yaşayış məskənlərindən üzə çıxarılan maddi abidələrin (daş alətlərin) aşel və mustye mədəniyyəti tipinə aid olduqları da müəyyən edildi. Bu abidələrin bir tərəfdən Qafqazın ayrı-ayrı regionlarında və digər tərəfdən Yaxın və Orta Şərq ölkələri—İran, Türkiyə və s. ölkələrin ərazilərində aşkar edilən qədim daş dövrünə aid materialların müqayisəli şəkildə tədqiqinə əsaslanaraq tarix ədəbiyyatında sübut edildi ki, bu maddi-mədəniyyət abidələri öz topologiyalarına, forma və xarakterlərinə görə Crucul (Gürcüstan SSR), Morqo (Cənubi Osetiya), Bisütun (İran), Tikeli və Karain (Türkiyə) və b. qədim mədəniyyətlərə yaxındır.

Azıx mağarasından aşkar edilən maddi-mədəniyyət abidələrinin tədqiqindən hasil olan elmi nəticə budur ki, Azərbaycanın mülayim iqlim şəraiti, yaşayış üçün əlverişli təbii zənginliyi və ibtidai qida ehtiyatının bol olması ilk insanların burada yerli zəmin üzərində məskunlaşmalarına, əmək fəaliyyətinə başlamalarına və çox erkən heyvan aləmindən ayrılıb şüurlu həyat sürmələrinə imkan vermişdir.

M. Hüseynov yazır: Qədim Azərbaycanın iqlim şəraiti əlverişli olduğundan burada daş dövrünün bütün mərhələlərində insanlar yaşamışlar[1].

M. Hüseynovun son axtarışları sübut etdi ki, Azıx adamının ən azı 400 min il yaşı vardır. Azıx adamı orta aşel dövründə yaşamış və onun işlətdiyi alətlər müxtəlif daşlardan hazırlanmış kobud çapma və nukleus tipli alətlər olmuşdur. Bu tapıntı ölkəmizin şell-aşel dövrünü xarakterizə edən və stratiqrafik məlumata malik olan yeganə abidədir.

Qədim paleolit dövründə yaşayış ibtidai insanın həyatında ov xüsusi və başlıca rol oynamışdır. İnsanın heyvan aləmindən ayrılıb müstəqil əmək fəaliyyətinə başlamasında ovçuluq mühüm rol oynamışdır. Qazıntı materialları göstərir ki, şell-aşel dövründə insanlar ayrı-ayrı dəstələrlə sürü halında yaşamışlar. Onlar oddan da istifadə etmişlər. Bu dövrün adamlarının əməyi kollektiv əmək olmuşdur. Onların istifadə etdikləri istehsal vasitələri dəstənin ümumi mülkiyyəti olmuşdur. Onlarda ilk icma və bəsit icma hakim ictimai qurum olmuşdur.

Ümumi mülkiyyətə əsaslanan istehsal vasitələrinin təkmilləşməsi ilə yanaşı, qədim insanlar da inkişaf etmişdi. Onların təfəkkürü genişlənmiş, ünsiyyət əlaqələri artmışdı. Bu münasibətlərin nizamlanmasında mühüm rol oynayan dil və dini anlayış məsələləri irəli getmişdi. Şell-aşel mədəniyyəti mustye mədəniyyəti ilə, alt paleolit isə orta paleolitlə əvəz edilmişdi. Respublikanın ərazisində şell-aşel abidələrinə nisbətən mustye mədəniyyəti abidələri daha çox aşkar edilmişdir. Bu abidələr Daşsalahlı, Damcılı bulağı, Tağlar və Azıx mağarasında üzə çıxarılmışdır. Bu materialların öyrənilməsi göstərir ki, orta paleolitdə insanlar heyvan aləmindən ayrılmış və zahiri görünüşlərinə görə müasir insanlara yaxın olmuşlar. Bu dövrdə ilk nəsli quruluş formalaşmağa başlamış və cinslər arasında ibtidai əmək bölgüsü meydana gəlmişdir.

Orta paleolit dövründə, alt paleolitə aid olan disk şəkilli alətlər aradan çıxmış, mustye mədəniyyəti dövrü üçün xarakterik olan prizma şəkilli nukleuslar onları əvəz etmişdir. Mustye adamları arasında əmək bölgüsü nisbətən geniş olmuşdur.

Azərbaycan ərazisində daş dövrünə aid çoxlu miqdarda irihəcmli ocaqların aşkar edilməsi burada böyük icmanın olduğunu, icma üzvlərinin ocaqdan həm istehsal aləti kimi və həm də özünümüdafiə (iri yırtıcı heyvanların basqınlarından) vasitəsi kimi istifadə etdiklərini göstərir. Mustye dövründə nitq mədəniyyəti meydana gəlir. Nitqin meydana gəlməsi insanların həyatında baş verən bir sıra kompleks dəyişikliklərin nəticəsi idi. M. Hüseynov göstərir ki, «Nitq icma üzvlərinin cəmiyyətdə yalnız bir-birilə əlaqədar olması ehtiyaclarından deyil, həm də əməkdəki müvəffəqiyyətlərlə və formalaşmaqda olan ictimai əlaqələrin inkişafı ilə yaranmışdır».

---

[1] M. Hüseynov. Uzaq daş dövrü, Bakı, 1973, səh. 11.

Azərbaycanın ərazisində mustye dövrünün son mərhələlərində cəmiyyət daxilində icma münasibətləri meydana çıxmış və bu proses nəsli quruluşla nəticələnmişdir. Uzun inkişaf dövrü keçən bu proses təqribən 40 min il bundan əvvəl başlamış və 10—14 min il bundan əvvələ qədər davam etmişdir.

Respublikanın qədim sakinləri orta paleolit dövründə artıq oturaq həyata keçmiş, icma üzvləri üçün xörək hazırlamaqda xüsusi daş çuxurlardan və iri tutumlu yaşayış yerlərindən istifadə etmiş, iti ox uclarını ixtira etmişlər. Bu dövrdən etibarən dini etiqadlar daha da genişlənir. Mustye dövrünün adamları öz ölülərini dəfn etməyə başlayırlar. İbtidai insanların dəfnetmə mərasiminə keçməsi bu dövrdən başlayır və onların ümumi inkişafında, təfəkkür qabiliyyətində, mənəvi mədəniyyətində, həyatı dərk etməsində mühüm mərhələ idi. Dəfnetmə mürəkkəb ideya formalarından olmaqla yanaşı, insanlarda həyat, yaşamaq və ölüm haqqında təsəvvürün hasil olması, cəmiyyət üzvləri arasında ictimai əlaqələrin baş verdiyini sübut edir. Bu hal ibtidai icma quruluşu üzvlərinin bir-birinə hörmət etməsi və bir-birinə qayğı bəsləməsi demək idi.

Azərbaycan arxeologiyasının nailiyyətlərindən biri də Mezolit (Orta daş) dövrü məsələsidir. Bu dövr e. ə. XIII minillikdə başlamış və e. ə. VII minilliyədək davam etmişdir. Son zamanlara qədər Azərbaycanın ərazisində bu dövrə aid heç bir maddi-mədəniyyət abidəsi aşkar edilməmişdir. Hazırda arxeoloqların axtarışları nəticəsində burada mezolit dövrü mədəniyyətinin geniş yayıldığı müəyyən edilmişdir. Tapıntılar göstərir ki, bu dövrün sakinlərinin əsas peşəsi ovçuluq olmuşdur. Ox və yaydan geniş istifadə edən mezolit dövrü insanları paleolit dövrü insanlarına nisbətən xeyli inkişaf etmişlər. S. N. Rüstəmov və F. Muradova 1965—66-cı illərdə Qobustanın «Ana zağa» və «Çardağ zağa» sığınacaqlarında arxeoloji qazıntı işləri nəticəsində Mezolit və Tunc dövrlərinə aid bir sıra maddi-mədəniyyət qalıqları aşkar etdilər. Bu materialların tədqiqi ilə Mezolit dövrü problemi Azərbaycan tarixşünaslığına gətirildi. Mezolit dövrünə aid Damcılı, Qobustandan və b. yerlərdən aşkar edilən əmək alətləri və digər istehsal vasitələri sübut edirlər ki, bu dövrün sakinləri artıq oturaq həyat sürmüş, əmək və yaşayış tərzləri kollektiv xarakter daşımışdı. Onlar ox və yayla yaxından tanış olmuş, ovçuluq onların başlıca peşəsi olmuşdur. Heyvanların əhliləşdirilməsi prosesi bu zaman mezolit dövründə—yəni təxminən e. ə. VIII—VII minilliklərdə başlamışdır. Mezolit dövründə daş alətlərin hazırlanması texnologiyası xeyli təkmilləşmiş və buna münasib insanların təfəkkür qabiliyyəti, dünyanı və ətraf mühiti dərketmə bacarığı da artmışdır. Bu dəyişiklik neolit dövründə daha geniş olmuşdur. Mezolit dövrünün adamları vəhşiliyin yüksək pilləsi və barbarlığın ilk mərhələsində yaşamışlar. Mezolit dövründə qədim insanlar oturaq həyata keçməyə ilk addım atdıqları halda, neolit dövründə daimi oturaqlığa keçmişlər. Məhz bu zaman insanlar heyvanları daha çox əhliləşdirir və onlardan həm qida mənbəyi, həm də əkinçilikdə qoşqu qüvvəsi kimi istifadə etməyə başlayırlar. Qobustan tapıntıları e. ə. VIII—VII minillikdə Azərbaycanda ibtidai əkinçilik və xüsusən ovçuluq

təsərrüfatları haqqında geniş məlumat verirlər. Bu tapıntılar göstərir ki, həmin ərazidə bir neçə qohum icmalar və qan qohumluğu ilə bağlı, cüt nigah əsasında təşəkkül tapan böyük patriarxal ailə yaşayırmış. E. ə. VIII minillikdə təşəkkül tapan neolit dövrü əkinçiliyin, onunla bağlı olan maldarlığın xeyli inkişaf etdiyi dövr idi. İlk gil qablar məhz bu dövrdə hazırlanmışdır. Daş alətlərin cilalanması, deşmə texnikası, əyricilik və toxuculuq peşəsi bu dövrdə meydana gəlir. Bu dövrdə ibtidai əkinçilik və maldarlıq geniş inkişaf etmişdir.

Xanlar, Kültəpə, Teyrətəpə və b. yaşayış məskənlərində neolitin axırları və metal dövrünün əvvəllərinə aid aşkar edilən istehsal vasitələri, yaşayış binalarının qalıqları və b. maddi-mədəniyyət abidələrinin tədqiqindən aydın olur ki, neolitin son pilləsində matriarxat nəsli quruluşu öz inkişafının yüksək zirvəsinə qalxmışdır. Bu dövrdə çoxsahəli təsərrüfat növləri yaranmağa başlayır. Əkinçiliyin maldarlıqdan ayrılmasının ilk elementləri meydana gəlir. İqtisadiyyatda baş verən dəyişiklik yeni-yeni tələblər irəli sürür. Daş alətlər cəmiyyətin tələbini ödəmir, onu metal dövrü əvəz etməyə başlayır. Neolit dövrü öz yerini eneolit—mis-daş dövrünə «güzəştə» gedir.

Azərbaycan alimləri ulu yurdumuzun qədim qatlarını «dilləndirdikcə» min illərlə bundan əvvəl yaşayıb-yaradan insanın donmuş ürəyinin döyüntüsü eşidilir. Onların sirləri aşkar olur, bəşəriləşir. Əsrlər boyu elmə bəlli olmayan, «gizli» sirr kimi qalan Daşsalahlı, Şuşaqala, Daşqala, Tağlar və nəhayət, Azıx mağara düşərgələri insan aləminə bəxş edildi. Bu tapıntılar müasir insanın öz keçmişinə güzgü oldu.

*III fəsil*

# İBTİDAİ İCMA

İbtidai icma quruluşu bəşəriyyətin tarix boyu keçmiş olduğu 5 ictimai-iqtisadi formasiyalardan ilkini idi. Cəmiyyətin bu mərhələsində insanlar öz inkişaflarının vəhşilik mərhələsindən barbarlıq pilləsinə qədəm qoyurlar. Bu pillədə məhsuldar qüvvələrin inkişaf səviyyəsi, vəhşilik dövrünə nisbətən xeyli dərəcədə yüksək olmuşdur. Qədim insanlar həyata qədəm qoyduqları ilk mərhələdə — bəşəriyyətin «uşaqlıq» dövründə (vəhşiliyin aşağı pilləsində) sığınacaq nə olduğunu bilmir və meşələrdə, təbii ərzaq ehtiyatlarının çox olduğu dağ ətəklərində yaşayırdılar. Zaman keçdikcə iqlim dəyişir, əvvəllər bu yerlərə hakim olan mülayim hava şəraiti arxada qalırdı. Fəsillər bir-birini əvəz edir. Soyuqlar başlayır, heyvanlar aləmindən addımbaaddım uzaqlaşan insan da iqlim şəraitinə uyğunlaşaraq dəyişir. Soyuqlar düşdükcə özünə daldalanmaq, soyuqdan qorunmaq üçün vasitələr axtarır. İnsanlar ilk dəfə olaraq təbii sığınacaqla tanış olur, onu özünün ömürlük «mənzili» kimi seçirlər. Güman ki, insanın «mənzillə» bu ilk tanışlığı vəhşiliyin orta pilləsində olmuşdur. Azərbaycanda da təbii mağaralar ilk insanların ibtidai yaşayış yerləri olmuşdur. Vəhşiliyin yüksək pilləsində və barbarlığın aşağı mərhələlərində isə onlar daimi birgəyaşayış yeri olmuş və uzun müddət insanları soyuq havalarda isitmiş, vəhşi heyvanların hücumundan mühafizə etmiş və beləliklə, ilk insanlara «havadar» olmuş, dayaq durmuş və qayğıkeşlik etmişdir.

Böyük və Kiçik Qafqaz dağlarında və dağətəyi ərazidə belə təbii mağaralar olduqca çoxdur. Belə mağaralar Azərbaycanda yüzlərlədir. Onlara ölkənin hər yerində rast gəlmək mümkündür. Azərbaycan ərazisində yayılan və qədim əcdadlarımızın sığınacaq yeri olan bu tarixi abidələrin öyrənilməsində arxeoloq İshaq Cəfərzadənin axtarışları daha uğurlu olmuşdur. Xalq arasında indi də kaha, sığnaq, zağa, küyül, pənah və s. adlarla məlum olan, müqəddəs məkan hesab edilən, xalq tərəfindən ziyarətinə gedilən bu cür mağaralar Daşkəsən, Xanlar, Gədəbəy, Şamxor, Mərəzə, Laçın, Qubadlı, Kəlbəcər, Lerik, Naxçıvan və respublikanın digər rayonlarında, habelə Cənubi Azərbaycanın bir çox yerlərində aşkar edilib tədqiq olunmuşdur. Mağara yaşayış məskənlərinin qədim zamanlarda bu regionda geniş yayılmasının mühüm əlamətlərindən biri hazırda bir sıra kəndlərin və əhali məskənlərinin qədim mağaraların adı ilə adlanmalarıdır. Belə əhali məskən və kəndlərindən Qoşqarçayın yuxarı axınında, Yuxarı Daşkəsənin cənub-qərbində (onun 7 km-də, Gəncənin 40 km-də) yerləşən Zağalı kəndini və b. göstərmək olar. Hazırda bir çox rayonlarda bu mağaralardan iri və xırda buynuzlu malların saxlanmasında tövlə kimi istifadə edilir. Güman etmək olar ki, qədim maldar tayfalar hələ barbarlığın orta, xüsusən yüksək pilləsində bu mağaralardan

təbii tövlə kimi istifadə etmişlər və bu bir irs olaraq nəsillərdən nəsillərə keçmiş və bizim dövrümüzdə də öz ilkin mahiyyətini və ənənəsini qoruyub saxlamışdır.

«Qara inək Zağası», «Qurban kəsilən» kahısı və bir çox digər mağara adları fikrimizi sübut edir. Naxçıvanın 25 km-dəki «Ashab-Kəhf» mağarası da qədim və yerli əhali arasında geniş əks-səda yaradan tarixi abidələrdəndir.

Bu mağaraların ilk sakinləri burada uzun müddət birgəyaşayış tərzində yaşamışlar. Onlarda istehsal vasitə və məhsullarının üzərində ictimai mülkiyyət hakim olmuşdur. Bu insan qruplarında kollektiv əmək əsas yer tutmuşdur. Mağara sakinləri məcburiyyət olmadan, xırda uşaqdan başlamış kamil qocaya qədər bütün nəsilliklə əmək fəaliyyətinə cəlb edilmişlər. Onların arasında hüquqi ayrıseçkilik olmamışdır. Bu birgəyaşayışın əsasını bir-biri ilə qan qohumluğu olan insan qruplarından ibarət nəsil təşkil edirdi.

Neolit dövründə qəbilələrin birləşməsi zəmini əsasında tayfa meydana gəlir, qəbilə dilləri tayfa dilləri ilə əvəz edilir. Ümumiyyətlə, demək lazımdır ki, qəbilə dili, eləcə də qəbilə quruluşu paleolit dövrü, tayfa dili, tayfa quruluşu isə neolit mərhələsi üçün səciyyəvi olmuşdur. O zamankı insanların istifadə etdikləri istehsal vasitələri üzərində xüsusi mülkiyyət yox idi. Onlar yaşamaq uğrunda birgə mübarizə etdikləri kimi, topladıqları məhsulu da bərabər bölürdülər.

İnsan cəmiyyətinin inkişafındakı qanunauyğunluq, müntəzəmlik arasıkəsilmədən Azərbaycan ərazisində də baş vermiş və burada epoxalar qədim daş dövründən başlayaraq ardıcıl surətdə bir-birini əvəz etmişdir. Ölkəmizin ərazisində vəhşiliyin yüksək pilləsindəki məhsuldar qüvvələrin inkişaf səviyyəsinə uyğun olaraq, insanlar vəhşilik mərhələsindən barbarlıq mərhələsinə qədəm qoymuşlar.

60-cı illərdən etibarən dünya arxeoloqlarını düşündürən problemlərdən biri, bəlkə də başlıcası istehsal təsərrüfatının meydana gəlməsi məsələsi olmuşdur. İstehsal təsərrüfatına keçid bəşəriyyətin tarixi inkişafının sonrakı gedişini, bu prosesin istiqamətini, ölkələrin iqtisadi-sosial inkişafının xarakterini müəyyən edən əsas göstəricidir. Bu proses tarixi ədəbiyyata neolit inqilabı kimi daxil olmuşdur. Tarixi araşdırmalar göstərir ki, neolit inqilabı xalqlarda və regionlarda eyni vaxtda və eyni formada baş verməmişdir. Bu məsələ son 30 ildə Azərbaycan arxeoloqlarının da diqqətini cəlb edən mühüm problem olmuşdur. Respublikanın bir qrup arxeoloqu—İdeal Nərimanov, Cabbar Xəlilov, Fərman Mahmudov, Osman Həbibullayev və b. tədqiqatlarında tunc dövrü və dəmir dövrünün əvvəllərində qədim insan məskəni olan Azərbaycanda oturaq əkinçiliyin və maldarlığın geniş inkişaf etdiyini sübut etdilər.

60-cı illərə qədər Cənubi Qafqazda erkən əkinçilik mədəniyyəti, e. ə. III minillikdə təşəkkül tapan Kür-Araz mədəniyyəti və yaxud «Kür-Araz eneoliti» hesab edilirdi. Naxçıvan ərazisində aşkar edilən I Kültəpə mədəniyyəti və onun arxasınca Zaqafqaziyanın bir sıra rayonlarında, o cümlədən Azərbaycanın Gəncəçay, Qaşqaçay, Şamxor, Zəyəm, habelə Azərbaycanın cənubi-şərqində —

Astraxanbazar (indiki Cəlilabad), Muğan düzənliyində və digər məntəqələrdən üzə çıxarılan eneolit dövrünə aid əkinçilik-maldarlıq nümunələri əvvəllər söylənilən konsepsiyada bəzi dəyişiklik etmək və fikir aydınlığı yaratmağa imkan verdi. İndiyə qədər Zaqafqaziyada erkən əkinçilik mədəniyyətinə aid 150-yə qədər maddi-mədəniyyət nümunəsi aşkar edilib. Onların 70 faizdən çoxu 2/3-dən artığı Azərbaycan ərazisindən—Kür çayı hövzəsindən, Mil—Qarabağ düzənliyindən, Muğandan və Araz boyu torpaqlarından üzə çıxarılıb. Onların müqayisəli və sinxron tədqiq edilməsi nəticəsində müəyyən edildi ki, «Kür-Araz eneoliti» mədəniyyətindən çox-çox əvvəl, hələ bizim eradan qabaq VI—III minillikdə Azərbaycanın qədim ərazisində erkən əkinçilikdən ibarət olan istehsal təsərrüfatı meydana gəlib intensiv surətdə inkişaf etmişdir.

40-cı illərdə Azərbaycan tarixçilərindən İ. Cəfərzadə respublikanın ərazisindəki qədim mağara abidələrini tədqiq edərək, onların arasında qədim insanların inşa etdikləri süni mağaraların da olduğunu aşkar etdi və belə bir nəticəyə gəldi ki, əhalinin təbii artımı, yeni-yeni qəbilələrin meydana gəlməsi qədim insanları birgəyaşayış mərkəzi kimi yeni süni mağaralar yaratmağa təhrik etmişdir.

Eneolit dövrü e. ə. VI—IV minillikləri əhatə edir. Bu dövrdə əkinçilik və maldarlıq inkişaf edir, tayfalararası ünsiyyət və əlaqələr genişlənir, insanlar oturaq həyat tərzinə keçirlər. Qobustan daşüstü təsvirlərin də, Naxçıvan ərazisinin möhtəşəm və mürəkkəb qədim abidələr laboratoriyası hesab edilən I—II Kültəpə, Qızılvəng və b. qədim yaşayış məskənlərində aşkar edilən maddi-mədəniyyət abidələri Qafqazda, o cümlədən Azərbaycan ərazisində eneolit dövrünün olduğunu bir daha sübut edir.

I Kültəpə qədim yaşayış yerindən əkinçiliyə aid yüzlərlə əmək alətləri, dulusçuluq sənəti abidələri, mis əşyalar, silah, bəzək nümunələri, gildən hazırlanmış məmulatlar və s. maddi-mədəniyyət nümunələrinin aşkar edilməsi Azərbaycanın qədim ərazisində ibtidai icma quruluşunun geniş surətdə təşəkkül tapdığını söyləməyə imkan verir.

Eneolit dövrü 5 xüsusiyyətlə xarakterizə edilir: 1. Əkinçilikdə toxa əkinçiliyinin üstün olması; 2. Çaxmaq daşından hazırlanmış alətlərlə yanaşı, mis alətlərdən də istifadə edilməsi; 3. Möhrədən inşa edilmiş böyük qəbilə ümumyaşayış mənzillərinin mövcud olması; 4. Ana nəslinin hakim olduğuna dəlalət edən gildən hazırlanan qadın fiqurlarının olması; 5. Fırça ilə naxışlanmış gil qabların istehsal edilməsi. Bu əlamətlərə Azərbaycanın eneolit dövrü abidələrində də rast gəlmək mümkündür.

Azərbaycan ərazisində eneolit dövründə əkinçi tayfalara mənsub 60-dan çox yaşayış məskəni üzə çıxarılmışdır. Bunlardan I Kültəpə, İlanlıtənə (Mil—Qarabağ), Çalağantəpə, Qaraköpəktəpə, Zərgərtəpə, Əliköpəktəpə (Muğan düzü), Sulutəpə, Şomutəpə, Babadərviş və b. yaşayış yerlərini göstərmək olar.

O. H. Həbibullayevin Naxçıvan I—II Kültəpə maddi-mədəniyyət abidələrinin tədqiqi əsasında yazılan monoqrafiyası eneolit mis və tunc dövrü mədəniyyətinə həsr olunmuşdur.

Tədqiqatçı aşkar etdiyi maddi-mədəniyyət abidələrinin geniş tədqiqinə əsaslanaraq Kültəpə yaşayış yerinin 7 min yaşı olduğunu müəyyən etdi. Burada qədim əkinçilik təsərrüfatına aid yüzlərcə əmək alətləri, gildən hazırlanmış qablar, ən qədim mis əşyalar, silah və bəzək nümunələri aşkar edildi. Monoqrafiyada Zaqafqaziya arxeologiyasında mühüm yer tutan «Kür-Araz mədəniyyətinə»—ilk tunc dövrünə aid qiymətli materiallar toplanmışdır. O. Həbibullayevin aşkar etdiyi abidələr e. ə. III minillikdə əkinçilik, maldarlıq, məişət-təsərrüfatı tikintiləri, bu dövrdə yaşayan qədim insanların ictimai quruluşu, mədəni inkişafı haqqında da aydın təsəvvür əldə etməyə imkan verir. Üzə çıxarılan tuncdan hazırlanmış əmək alətlərinin kompleks şəkildə öyrənilməsi əsasında alim belə bir nəticəyə gəlir ki, Kür-Araz mədəniyyəti və bu mədəniyyətin inkişafında mühüm əhəmiyyəti olan metallurgiya və metalişləmə sənəti yerli zəmin üzərində 5 min il bundan əvvəl meydana gəlib inkişaf etmişdir. Kültəpə abidəsi bütün Qafqazda qədim eneolit (e. ə. VI—IV minillik) və erkən tunc (e. ə. III minillik) dövrü mədəniyyətinə aid ilk yaşayış məskəni idi. Buradan aşkar edilən gil qablar, misdən hazırlanmış əmək alətləri, silah və s. ilə yanaşı, üzə çıxarılan tikinti abidələri böyük elmi əhəmiyyətə malikdir. Tarixçi sübut etdi ki, çiy kərpicdən dairəvi şəkildə inşa olunan bu tikintilər ölkəmizin ərazisində aşkar edilən ən qədim yaşayış binalarından, memarlıq qalıqlarından biridir.

Kültəpə maddi-mədəniyyət abidələri Azərbaycan ərazisində yaşamış qədim qəbilə və tayfaların iqtisadi və ictimai həyatı, mədəni tərəqqisi, habelə onların qonşu tayfalarla, xüsusən Şərq xalqları ilə iqtisadi-mədəni əlaqələri barədə çox maraqlı məlumatlar verir. Sübut edildi ki, Kültəpə qədim yaşayış yeri olmaqla onun sakinləri eneolit dövründə məskunlaşmış və ilk dəmir dövrünə qədər davam edən uzun bir müddətdə həyat sürmüşlər.

Kültəpə ilə yanaşı, Mingəçevir, Dağlıq Qarabağ, Xanlar və Azərbaycanın başqa ərazilərində də qədim abidələr aşkar edilmişdir. Onların elmi araşdırılması nəticəsində müəyyən edildi ki, bu tarixi abidələr erkən tunc dövrünə aiddirlər.

Faktlar göstərir ki, eneolit dövründə Azərbaycanda oturaq əkinçilik və onunla əlaqədar oturaq maldarlıq mədəniyyəti xeyli inkişaf etmişdi. Vahid adət-ənənə, ideologiya təşəkkül tapmışdır. Bütün bunlar ona dəlalət edir ki, eneolit dövründə Azərbaycanın özünəməxsus orijinal mədəniyyəti olmuşdur.

Gəncəçay rayonunda aşkar edilən maddi-mədəniyyət abidələri isə burada yaşayan qədim insanların Neolit dövründən dəmir dövrünə qədərki böyük bir tarixi dövrdə təsərrüfat həyatı, məişət məsələləri və ictimai münasibətlərini öyrənməyə imkan vermişdir.

Eneolit, onun ardınca gələn ilk, orta, son tunc və ilk dəmir dövrlərini (e. ə. V—I minillikləri) əhatə edən Kültəpə yaşayış yerindən, Babadərvişdən, Qobustan

qədim yaşayış yerindən, çoxtəbəqəli Qaraköpəktəpə abidəsindən və habelə respublikanın bir çox başqa yerlərindən üzə çıxarılan arxeoloji materialların öyrənilməsi və bu abidələrin etnoqrafik baxımdan tədqiq edilməsi ilə Azərbaycan tarix elmi sübut etdi ki, Qafqazın bu regionunda eneolit dövründən başlayaraq oturaq əkinçilik, yarımköçəri maldarlıq təsərrüfatları və sənətkarlığın bir sıra sahələri— dulusçuluq, metal emalı və metal işləməsi, toxuculuq və s. yüksək inkişaf etmişdi.

Azərbaycan tarixşünaslığında I Kültəpə abidəsinin tədqiqi göstərdi ki, e. ə. IV—I minilliyə aid olan mədəniyyətin bu tipi Ön Asiya tipli oturaq əkinçilik mədəniyyəti olmuşdur. İlantəpə (1967—68-ci illər), Çalağantəpə (1980-ci il), Ağdam rayonunda (70-ci illər) İ. Nərimanovun, 1965-ci ildən etibarən Muğanda F. Mahmudovun başçılığı altında aparılan arxeoloji qazıntı işləri nəticəsində eneolit dövründə, ilkin əkinçilik mədəniyyətinə aid zəngin maddi-mədəniyyət nümunələri aşkar edildi. 1971-ci ildə Muğanın Əliköməktəpəsi qədim yaşayış yerində (F. Mahmudovun rəhbərliyi altında, İ. Nərimanovun iştirakı ilə) aşkar edilən əkinçilik mədəniyyəti nümunələri Azərbaycanda qədim əkinçiliyin oturaq formada olduğunu bir daha sübut etməklə yanaşı, həm də onun əhatə etdiyi ərazinin hüdudunu müəyyən etməyə imkan verdi.

Ağstafaçay, Babadərviş, Teyrətəpə (Qazax rayonu) və Azərbaycanın qərb hissəsinin başqa yerlərində də aparılan qazıntı işləri (İ. Nərimanov, C. Rüstəmov) nəticəsində üzə çıxarılan ilkin əkinçilik mədəniyyəti nümunələrinin öyrənilməsi göstərdi ki, ən qədim istehsal mədəniyyəti forması olan erkən oturaq əkinçilik-maldarlıq təsərrüfatı Azərbaycan ərazisində e. ə. VI—III minillikdə təşəkkül tapmış və buradan Şimali Şərqi Qafqaza daxil olmuşdur.

Son zamanlar Azərbaycanın təbii zənginlikləri, iqlim şəraiti və qədim maddi-mədəniyyət abidələri arxeologiya, etnoqrafiya, paleontologiya, kimya, seleksiya və b. elmlərin nümayəndələrinin birgə əməkdaşlığı əsasında aparılan çoxsahəli və əlaqəli tədqiqat işləri nəticəsində də bir daha sübut edildi ki, hələ neolitin sonlarında bu regionda oturaq əkinçilik meydana gəlmiş və bu ərazi mədəni əkinçiliyin ilk mərkəzlərindən biri olmuşdur.

Azərbaycanda ilk əkinçilik təsərrüfatı, beləliklə, e. ə. VI—IV minillikdə, toxa əkinçiliyi kimi meydana çıxmışdı. Əkinçiliyin bu dövründə, daş toxalarla yanaşı sümükdən hazırlanmış toxalardan da istifadə edilmişdir. Bunu Naxçıvanın qədim yaşayış məskənlərindən aşkar edilən sümük toxalar bir daha sübut edir. Xış əkinçiliyi toxa əkinçiliyini e. ə. II minillikdə, erkən tunc dövründə sıxışdırıb məişətdən çıxarmışdır.

Arxeoloji və etnoqrafik tədqiqatlardan hasil olan elmi nəticə budur ki, Azərbaycan ərazisində ibtidai əkinçilik (toxa əkinçiliyi — Y. S.) eneolit dövründə artıq yetkin formada olmuş və yerli qəbilələrin təsərrüfatının əsasını təşkil etmişdi. Q. S. İsmayılov bunun səbəbini əkinçilik mədəniyyətinin geniş olması ilə izah edir. Lakin o, əkinçiliyin çoxsahəli olmasının nədən ibarət olduğunu göstərmir. Nəticə

etibarı ilə daş toxadan nə səbəbə görə uzun müddət istifadə edilmişdir sualına tutarlı elmi cavab verilmir.

Əkinçilik təsərrüfatında, onun geniş inkişaf etdiyi tunc dövründə daş toxalardan istifadə edilməsi əkinçiliyin çoxsahəliliyi ilə birlikdə, həm də uzun müddət praktiki cəhətdən əlverişli olmayan tunc alətlərin daş alətləri məişətdən sıxışdırıb çıxarmağa qadir olmaması ilə bağlı idi.

Azərbaycanda oturaq əkinçiliyin geniş yayıldığını, onun kənardan deyil, ibtidaidən yerli zəmin üzərində təşəkkül tapdığını sübut edən bir göstərici də arxeoloji axtarışlar nəticəsində üzə çıxarılan taxıl anbarları, ərzaq saxlanan quyular və iri tutumlu təsərrüfat küpləridir. T. Bünyadov yazır ki, irihəcmli taxıl küpləri ən çox oturaq həyat sürən və daimi yaşayış yerinə malik olan xalqlar arasında çox geniş inkişaf etmişdir.

70-ci illərdə Kiçik Qafqazın cənubi-şərq yamaclarında—Quruçay və Köndələnçay vadisində aparılan arxeoloji axtarışlar nəticəsində oturaq həyatla bağlı olan 50-dən artıq qədim yaşayış yerləri aşkara çıxarılmış, əkinçi təsərrüfatla bağlı külli miqdarda maddi-mədəniyyət nümunələri əldə edilmişdir. Əhəmiyyətlidir ki, bu abidələrin əksəriyyəti ilk tunc dövrünü əhatə edən və oturaq əkinçiliklə bağlı olan «Kür-Araz» mədəniyyətinə aid olmuşdur. Həmin abidələr içərisində çoxtəbəqəli Qaraköpəktəpə abidəsi xüsusi elmi əhəmiyyət kəsb edir. Qafqazın ən nadir çoxtəbəqəli abidəsi olan Qaraköpəktəpə qədim yaşayış yerində xalqımızın qədim tarixinin uzun bir dövrü gizlənilmişdir. Azərbaycanın əkinçi əhalisi qədim dövrdən etibarən süni suvarma peşəsinə də bələd olmuş, kəhrizlərdən və su kanallarından geniş istifadə etmişdir.

Qeyd etmək lazımdır ki, bütün başqa Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da əkinçilik təsərrüfatı süni suvarmaya əsaslanmışdı.

Əkinçiliyin inkişafı ilə əlaqədar olaraq ilk növbədə qaramal, sonra at, xırdabuynuzlu heyvanlar, donuz və b. heyvan növləri əhliləşdirilmişdir.

Əkinçiliklə sıx bağlı olan bu təsərrüfat növü oturaq xarakter daşımışdır. Bəzi alimlər bunun səbəbini qaramalın üstünlük təşkil etməsi və təbii şəraitin əlverişli olması ilə izah edirlər. Lakin Azərbaycanda ibtidai maldarlığın oturaq formada olmasına səbəb təkcə bu deyildi. Belə bir formanın təşəkkül tapmasının başlıca səbəbi maldarlığın əkinçilik təsərrüfatı ilə bilavasitə bağlı olması, onun tələbini ödəmək məqsədi güdməsi olmuşdur. İbtidai maldarlıq toxa əkinçiliyi zamanı geniş inkişaf etmişdir. Əkinçilik təsərrüfatı oturaq əkinçilik olduğu üçün, ona tabe olan maldarlıq təsərrüfatı da oturaq xarakter daşımışdır. Əkinçiliyin, eləcə də maldarlıq təsərrüfatının sonrakı təkamülü, onun müstəqil təsərrüfat sahəsinə çevrilməsinə gətirib çıxarmışdır. Azərbaysan ərazisində e. ə. III minillikdən etibarən oturaq maldarlıq tədricən əvvəlki oturaq formasını itirməyə başlayır və ibtidai maldarlığın yaylaq maldarlığa çevrilməsi ilə yarımköçəri maldarlıq təsərrüfatı formasını alır. Bir müddət o, oturaq yaşayış tərzini yalnız dağ və dağətəyi rayonlarında qoruyub saxlaya bilir. Oturaq maldarlıq matriarxat dövründə

əkinçiliklə bağlı inkişaf edən əsas təsərrüfat sahələrindən olmaqla qəbilələrin yaşayış tərzləri ilə sıx surətdə əlaqəli şəkildə inkişaf etmişdir.

İbtidai əkinçilikdə işçi qüvvəsi, başlıca olaraq qadınlardan ibarət olmuşdur. Kişilər, güman ki, ovçuluqla, heyvanların əhliləşdirilməsi və maldarlıqla məşğul olmuş, maldarlıq təsərrüfatının sirlərinə yiyələnmişlər. Güman ki, maldar tayfaların təşəkkül tapması neolit dövrünə təsadüf edir. Eneolit dövrünün yerli əkinçi-maldar əhalisinin iqtisadi həyatında ev sənətkarlığı da mühüm yer tuturdu. Sənətkarlar daş və sümükdən istehsal aləti hazırlayır, gön məmulatı istehsal edirdilər. Burada dulusçuluq, toxuculuq, ağac emalı və b. sənət sahələri də xeyli inkişaf etmişdi. Daşdan və sümükdən hazırlanan alətlər və silahlar xüsusi emalatxanalarda istehsal edilirdi. Saxsı qab istehsalı ev sənətkarlığında daha geniş yayılan sənət sahələrindən hesab olunur. Dulus kürələrinin geniş yayılması fikrimizə əyani sübutdur. Eneolit dövründə yerli əhali metal emalı sənətinə də bələd olmuşdur. Burada, güman ki, cüt nigaha əsaslanan kiçik ailə quruluşu mühüm yer tutmuşdur.

Sənətkarlıq təbiidir ki, ilk başlanğıc pilləsində ev sənətkarlığından ibarət olmaqla əkinçiliyin və maldarlığın tələblərini ödəmişdir. Yalnız iqtisadiyyatın inkişafı, istehsal alətlərinin təkmilləşməsi və onlara olan tələbatın durmadan artması sənətkarlığın, o cümlədən metalişləmə sənətinin qapalılıq çərçivəsindən çıxması üçün şərait yarada bilərdi. Metalişləmə, təxminən tunc dövrünün təşəkkül tapdığı vaxtdan etibarən ev sənətkarlığı çərçivəsindən kənara çıxmağa başlamışdır. Lakin bu sənətkarlığın müstəqil peşə sahəsinə çevrilməyə başlaması demək deyildi. Sənətkarlıq, o cümlədən onun mühüm sahəsi olan metalişləmə sənəti, ev sənətkarlığının ehtiyacını təmin etmişdir.

İbtidai-icma quruluşunun ilk dövrlərində nəslə (ailəyə) mənsubiyyət ana xətti ilə gedirdi. Bu mərhələ elmi ədəbiyyatda matriarxat adlanır. Bu dövr qədim insanların inkişafında mühüm mərhələ olmuşdur. Barbarlığın aşağı pilləsində qadın, onun fəaliyyəti cəmiyyətin inkişafının «lokomotivi» olan məhsuldar qüvvələrin əsasını təşkil edirdi. Onlar cəmiyyətin üzvləri üçün yeməli bitki, meyvə, yerkökü və başqa ərzaq məhsulları toplayır, torpağı becərirdilər. Kişilərin əməyi qadının əməyinə sadəcə əlavə idi.

Azərbaycan ərazisində barbarlığın orta pilləsi ov heyvanlarının əhliləşdirilməsi, dənli bitkilərin yetişdirilməsinin sahəsinin genişlənməsi və əkinçiliyin peşəyə çevrilməsi ilə səciyyələnirdi. Bu pillədə istehsal alətləri daha da təkmilləşdi, insanların həyatı dərk etmək bacarığı xeyli yüksəldi. Bu pillədə məhsuldar qüvvələrin inkişafında kişinin rolu artmış və onun əməyi cəmiyyətin inkişafında qadın əməyi ilə bərabər əhəmiyyət kəsb etməyə başlamışdı. Barbarlığın ilk pilləsində uşaq yalnız anasını tanıdığı, atasının isə kim olduğunu bilmədiyi halda, barbarlığın orta pilləsində uşaqlar atalarını da tanımağa başlayırlar.

Bütün Şərq aləmində olduğu kimi, qədim Azərbaycan ərazisində də barbarlığın orta pilləsinin başlanmasını,süd və ot verən heyvanların əhliləşdirilməsi dövrü ilə bağlamaq düzgün olar.

50-ci illərdə respublikanın tarixçilərindən İ. Cəfərzadə və S. M. Qazıyev Azərbaycan ərazisində aşkar edilən arxeoloji tapıntıların öyrənilməsinə əsaslanaraq sübut etdilər ki, Qafqazda, eləcə də Azərbaycanda erkən tunc dövrü e. ə. III minillikdə başlamışdı. Tarixi baxımdan əsaslandırıldı ki, bu regionda qədim insanların təsərrüfat həyatında məhz bu dövrdə, yəni e. ə. III minillikdə əkinçilik və maldarlıq həlledici rol oynamışdır. Ölkənin iqtisadi inkişafında mühüm rol oynayan təsərrüfatın bu növləri icmanın ümumi təsərrüfatı olmuşdur. İcma üzvləri təsərrüfatın becərilməsində və idarə edilməsində daş və mis alətlərdən də istifadə etmişlər. Onların istifadə etdikləri istehsal alətləri qəbilə üzvlərinin ümumi sərvəti olmuşdur. Bu dövrdə, beləliklə, ictimai quruluşda matriarxat hakim mövqe tutmuşdur. Təsərrüfat həyatını səciyyələndirən mülkiyyət isə tayfa mülkiyyəti olmuşdur.

Naxçıvan, Xocalı—Gədəbəy və b. mədəniyyətlərə aid abidələrin öyrənilməsi Azərbaycanda tunc dövrünün başlanğıc mərhələsinin e. ə. IV minilliyin sonu, III minilliyin əvvəllərinə aid olduğunu sübuta yetirdi.

Tunc dövrü üç min ildən artıq tarixi əhatə edərək üç mərhələ—ilk, orta və son inkişaf mərhələləri keçmişdir. Bu dövrdə ölkənin qədim sakinləri qəbilə quruluşu şəklində yaşamışlar. Yaşayış binalarının quruluşu, qəbir abidələri və əldə edilən başqa maddi-mədəniyyət qalıqları bunu bir daha sübut edir.

Azərbaycan ərazisinə yayılan mağaraların və xüsusən qəbirlərin öyrənilməsi, üzə çıxarılan çoxlu miqdarda istehsal alətləri, silah və ev əşyalarının tədqiqi göstərdi ki, onlar ayrı-ayrı qəbilə üzvlərinə deyil, qəbilənin bütün üzvlərinə mənsub olmuşdur. Erkən tunc dövründə tayfa mülkiyyəti geniş yer tuturdu. 50-ci illərin elmi axtarışları göstərdi ki, Azərbaycanda tayfa mülkiyyəti erkən tunc dövründə, e. ə. III minilliyin II yarısında meydana gəlmişdir.

İlk tunc dövrünün mədəniyyəti «Kür-Araz» mədəniyyəti adını daşımışdır. E. ə. III minillikdə Cənubi Zaqafqaziyada təşəkkül tapan və Qafqaz xalqlarına məxsus olan Kür-Araz mədəniyyəti Yaxın Şərqin bir çox ölkələrinin qədim tarixinin və mədəniyyətinin inkişafına müsbət təsir etmişdir. Onun təsiri və təzahürünü Şimali-Qərbi İranın, Şərqi Anadolunun, Suriya, Fələstinin, habelə Dağıstan və Şimali Qafqazın qədim mədəniyyətlərinin inkişafında tapa bilmişdir.

Son vaxtlara qədər tunc dövründə çox intişar tapan, bir çox Yaxın Şərq ölkələri xalqlarının tarixi inkişafına müsbət təsir edən Kür-Araz mədəniyyətinin yerli zəmin üzərində meydana gəlməsinə şübhə edilirdi. Bəzi tarixçilər, atçılığın mənşəyini Hind—Avropa tayfalarına aid etdikləri kimi, Kür-Araz mədəniyyətini də miqrasiya yolu ilə təşəkkül tapan mədəniyyət tipinə aid edirdilər.

Respublikanın ərazisində, xüsusən Kür-Araz mədəniyyətinin beşiyi olan Naxçıvan ərazisində mədəniyyətin bu tipinə aid maddi-mədəniyyət abidələrinin kompleks tədqiqi göstərdi ki, o, qədim mədəniyyət olmaqla yerli Qafqaz tayfalarına məxsus olmuş, heç də Kiçik Asiya və Anadoluda yox, məhz Azərbaycan torpağında təşəkkül tapmışdır. E. ə. III minilliyin sonlarında Kür-Araz

mədəniyyəti tayfaları iqtisadi inkişafın sonrakı tərəqqisi zəmini əsasında tayfa ittifaqlarında birləşmişlər.

Onların yaşayış yerləri daşdan tikilmiş qala tipli məskənlərdən ibarət olmuşdur. Bu qalaların, əsasən, varlı tayfa başçılarının yaşayış yeri və müdafiə vasitələri kimi fərqlənməsi faktı bir daha III minilliyin sonlarından etibarən burada sinfi təbəqələşmənin də izlərinin meydana gəldiyini söyləməyə təminat verir.

Bu dövrün insanları artıq barbarlığın yüksək pilləsində yaşamışlar.

Araşdırmalar göstərir ki, bu möhtəşəm ilk şəhər-qala tipli məskənlərin inşa edilməsində istifadə edilən materialların daşınmasında icma «qullarının» əməyi mühüm rol oynamışdır. Qalaların inşa edilməsində, hələ eneolit dövründə də (e. ə. V—IV minillikdə) çiy kərpicdən geniş istifadə edilmişdir. Çiy kərpicin hazırlanmasında hərbi toqquşmalar zamanı ələ keçirilən əsirlərin əməyi geniş tətbiq edilmişdir. Azərbaycanda bu dövr üçün səciyyəvi olan mədəniyyət Xocalı—Gədəbəy, Naxçıvan və Talış—Muğan mədəniyyətləri olmuşdur.

F. Mahmudovun başçılığı altında Cənub-Şərqi Azərbaycanın mühüm arxeoloji areallarından biri olan Muğanda təşkil edilən elmi ekspedisiya eneolit və tunc dövrlərinə aid 24 yaşayış obyekti aşkar etmişdir. Tədqiqatın nəticələri göstərdi ki, bu regiondan aşkar edilən 24 yaşayış məskənindən 8-i ilk və orta tunc dövrünə aiddir. Bu tapıntının elmi tutumu və əhəmiyyəti xüsusi qeyd edilməlidir. Məhz onlar Azərbaycanın düzənlik zonası mədəniyyətinin öyrənilməsinə pəncərə olmuşdur. Bu abidələr tarixşünaslıqda ilk dəfə olaraq Lənkəran ovalığına elmi nəzər salmağa imkan verdi. 60-cı illərin ortalarına qədər bu ərazi mədəniyyət nümunələrinin olmaması üzündən, arxeoloji xəritədəki ağ səhifələrdən biri olmuşdur. Materialların elmi təhlili bu yaşayış məskənləri əhalisini Kür-Araz mədəniyyətinin əvvəllərinə aid etməyə və bu qədim mədəniyyətin Şərq hüdudunu müəyyənləşdirməyə tutarlı təminat verdi. Aşkar edilən saxsı qab məmulatlarının, ilkin tunc dövrünə aid istehsal alətlərinin, yaşayış yerlərinin və b. arxeoloji tapıntıların sinxron təhlilinə əsasən Kür-Araz mədəniyyətinin əhatə etdiyi ərazi haqqında tarixi ədəbiyyatda mövcud olan fikir müxtəlifliyində aydınlıq yaratmaq mümkün oldu. F. Mahmudov göstərdi ki, bu mədəniyyət, tarixi mədəni birlik nümunəsi kimi Kaspi dənizinin sahillərinə qədər uzanan geniş bir ərazini əhatə etmişdir. Qobustanda, Abşeronda, Azərbaycanın Şimali-Şərq ərazisində, xüsusən Quba—Xaçmaz zonasında aşkar edilən maddi-mədəniyyət nümunələri Kür-Araz mədəniyyətinin geniş bir ərazidə yayıldığını, onun sərhədlərinin Kaspi dənizi sahilinə qədər uzandığını bir daha təsdiq etdi. Mişarçay yaşayış məntəqəsindən aşkar edilən saxsı qabların araşdırılması göstərdi ki, onlar orta tunc dövrünün tipik abidəsi olan Üzərliktəpə abidələrinə yaxındır. Bu materialların müqayisəli tədqiqi nəticəsində ilkin tunc dövrünün orta tunc dövrünə keçidin, e. ə. III minilliklə II minilliyin hüdudunda baş verdiyini söyləmək mümkün oldu.

50-ci illərin ortalarından etibarən öyrənilməyə başlayan Üzərliktəpə abidəsindən (Ağdam şəhəri yaxınlığında) aşkar edilən maddi-mədəniyyət qalıqları,

Azərbaycanda, eləcə də Zaqafqaziyada orta tunc dövrü mədəniyyətini öyrənməyə imkan verdi. Üzərliktəpə abidəsi e. ə. II minilliyin birinci yarısında Mil—Qarabağ düzənliyində iqtisadi və mədəni cəhətdən yüksək inkişaf etmiş tayfaların yaşadığını sübut edir.

Qazax rayonu ərazisindəki Sarıtəpə yaşayış yerində aparılan arxeoloji qazıntı işləri nəticəsində aşkar edilən maddi-mədəniyyət abidələri isə e. ə. II minilliyin sonu I minilliyin əvvəllərində Azərbaycanın qədim sakinlərinin təsərrüfat həyatı və ictimai quruluşu, habelə mədəni nailiyyətləri ilə bizi tanış edir.

E. ə. III—II minilliklərdə ölkənin iqtisadiyyatında tunc dövrünün ilk pilləsinə nisbətən əkinçilik və maldarlıq daha böyük rol oynamışdır. Bu dövrdə dulusçuluq, metalişləmə, toxuculuq, daşişləmə və b. sənət sahələri də xeyli inkişaf etmişdi. Arxeoloji tədqiqatların nəticələri göstərir ki, Azərbaycanın ərazisində artıq e. ə. III minillikdən başlayaraq barbarlığın aşağı və orta pilləsi geniş yer tutmuşdu. Bu dövrdə ana nəsli ata nəsli ilə əvəz edilməyə başlamışdır. Patriarxal ailə münasibəti genişləndi.

Orta tunc dövründə məhsuldar qüvvələrin inkişafı xeyli sürətli olmuşdur. Bunun nəticəsində ilk əvvəl maldarlıq əkinçilikdən ayrıldı. İctimai əmək bölgüsünün baş verməsi, metal emalının sürətli inkişafı ibtidai icma quruluşunun tənəzzülü prosesini sürətləndirdi. Xüsusi mülkiyyətə meyl gücləndi.

Şum əkinçiliyi və maldarlığın inkişafı ilə əlaqədar olaraq sənətkarlığın inkişaf dairəsi daha da genişlənir. Tarixi araşdırmalar bu dövrdə Azərbaycan ərazisində metalişləmə, dulusçuluq və b. sənət sahələrinin çox geniş inkişaf etdiyini göstərirlər. Bu məsələyə aid arxeoloji tapıntılar və onların elmi araşdırması göstərir ki, e. ə. III minilliyin əvvəllərində Zaqafqaziyada metallurgiya və metalişləmə sənəti xeyli inkişaf etmişdir. Bu problemin öyrənilməsinin nəticələri, beləliklə, uzun müddət tarixi ədəbiyyata hakim kəsilən, guya metalın Zaqafqaziyaya kənardan hazır şəkildə gətirilməsi fikrini təkzib etməyə imkan verdi.

Respublikanın görkəmli alimlərindən biri, AFR Arxeologiya İnstitutunun həqiqi üzvü, İngiltərə Metallurgiya Tarixçiləri Cəmiyyətinin, Kaliforniya Universiteti Arxeologiya Elmlər Cəmiyyətinin fəxri üzvü, Azərbaycan SSR EA Tarix İnstitutunun arxeoloji texnologiya laboratoriyasının rəhbəri, kimya və tarix elmləri doktoru İ. R. Səlimxanov qədim metalların spektr analizinin nəticələrinə əsaslanaraq sübut etdi ki, Azərbaycanda metallurgiya və metalişləmə məhz yerli zəmin əsasında təşəkkül tapmışdır. Alimin fikrincə, Qafqazda metallurgiya dövrü xalis metallardan deyil, xəlitələrdən başlanmışdır. Tuncun əldə edilməsinin aşqarı olan qalay buraya kənardan gətirilmişdir. Tarixi dəlillər göstərir ki, qalayın kənardan gətirilməsi qədim azərbaycanlıların Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrinin yaranmasında və inkişafında əhəmiyyətli rol oynamışdır.

50-ci illərin əvvəllərində respublikanın ərazisində ibtidai icma quruluşu probleminin, xüsusən Xocalı—Gədəbəy mədəniyyətinin tədqiqinə aid elmi

ümumiləşdirmələrdən aydın olur ki, tunc dövrünün ikinci pilləsində, e. ə. II minillik və I minilliyin əvvəllərində qədim insanlar miqdarca xeyli artmışdı. Onları artıq təbii və süni mağaralar təmin etmirdi. Onlar çiy kərpicdən və çay daşından tikilən binalardan daha geniş istifadə edirdilər. Bu tikintilər bir ailəyə yox, bütöv bir qəbiləyə mənsub olmuşdur. Azərbaycanın ayrı-ayrı yerlərindən aşkar edilən kənd təsərrüfatına aid avadanlıq, o cümlədən dən daşının tapılması burada tunc dövründə əkinçiliyin yüksək dərəcədə inkişaf etdiyini, ölkənin iqtisadi inkişafında onunla bağlı olan maldarlığın mühüm rol oynadığını göstərir.

Orta tunc dövrü üçün xarakterik olan torpaq, daş qutu qəbirləri və kurqanların Azərbaycan ərazisində geniş yayılması bu dövrün e. ə. II minillikdən etibarən geniş inkişaf etdiyini sübut edir.

Faktlar göstərir ki, Azərbaycanda orta tunc dövrü məhz barbarlığın orta pilləsinə uyğun gəlir.

Sənətkarlıq mürəkkəb peşə olmaqla bir neçə pillələrdən keçmiş və əhalinin sosial-iqtisadi və maddi-mənəvi səviyyəsinə uyğun olaraq dəyişmişdir. Əvvəldə deyildiyi kimi, sənətkarlıq ilk dəfə e. ə. V—IV minillikdə, eneolit dövründə ev peşəsi kimi meydana çıxmış və ailənin tələbatını ödəmişdir. E. ə. III minillikdə ölkədə məhsuldar qüvvələrin inkişafına uyğun olaraq sənətkarlıq ev sənəti çərçivəsindən çıxıb icma sənəti forması almışdır. E. ə. II minilliyin sonu və I minillikdə, cəmiyyətin dəmir dövrünə daxil olduğu pillədə isə sənətkarlıq kəmiyyət və keyfiyyətcə dəyişərək xalqların iqtisadi, ictimai və mədəni inkişafına təsir göstərə bilən mühüm faktor olmuşdur. Bu dövrdə ikinci ictimai əmək bölgüsü baş vermişdir. Sənətkarlıq əkinçilikdən ayrılıb müstəqil peşə kimi inkişaf etmiş, məhsuldar qüvvələrin inkişafında mühüm rol oynamış, qədim şəhərlərin meydana gəlməsi üçün əsas amillərdən biri olmuşdur. Məsələyə bu baxımdan nəzər saldıqda, Q. İsmayılovun «Metalişləmə sənəti ev sənətkarlığının tələbini təmin etmişdir» fikri ilə razılaşmaq olmaz. Sənətkarlığın bu tipi öz təbiətinə görə heç cür ev sənətkarlığına daxil ola bilməzdi. O, ən azı icma sənətkarlığı formasında meydana gəlmişdir. Bu barədə İ. Babayevin, F. Mahmudovun, İ. Nərimanovun və b. tədqiqatlarında geniş məlumat verilir. İ. Babayev göstərir ki, sənətkarlıq qədim cəmiyyətlərin və qədim şəhərlərin həyatında mühüm rol oynamışdı. Şəhərlərdə müxtəlif ixtisaslaşmış peşə sahibləri yaşamışlar. Onlar mal-əmtəə mübadiləsində və bazar əlaqələrində yaxından iştirak etmişlər. İxtisaslaşma prosesi metalişləmə sənətkarları arasında daha geniş olmuşdur.

Tunc dövründə başqa sənətkarlıq növləri ilə yanaşı dulusçuluq da qədim azərbaycanlıların təsərrüfatında özünəməxsus yer tutmuşdu. Arxeoloji qazıntılar zamanı respublikanın ayrı-ayrı ərazilərində aşkar edilən iri tutumlu təsərrüfat küpləri bu sənətin yüksək inkişaf səviyyəsinə çatdırıldığını, yerli əhalinin təsərrüfatında geniş istifadə edildiyini göstərir.

Son tunc dövründə sənətkarlıq, o cümlədən dulusçuluq sənəti ev sənətkarlığı xarakterində olub əkinçi və maldar tayfaların tələbinə xidmət etsə də,

eyni zamanda istehsal alət və vasitələrinin təkmilləşməsində, nəticə etibarı ilə mülki bərabərsizliyin meydana gəlməsinə, sinfi təbəqələşmənin təşəkkül tapmasında mühüm rol oynadı və bu prosesi sürətləndirən «katalizatorlardan» biri oldu.

Azərbaycan tarixçilərinin səmərəli axtarışları, etnoqrafik müşahidələri göstərir ki, artıq e. ə. III minillikdə qadın və onun əməyi ictimai məhsuldar əmək kimi öz əvvəlki əhəmiyyətini və cəmiyyətdə tutduğu mövqeyini itirir. İlk tunc dövrünə aid abidələr içərisində yalnız kişi fiqurlarının tək-tək hallarda aşkar edilməsi cəmiyyətdə kişilərin hökmran qüvvəyə çevrilməyə başladığına sübutdur. İlk tunc dövrünün sonlarında ana nəsli ata nəsli ilə əvəz olunur.

Cəmiyyətin inkişafında çox mühüm pillə olan ata nəslinin başlanmasının ilkin səbəbi iqtisadi tərəqqi və maddi sərvətin genişlənməsi idi.

Azərbaycan ərazisində aşkar edilən tunc dövrü abidələrinin son zamanlar daha ətraflı öyrənilməsi əsasında müəyyən edildi ki, e. ə. III minillikdə ölkənin qədim sakinlərinin həyatında patriarxal-icma (qəbilə) quruluşu, II minillikdə isə yüksək tərəqqi səviyyəsinə çatan patriarxal-ailə münasibətləri hakim yer tutmuş, geniş nəsli münasibətlər hökmran olmuşdur. Arxeoloji qazıntılar zamanı çoxotaqlı yaşayış yerlərinin aşkar edilməsi deyilənlərə sübutdur. İqtisadiyyatın, xüsusən sənətkarlığın inkişafı son tunc dövründə istehsal vasitələri üzərində ictimai mülkiyyətin pozulması ilə nəticələnir və bu, ayrıca ailə mülkiyyətinin təşəkkül tapmasına səbəb olur. Qobustanda və Azərbaycanın bir sıra başqa yerlərində üzə çıxarılan çoxotaqlı tikintilərin hər otağında cüt nigah üzərində meydana gələn ailənin yaşaması ailə mülkiyyətinin meydana gəldiyinə əyani sübutdur.

İlk şəhər mədəniyyətinin ardıcıl və müntəzəm öyrənilməsinin təşəbbüskarlarından biri Vəli Əliyev olmuşdur. O, son on-on beş ildə Naxçıvan ərazisində arxeoloji axtarışlar nəticəsində üzə çıxardığı tikinti abidələri, ilkin şəhər mədəniyyəti yadigarlarının öyrənilməsi ilə bu problemin tarixşünaslığının tədqiqat sahəsini genişləndirdi.

İlk şəhər mədəniyyətinə aid zəngin maddi abidələrin geniş elmi təhlilinə əsaslanan V. Əliyev göstərir ki, e. ə. III minillikdə Azərbaycan və bütün Zaqafqaziya üçün səciyyəvi olan «...Kür-Araz mədəniyyətinin yayılmasında Azərbaycan tayfaları əsas rol oynamışlar».

Bu materialları cəmiyyət tarixinin inkişafı, cəmiyyətdə baş verən iqtisadi-ictimai dəyişiklik baxımından araşdıran müəllif belə bir nəticəyə gəlir ki, «Azərbaycanda ilkin şəhər mədəniyyəti, sinifli cəmiyyət, mülki bərabərsizlik və böyük tayfa ittifaqları orta tunc dövründə baş verən intensiv iqtisadi-mədəni inkişaf nəticəsində yaranmışdır».

Son arxeoloji araşdırmalardan aydın olur ki, Azərbaycanda, eləcə də Zaqafqaziyada ilk böyük ictimai əmək bölgüsü Kür-Araz mədəniyyətinin boyalı qablar mədəniyyəti ilə əvəz edilməsi dövrünə təsadüf edir. Kür-Araz mədəniyyəti eneolit mədəniyyəti zəmini üzərində e. ə. IV minillikdə Cənubi Zaqafqaziyada,

əsasən, Azərbaycan ərazisində təşəkkül tapmış və e. ə. III minilliyin sonuna qədər, orta tunc dövrünə kimi geniş bir ərazini əhatə etmişdi. Yuxarıda deyildiyi kimi, Zaqafqaziyadan cənuba doğru yayılan bu qədim mədəniyyət İranın Şimal-qərb əyalətlərini, Şərqi Anadolu və bir sıra başqa Yaxın Şərq ölkələrinə daxil olmuşdu. E. ə. III minilliyin sonlarından etibarən Kür-Araz mədəniyyətini əvəz edən boyalı qablar mədəniyyəti orta, son tunc dövrləri və ilk dəmir dövründən ibarət olan böyük bir tarixi dövrü əhatə etmiş, e. ə. I minilliyə qədər başlıca mədəniyyət sahəsi olmuşdur.

Tarixi faktların araşdırılması sübut edir ki, Azərbaycan ərazisində son tunc dövründə boyalı qablar mədəniyyəti, ilkin şəhər mədəniyyəti tipi kimi ərazi etibarı ilə çox geniş yayılmışdır.

Azərbaycanda orta və son tunc dövrlərinə sənətkarlığın geniş inkişafı və sənətkarların əməyinin ixtisaslaşması prosesinin izləri boyalı qablar istehsalında daha aydın müşahidə edilir.

Boyalı qablar mədəniyyəti son tunc və ilk dəmir dövrləri üçün daha səciyyəvidir. Mədəniyyətin bu tipinə aid nümunələr keçən əsrin 90-cı illərində aşkar edilmişdir.

Boyalı qablar mədəniyyətinin inkişafının ilkin şəhər mədəniyyətinin təşəkkülü ilə bağlı olduğu şübhəsizdir. Azərbaycan bu qədim mədəniyyətin başlıca mərkəzlərindən biri olmuş və bu mədəniyyət Azərbaycanın vasitəçiliyi ilə tədricən Zaqafqaziyaya yayılmışdır.

Zaqafqaziyanın, o cümlədən Azərbaycanın Ön Asiya ilə iqtisadi-mədəni əlaqəsi orta və son tunc dövrlərində xeyli intensiv olmuşdur. Bu məsələ Hidayət Səfərovun «Son tunc və ilk dəmir dövründə Azərbaycanın Ön Asiya ölkələri ilə əlaqələri (Azərbaycan arxeoloji materialları əsasında)» adlı maraqlı, elmi baxımdan əhəmiyyətli monoqrafiyasında tutarlı və zəngin faktlar əsasında işıqlandırılmışdır. Son vaxtlar tarixşünaslıqda Azərbaycanın qonşu ölkələrlə əlaqəsi tarixinə maraq genişlənmişdir. Azərbaycanın qədim və antik tarixini öyrənən tarixçi-arxeoloqlar, habelə tarixçi-etnoqraflar bu əlaqələrin meydana gəlməsi, inkişafı, onun xarakteri, tarixi coğrafiyası, qədim xalqların, etnik qrupların sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafında rolu və s. kimi məsələlərin tədqiq edilməsi üzərində müntəzəm surətdə işləmişlər. F. Mahmudovun tədqiqlərində bu problemə xüsusi yer verilir. O, arxeoloji materialların tədqiqi nəticələrinə əsaslanaraq qeyd edir ki, orta tunc dövründə meydana çıxıb inkişaf edən iqtisadi və mədəni əlaqələr son tunc və ilk dəmir dövrünün əvvəllərində müntəzəm şəkil almışdır. Məhz bu əlaqələrin nəticəsində boyalı qablar mədəniyyəti Ön Asiyadan Zaqafqaziyaya, o cümlədən Azərbaycana daxil olmuş və az bir vaxt ərzində yüksək inkişaf səviyyəsinə çatmışdır.

Tarixi ədəbiyyatda belə bir fikir də vardır ki, boyalı qablar mədəniyyəti burada yerli zəmin üzərində yaranmamış, mənşə etibarı ilə İran mədəniyyəti qrupuna daxil olmaqla miqrasiya yolu ilə intişar tapmışdır. O. Həbibullayev yazır

ki, «E. ə. IV minillikdə bu mədəniyyət—(boyalı qablar mədəniyyəti — Y. S.) Yaxın Şərq ölkələri ilə mədəni əlaqələrin nəticəsində Azərbaycana keçmişdir».

İqrar Əliyev də bu fikirdədir. O, hesab edir ki, e. ə. V—III minillikdə meydana çıxan gil qablar, o cümlədən boyalı qablar mədəniyyəti Aralıq dənizindən başlamış Çinədək geniş bir ərazini əhatə etmiş və Yaxın Şərq ölkələri ilə iqtisadi və mədəni əlaqələrin nəticəsində Azərbaycana keçmişdir. İ. M. Dyakonov da bu fikrə tərəfdar çıxır. Boyalı qablar mədəniyyətinin bu regiona Ön Asiyadan «transformasiya» edilməsi fikrinə Azərbaycan tarixçilərindən İ. Nərimanov, C. Xəlilov, Ə. Ələkbərov, H. Cəfərov və b. tərəf çıxırlar və hesab edirlər ki, boyalı qablar mədəniyyəti çox geniş və dərin tarixi laylara malik olmaqla, ilk dəfə Ön Asiyada təşəkkül tapmışdır. O, Zaqafqaziyaya, həmçinin Azərbaycana bu ölkələrlə olan iqtisadi əlaqələrin nəticəsində nüfuz etmişdir.

Vəli Əliyev isə bu fikirlərlə razılaşmır. O hesab edir ki, boyalı qablar mədəniyyətinin vətəni məhz Azərbaycan olmuş və buradan da Zaqafqaziyaya, Şimali Qafqaza və Ön Asiyaya daxil olmuşdur. Boyalı qablar mədəniyyətinə aid son vaxtlar yazılan ədəbiyyatın müqayisəli təhlili göstərir ki, tərəflərin hər ikisinin fikrində rasional cəhət vardır. Onların hər birinin mülahizələri tutarlı faktlara söykənir. Hər biri öz gümanında haqlıdır. Boyalı qablar mədəniyyətinin Ön Asiyada təşəkkül tapdığı barədəki fikrə haqq qazandırmamaq qeyri-mümkündür. Ön Asiya iqtisadi və mədəni inkişafın səviyyəsinə görə qədim Azərbaycandan, burada yaşayan yerli etnoslardan yüksək səviyyədə dururdu. Dövlət mexanizmi ilk dəfə burada meydana gəlmişdir. Təkcə bu faktlar mədəniyyətin bu tipinin də ilk dəfə burada meydana gəldiyini və yer kürəsinin bir çox ərazisinə buradan nüfuz etdiyini güman etməyə imkan verir. V. Əliyevin də fikrində həqiqət vardır. O da öz mülahizəsində haqlıdır. Güman etmək olar ki, orta tunc dövründə Ön Asiya ilə Azərbaycan arasında əmələ gələn və son tunc və ilk dəmir dövründə çox geniş vüsət alan iqtisadi əlaqələr boyalı qablar mədəniyyətinin bu regiona daxil olmasına səbəb olmuşdur. V. Əliyevin boyalı qablar probleminə həsr etdiyi əsərlərindən aydın olur ki, Azərbaycanda boyalı qabların geniş miqyasda istehsal edilməsi tarixən bu dövrdə baş vermiş və müntəzəm şəkil almışdır. Azərbaycan sənətkarlarının hazırladıqları boyalı qablar özünün texnologiyasına, ornamentinə, tərtibat üsuluna və s. mühüm elementlərinə görə orijinal olmuşdur. Başqa xalqlarda demək olar ki, təkrar olunmamışdır. Əksinə, azərbaycanlı ustaların yüksək sənətkarlığı, öz sənətlərinə vurğunluğu az bir vaxtda onların istehsal etdikləri nəfis, çoxsahəli və müxtəlif çeşidli boyalı qabları dünya meridianlarına tanış etmişdir. Onlar öz orijinallığına görə Ön Asiya boyalı qablar mədəniyyətinin, güman ki, sonrakı tərəqqisinə də təsir edə bilmişdir. Beləliklə, güman etmək olar ki, boyalı qablar Azərbaycana Ön Asiyadan, bu ölkələr arasındakı əlaqələr nəticəsində daxil olmuşdur. Lakin yerli sənətkarlar bu mədəniyyəti kor-koranə qəbul etməmişlər. Onunla bəhrələnən qədim Azərbaycan sənətkarları boyalı qabların orijinal tipini— Azərbaycan boyalı qablar «ailəsini» yaratmışlar.

Boyalı qablar mədəniyyəti dövründə maldarlığın və sənətkarlığın sürətli inkişafı dövrü başlayır. Bu zaman qaramal və xüsusən də davar heyvanlardan ibarət böyük sərvət toplayan maldar qəbilələr meydana gəlir. Onlar maddi sərvətlərinin gücünə əsaslanaraq yoxsul qəbilə üzvlərini özlərindən asılı vəziyyətə salır və qəbilə ittifaqlarına başçılıq etməyə başlayırlar.

Maldarlığın və sənətkarlığın sonrakı intensiv inkişafı ictimai münasibətlərdə daha dərin və daha əsaslı dəyişikliyin baş verməsi üçün iqtisadi zəminin yetişməsinə səbəb olur.

Tunc dövründə Zaqafqaziyada, eləcə də Azərbaycan ərazisində əkinçiliyin və maldarlığın sürətli inkişafı, sonuncunun oturaq ev maldarlığı çərçivəsindən çıxıb müstəqil, yarıoturaq təsərrüfata çevrilməsi birinci böyük ictimai əmək bölgüsü ilə nəticələndi.

Bu proses ölkədə mal-əmtəə mübadiləsinin meydana gəlməsinə və onun müntəzəm şəklə düşməsinə, məhsul bolluğu yaranmasına, xüsusi mülkiyyətin meydana çıxmasına və nəhayət, ictimai təbəqələşmənin təşəkkül tapmasına səbəb oldu. Antik müəlliflər də Zaqafqaziyada, o cümlədən Azərbaycanda maldarlıq təsərrüfatının ölkənin iqtisadi potensialında mühüm rol oynadığını göstərirlər. Ölkənin geniş miqyasda arxeoloji abidələr əsasında tədqiqi bir daha göstərir ki, əvvəllər oturaq xarakter daşıyan maldarlıq təsərrüfatı mal-qaranın inkişafı, yem bazasının sahəsinin genişləndirilməsinə ehtiyacın artması ilə əlaqədar olaraq e. ə. I minilliyin əvvəllərindən etibarən yarımköçəri forma alır. Bu forma tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərində bütün Qafqaz üçün səciyyəvi hal oldu. Maldar tayfalar təkərli arabalardan daha çox istifadə edir. Tunc dövründə Azərbaycanın yerli əhalisi iribuynuzlu heyvanların yetişdirilməsinə müstəsna əhəmiyyət vermişdir. Onlar atçılığın da inkişaf etdirilməsinə xüsusi səy göstərmişlər. Dağlıq Qarabağ, Mingəçevir, Şahtaxtı, Gəncəçay və b. yerlərdə üzə çıxarılan at əsləhəsi və skeletləri fikrimizi sübut edir.

Maldarlıq təsərrüfatında həlledici işçi qüvvəsinin əsasını kişilər təşkil edirdilər. Tunc dövrünün axırlarında təsərrüfatın bu növündə ictimai diferensiasiyanın ilk rüşeymləri meydana gəlir. Mal-qara sürüləri qəbilənin ümumi mülkiyyətindən çıxıb ayrı-ayrı ailə başçılarının mülkiyyətinə çevrilir. Ümumi mülkiyyətə əsaslanan icma münasibətləri iflasa uğramağa başlayır. Heyvandarlıq məhsullarının mübadiləsindən əldə edilən qazanc da kişilərdən ibarət olan ailə başçılarının əlində cəmləşirdi.

Mal-qaranın durmadan artması otlaqlara olan ehtiyacı artırır. Qəbilələr arasında yeni otlaqlar ələ keçirmək səylərini genişləndirir. Hərbi toqquşmalar baş verir. Onlar ilk addımda müvəqqəti, keçici xarakter daşıdığı halda, sonralar daimi xarakter alır. Peşəyə çevrilir. Toqquşmalar zamanı məğlub olan qəbilənin üzvləri əsir alınır və qula çevrilirdi. Bu hal tunc dövrünün sonlarına təsadüf edir. Sinifli cəmiyyətin ilk ünsürləri meydana gəlir. Tunc dövrü üçün xarakterik olan kurqanlar,

torpaq, küp və daş qəbirlərin öyrənilməsi göstərir ki, Gəncəçay və Qoşqarçay vadiləri əhalinin ən sıx yaşayış məskənləri olmuşdur.

E. ə. II minillikdən I minilliyə keçid dövründə, ilk dəmir mədəniyyətinin başlanğıcında Qafqazın cənub hissəsində, o cümlədən Azərbaycan ərazisində məhsuldar qüvvələrin intensiv inkişafı, mal-qara sürülərinin arasıkəsilmədən çoxalması ölkədə qəbilələr arasında iqtisadi əlaqələrin genişlənməsinə, mübadilənin daha da inkişaf etməsinə imkan verdi. Bu zaman təsərrüfatda daşdan, ağacdan və metaldan hazırlanmış kətmən və toxadan istifadə edilmişdir. Güman edilir ki, e. ə. II minilliyin sonu, I minilliyin başlanğıcında qoşqu qüvvəsi ilə hərəkətə gətirilən ağac vəllərdən və xışdan da istifadə edilmişdir. Azərbaycan ərazisində yaşayan qədim əkinçi tayfalar arasında tunc dövrünün sonlarından etibarən taxılın döyülməsində vəldən və dən daşından istifadə geniş yer tutmuşdur.

Beləliklə, e. ə. II minilliyin əvvəllərində Azərbaycan ərazisində artıq varlı və yoxsul tayfalar qarşı-qarşıya durmuşdular. Ölkədə məhsuldar qüvvələrin artması, tayfalar arasında və tayfa ittifaqlarının öz daxilində tez-tez baş verən silahlı toqquşmalar, ictimai mülkiyyətin xüsusi mülkiyyətlə əvəz edilməsinin fasiləsiz genişlənməsi mövcud ictimai quruluşun—ibtidai icma münasibətlərinin daha mütərəqqi münasibətlərlə—erkən quldarlıq münasibətləri ilə əvəz olunmasını zəruri edirdi. II minillikdə, tunc dövrünün axırlarında II böyük ictimai əmək bölgüsü — sənətkarlığın əkinçilik və maldarlıqdan ayrılması baş verdi. V. Əliyev yazır ki, son tunc dövründə «...istehsal münasibətləri məhsuldar qüvvələrin xarakterinə uyğun gəlmədiyindən Azərbaycanda ibtidai icma quruluşu son tunc dövründə tədricən dağılmağa başlayır. Bu ictimai proses dəmir dövründə başa çatmışdır».

Son zamanlarda qədim yaşayış yerlərinin əsaslı surətdə öyrənilməsi ilk sivilizasiyaya keçid dövründə ölkənin sosial-iqtisadi, ictimai və siyasi tarixinin bir sıra mühüm məsələlərində aydınlıq yaratmağa imkan verdi. Qəliblərə tökmə üsulu ilə təbərzin-baltaların hazırlanması Azərbaycanda metallurgiyanın yerli zəmin üzərində inkişaf etdiyini, orijinal xarakter daşıdığını göstərir. Sənətkarlığın bu mürəkkəb tipinin burada geniş inkişaf etdiyinin elmi cəhətdən əsaslandırılması, onun da digər mədəniyyət növləri kimi buraya kənardan hazır şəkildə gətirildiyini iddia edən miqrasiya nəzəriyyəsi nümayəndələrinin fikirlərini təkzib etməyi mümkün etdi. Təbərzin baltaların e. ə. II minilliyin axırı və I minilliyin əvvəllərində geniş miqyasda istehsal olunması tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərində, ölkədə sinifli cəmiyyətin meydana gəlməsi ərəfəsində Azərbaycanda metallurgiyanın yüksək inkişaf səviyyəsinə dəlalət edir, sənətkarlığın bu növünün ev sənətkarlığı çərçivəsindən kənara çıxarıb müstəqil xarakter daşıdığını, emalatxana şəraitində tərəqqi etdiyini göstərir. Qərbi Azərbaycan ərazisində aşkar edilən yaşayış məskənlərinin və habelə qəbiristanlıq avadanlığının təsnifatı və tipoloji tədqiqi sübut etdi ki, bu ərazidən üzə çıxarılan abidələr oxşardır və burada e. ə. II minilliyin əvvəllərində, son tunc dövründə əhali

ayrı-ayrı ailələr şəklində yaşamışdır. Qədim yaşayış məskənləri arasında siklop* tikintilər mühüm rol oynamışlar. Onların tarixilik baxımından öyrənilməsində ilk addım 1927-ci ildə atılmışdır. 60-cı illərdən etibarən isə siklop tikintilərin tədqiq edilməsinin yeni mərhələsi başlandı. Güman edilir ki, Qərbi Azərbaycanda siklop tikintilərin inşa edilməsi e. ə. II minillikdə geniş şəkil almışdır. Siklop tikintilər, başlıca olaraq ticarət yolları üzərində inşa edilmişdir. Tarixi ədəbiyyatda bu tikintilər haqqında fikir eyniliyi yoxdur. İ. İ. Meşşaninov siklop tikintilərin müdafiə obyektləri, İ. Cəfərzadə onları müqəddəs yerlər olduğunu güman edir. K. Əbilova hesab edir ki, siklop tikintilər yadelli basqınçı tayfaların hücumundan əhalini müdafiə vasitələri olmuşdur. C. Xəlilov göstərir ki, bu tikintilər sinifli cəmiyyətin meydana gəlməsindən sonra, maldarlığın inkişafı ilə əlaqədar olaraq, mal-qaranı mühafizə etmək məqsədi güdmüşdür və s.

Siklop tikintilərin, əsasən, dağlıq ərazidə, əksəriyyət hallarda köç yollarının ətrafında salınması göstərir ki, onlar yarıköçəri maldar tayfaların məskənləri və mühafizə vasitələri olmuşlar.

Son illər Azərbaycanın qədim tarixinin arxeoloji abidələr əsasında öyrənilməsinin nəticələri göstərir ki, buranın təbii zənginliyi və əkinçiliyin, maldarlığın, metallurgiyanın inkişafı üçün xammal mənbələrinin genişliyi sayəsində ölkədə tunc dövründə və dəmir dövrünün əvvəllərində əhalinin sıxlığı xeyli artmışdı. Bu ərazidə aşkar edilən qəbiristanlıqların çoxluğu, orada tapılan avadanlığın zənginliyi əhali sıxlığının geniş olduğunu söyləməyə bir daha əsas verir.

E. ə. II minilliyin sonu, I minilliyin başlanğıcında, dəmir dövrünün əvvəllərində ölkənin daxili inkişafının nəticəsində qəbilələr arasında başqasının əmlakına yiyələnmək meylinin meydana gəlməsi onların arasında zorakılıq hisslərinin baş qaldırmasına səbəb olur. Bu proses qəbilələrin birləşməsini tələb edirdi. Bu birləşmə qəbilə başçılarının fərqlənməyinə, onların getdikcə sıravi qəbilə üzvlərindən təcrid edilməsinə, özlərini sıravi qəbilə üzvlərinə qarşı qoymağa daha çox səy göstərmələrinə səbəb olur. Bu dövlət mexanizminin ilk izlərinin meydana çıxdığına sübutdur.

Tunc dövrünün sonunda texnika və təsərrüfatın inkişafı insanların maddi-mədəniyyət səviyyəsinin yüksəlməsi və əhali sayının artması ilə səciyyələnir. Zaqafqaziyada son tunc dövründə beş böyük metallurgiya mərkəzi, o cümlədən onlardan ikisinin Dağlıq Qarabağ və Gədəbəy ərazisində yerləşməsi buna parlaq sübutdur.

60-cı illərə qədər tarixşünaslıqda güman edilirdi ki, Gəncəçay rayonunda əhali dəmirlə tanış olmamışdı. Hesab olunurdu ki, burada tunc mədəniyyəti

* Siklop — Yunan sözüdür. Təpəgöz deməkdir. Təpəgöz qədim yunan əsatirlərində alnın ortasında gözü olan nəhəng canlılara deyilirdi. Təpəgöz iri, böyük mənasında işlənilir. Bu mənada siklop tikinti — iri, möhtəşəm tikinti deməkdir.

həlledici mövqe tutmuşdur. İ. Nərimanovun tunc və ilk dəmir dövrünə aid tədqiqləri bu fikri təkzib etməyə və burada e. ə. I minilliyin birinci əsrlərindən etibarən əhalinin dəmirlə tanış olduğunu söyləməyə imkan verdi. İ. Nərimanov yazır: bu ərazidə «...dəmir əşyaların geniş yayılması e. ə. I minilliyin ikinci rübündən başlamışdır».

Arxeoloji tapıntıların tədqiqi göstərdi ki, Şərqi Zaqafqaziyanın bir çox ərazisində Xocalı—Gədəbəy mədəniyyətinə mənsub olan qəbilə birləşmələri sakin olmuşlar. Mədəniyyətin bu tipi üçün xarakterik olan «yumru gövdəli» çiyinlərində göbələkvarı çıxıntıları olan və ağ maddə ilə naxışlanmış gil qablar Gəncəçay hövzəsində, habelə Azərbaycanın başqa rayonlarında da aşkar edilmişdir. Onlar e. ə. XIII əsrin sonunda IX əsrin əvvəllərinə qədərki dövrü əhatə edirlər.

60-cı illərə qədər tarixi ədəbiyyatda güman edilirdi ki, Talış mədəniyyəti Muğan mədəniyyətindən fərqli olmuşdur. Bununla əlaqədar olaraq tarixşünaslıqda «Muğan mədəniyyəti» və «Talış mədəniyyəti» anlayışları özünə yurd salmışdı. F. Mahmudov 1964-cü ildən etibarən Azərbaycanın cənubi-şərq ərazisində aşkar edilən mədəniyyət nümunələrinin kompleks şəkildə öyrənilməsi nəticələrinə əsaslanaraq Talış və Muğandan üzə çıxarılan maddi abidələrin tiplərinə, xarakterlərinə, tarixi inkişafına və s. xüsusiyyətlərinə görə oxşar və yaxın olduqlarını müəyyən etdi. O əsaslandırdı ki, bu regionda iki mədəniyyət yox, məhz vahid bir mədəniyyət—«Talış—Muğan mədəniyyəti» olmuşdur. Bu mədəniyyət e. ə. XIV əsrdə təşəkkül tanmış, VII əsrə qədər davam etmiş və son tunc dövrü üçün səciyyəvi olan mədəniyyət tiplərindən biri olmuşdur. Arxeoloji materialların tipoloji təhlilinə əsasən F.Mahmudov bu regionda qədim insanların tunc dövrünə qədər mövcud olan təsərrüfat formalarının ən primitiv səviyyəsi kimi tanınan yığma tipindən istehsal etmə kimi daha yüksək mərhələsinə qədəm qoyduqlarını, erkən əkinçilik-maldarlıq təsərrüfatı texnikasına yiyələndiklərini, təsərrüfatın bu növünün e. ə. III minilliyin əvvəlindən başlayaraq oturaq əkinçilik-maldarlıq təsərrüfatı kimi intensiv inkişafda olduğunu, yerin şumlanmasında qoşqu qüvvəsindən, məhsulun daşınmasında isə ikitəkərli arabalardan istifadə edildiyini göstərdi.

Beləliklə, 60—80-ci illərdə qədim abidələrin az olması, onların hərtərəfli təhlil edilməməsi, elmi tədqiqat vərdişlərinə hərtərəfli yiyələnən tarixçi kadrların azlığı və bir sıra başqa obyektiv və subyektiv səbəblər üzündən tariximizin qədim «uşaqlıq» və erkən «gənclik» dövrlərinin bir çox sirlərini aşkar etmək mümkün olmamışdı. Bu səbəbdən də bir çox tarixçilər burada baş verən iqtisadi-ictimai, siyasi dəyişikliyin, mədəni inkişafın, xalqın formalaşması prosesinin yerli zəmin üzərində baş vermədiyini göstərmiş, burada ilk insan nəslinin olmasını və onun nəsli ardıcıllıqla inkişafını şübhə altına almışdılar.

Son tədqiqatlar bütün bu şübhələri aradan qaldırmağa, onları tutarlı faktik dəlillər əsasında təkzib etməyə imkan verdi.

Azərbaycanın qədim dövrü tarixinə arxeoloji baxımdan nəzər salan respublika tarixçiləri, Küp qəbir mədəniyyəti və Yaloylutəpə mədəniyyəti abidələri əsasında belə bir elmi nəticəyə gəldilər ki, Yaloylutəpə mədəniyyəti, qədim mədəniyyət olmaqla, başlıca olaraq Böyük Qafqazın dağətəyi ərazisində, Küp qəbir mədəniyyəti isə Azərbaycanın aran və dağətəyi rayonlarında yayılmışdır. Yaloylutəpədən üzə çıxarılan qəbirlərdən aşkar edilən zəngin maddi-mədəniyyət abidələrini geniş miqyasda öyrənən Ə.İsmizadə bu mədəniyyətin yayıldığı ərazinin xronoloji çərçivəsini və Azərbaycanın qədim sakinlərinin tarixi inkişafında onun tutduğu yeri müəyyənləşdirməyə səy göstərmişdir. Onun fikrincə Yaloylutəpə mədəniyyətini təmsil edənlər qədim Qafqaz albanlarından ibarət yerli əhali olmuşdur.

Azərbaycan ərazisindən aşkar edilən Küp qəbir və Yaloylutəpə mədəniyyətinə dair materialların elmi-müqayisəli təhlilinə əsasən güman etmək olar ki, onlar ərazicə üst-üstə düşürlər.

Küp qəbirlər mədəniyyəti Mingəçevir və ona yaxın ərazidə geniş yayılmışdır. Mingəçevirdə aparılan arxeoloji qazıntı işləri nəticəsində buradan 300-dən artıq küp qəbir aşkar edilmişdir. Bu maddi-mədəniyyət abidələri e. ə. I minilliyin sonu və bizim eranın II əsrinə qədər böyük bir tarixi dövrü əhatə edir. Mingəçevir arxeoloji ekspedisiyası işinin həcmi, tədqiq etdiyi abidələrin xronoloji çərçivəsinin genişliyi nöqteyi-nəzərindən Sovet hakimiyyəti illərində nəinki Azərbaycanda, hətta bütün Zaqafqaziya ərazisində ən böyük ekspedisiyalardan biri olmuşdur.

Mingəçevir qədim abidələrinin öyrənilməsi nəticəsində müəyyən edilmişdir ki, burada yaşayış III minilliyin sonlarından başlamışdır və tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərində daha intensiv olmuşdur. Abidələrin xeyli hissəsi (Kurqanlar və Torpaq qəbirləri) Azərbaycan ərazisində geniş yayılan Xocalı—Gədəbəy mədəniyyətinə, yəni son tunc dövrünə mənsubdur. Bu ərazi öz əlverişli coğrafi mövqeyinə görə iri yaşayış yerlərindən olmuş və burada ticarət və sənətkarlıq xeyli inkişaf etmişdir.

Müharibədən sonrakı illərdə aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən edildi ki, e. ə. I minillikdə tuncdan və dəmirdən əmək alətləri, silah, məişət əşyaları və b. şeylər hazırlanması texnikası xeyli təkmilləşmişdir. N. V. Minkeviç göstərir ki, e. ə. I minillikdə Azərbaycanın qədim sakinləri tunc mədəniyyətinə tam bələd olmaqla yanaşı, dəmir mədəniyyətinə də yiyələnməyə başlamış və oturaq həyat sürmüşlər. Bəşəriyyətin tarixi inkişafında dəmirin icad olunması və ondan istifadə edilməsi mühüm rol oynamışdır. Barbarlıqdan ilk sivilizasiyaya dönüş dəmirin insanların məişətinə daxil olması ilə bağlıdır. E. ə. IX—VIII əsrlərdən başlayaraq qonşu tayfaların hərbi basqınları güclənir. Bunun qarşısını almaq üçün müdafiə məqsədi güdən siklopik tikintinin inşa edilməsi, bu ərazidə yaşayan əhali kütləsinin yüksək mədəniyyətə malik olduğunu sübut edir. Azərbaycan ərazisində tikilən əzəmətli binalar, möhtəşəm müdafiə vasitələri, inşa

edilən qalalar və s. ölkənin sakinlərinin çoxlu miqdarda insanları birləşdirən iri tayfa ittifaqları halında yaşadıqlarını və müharibələrdə ələ keçən əsirlərdən qul kimi istifadə etdiklərini göstərir. Qəbirlərdən tapılan skeletlərin bəzilərinin qəbirin ortasında, digərlərinin oturmuş vəziyyətdə dəfn edilməsi bir daha e. ə. I minilliyin əvvəllərində bu regionda artıq ibtidai quldarlıq quruluşu elementlərinin meydana gəldiyini, icma quruluşunun yavaş-yavaş pozulmağa başladığını, mülkiyyətin tayfa mülkiyyətindən çıxıb ayrı-ayrı adamların xüsusi mülkiyyətinə çevrilməyə başladığını və dövlətin ilk ünsürlərinin meydana gəlməsi üçün zəminin yarandığını söyləməyə təminat verir.

E. ə. I minillikdə, ilk dəmir dövründə, dəmirdən hazırlanan istehsal alətlərinin miqyası genişləndi, məhsuldar qüvvələr xeyli inkişaf etdi, istehsal alətləri təkmilləşdi, təsərrüfat ayrı-ayrı ailələr tərəfindən idarə edilməyə başlandı. Hər bir ailə özlüyündə bir təsərrüfat vahidi idi. İctimai mülkiyyət xarakteri daşıyan icma torpaqları ayrı-ayrı ailələrin xüsusi mülkiyyətinə — ailə mülkiyyətinə çevrildi. İbtidai icma quruluşu pozulmağa başladı. Ölkədə şum əkinçiliyinin bərqərar olması ilə qan qohumluğuna əsaslanan qəbilə icmaları təsərrüfat yaxınlığı əsasında meydana gələn kənd icmaları ilə və yaxud qonşu icmalarla əvəz edilməyə başladı. Mülki bərabərsizliyin coğrafi ərazisi genişləndikcə kənd icması patriarxal-qan qohumluğu prinsipi əsasında yaranan ev icmasını sıxışdırıb aradan çıxarır. Kənd icmasında torpaq ayrı-ayrı ailələr tərəfindən fərdi olaraq becərilirdi. Arxeoloji axtarışların, xüsusən Xocalı—Gədəbəy, Mingəçevir, Naxçıvan və Azərbaycanın başqa ərazisindən tapılan maddi abidələrin tədqiqi nəticələrinin ümumiləşdirilməsi göstərir ki, e. ə. I minillikdən başlayaraq istehsal alətlərinin təkmilləşməsi, mübadilənin genişlənməsi, ictimai mülkiyyətin pozulması, xüsusi mülkiyyətə meylin genişlənməsi əvvəllər tayfalar arasında, sonralar isə qonşu qəbilə ittifaqları və ölkələr arasında toqquşmalara, müharibələrə səbəb olur. Əvvəllər bu toqquşmalar zamanı ələ keçən əsirlər fiziki cəhətdən məhv edilirdisə, sonralar onlardan işçi qüvvəsi kimi istifadə edilir. İlk patriarxal quldarlıq—ev quldarlığı meydana gəlir.

Beləliklə, dəmir dövründə Azərbaycanda məhsuldar qüvvələr daha da inkişaf etmiş, yeni istehsal münasibətləri meydana gəlmişdir.

E. ə. I minilliyin əvvəlində ibtidai icma quruluşu pozulur və ilk sivilizasiyaya keçid üçün zəruri olan şərtlər hasil olur. İbtidai icma quruluşu öz yerini ilk sinifli cəmiyyətə, erkən quldarlıq quruluşu cəmiyyətinə vermişdir.

*IV fəsil*

# AZƏRBAYCANDA İLK SİNİFLİ CƏMİYYƏT

İbtidai icma münasibətlərinin pozulması ilk sivilizasiyanın — sinifli cəmiyyətin meydana gəlməsi ölkədə məhsuldar qüvvələrin sürətli inkişafı və istehsal münasibətlərinin ciddi kəskinləşməsi nəticəsində baş verdi. Bu prosesin izləri barbarlığın daxilində meydana gəlir və cəmiyyətdə ikinci böyük əmək bölgüsünə doğru gedir. Bu irəliləyişdə qədim insanların toxucu dəzgahını kəşf edib onu məişətə daxil etməsi, metal filizlərini əritmə və metal emalı sənətinə bələd olması mühüm rol oynamışdır. Dəmirin kəşfi ilə cəmiyyətin inkişafında yeni mərhələnin—sinifli cəmiyyətin təməli qoyulur.

Bəşəriyyətin dəmirdən istifadə etməyə başlaması ilə insan həyatının bütün sahələrində—əkinçilikdə, maldarlıqda, ev sənətində və maddi nemət bolluğu əldə edilməsində stimul yarandı. «İstehsalın artması nəticəsində insanın iş qüvvəsi onu saxlamaq üçün lazım gəldiyindən daha çox miqdarda məhsul istehsal edə bildi». İstehsalın inkişafında baş verən kəmiyyət dəyişikliyi hər bir qəbilə və ya ailə üzvünün təklikdə payına düşən gündəlik əməyin qədərini də yüksəldir. Nəticədə istehsalata yeni işçi qüvvəsi cəlb etmək zəruri şəkil alır. Müharibə cəmiyyətin yeni işçi qüvvəsi ilə təmin olunması tələbatını ödəyə bilən başlıca mənbə rolunu oynayır. Əvvəllər müharibələr yalnız tayfaların yaşadıqları ərazini genişləndirmək, yaxud qonşu qəbilənin və ya tayfanın hücumunun qarşısını almaq məqsədi güdürdüsə, istehsalın artması və məhsuldar qüvvələrin sürətli inkişafı nəticəsində yeni işçi qüvvəsi əldə etmək zərurətə çevrilir. Müharibələr qarət etmək, əsir alıb onu işçi qüvvəsinə çevirmək üçün aparılır. Müharibələr nəticəsində əsir alınanlar artıq öldürülmürdü. Onlar qula çevrilir və istehsalın ayrı-ayrı sahələrində istifadə edilirdi. «Birinci böyük ictimai əmək bölgüsündən cəmiyyətin də birinci böyük bölgüsü, iki sinfə—ağalara, qullara, istismarçılara, istismar olunanlara bölgüsü meydana gəldi».

Cəmiyyətin iki antaqonist siniflərə bölünməsi istehsalın inkişafında baş verən kəmiyyət və keyfiyyət dəyişikliyi, məhsuldar qüvvələrin inkişafı nəticəsində oldu. İlk sivilizasiya cəmiyyətin inkişafında ibtidai-icma quruluşuna nisbətən irəliyə doğru güclü addım idi. Cəmiyyət üzvləri arasında sərvət əldə etmək, onu şəxsi mülkiyyətə çevirmək anlayışı məhz bu dövrdə, maldarlıq əkinçilikdən ayrıldıqdan sonra baş qaldırır və getdikcə daimi hal alır. «Sürülər və başqa yeni sərvətlər əldə etdikdə isə, ailədə inqilab baş verdi». Bu inqilab cəmiyyətin ilk sivilizasiya dövrünə irəliləyişini mükəmməl şəklə saldı. Ailənin icmadan ayrılması prosesi qarşısıalınmaz oldu. O, müstəqil təsərrüfat və istehsal vahidinə çevrildi. İnsanlar köhnə ev icmasından ilk sivilizasiyanın təşəkkül tapmağa başladığı barbarlığın yüksək pilləsinə gəlib çatdı. Bu pillədə «...bütün mədəni xalqlar (sivilizasiya dövrü keçmiş xalqlar — Y. S.) öz qəhrəmanlıq (hərbi demokratiya—

Y. S.) dövrünü,—dəmir qılınc, bununla da birlikdə dəmir kotan və balta dövrünü keçirir». Bütün bu tərəqqi ictimai əmək bölgüsünün daha da dərinləşməsi ilə nəticələndi.

Barbarlığın yüksək pilləsində hərbi demokratiya quruluşu meydana gəlir. Bu mərhələlərdə «...müharibə və müharibədən ötrü təşkil olunmaq xalq həyatının müntəzəm funksiyaları olur». İnsanlarda sərvət əldə etməyə meyl artır. Qonşuların sərvətinə sahib olmaq hərisliyi güclənir. Artıq müharibə qonşuları qarət etmək, onları qalib qüvvənin köləsinə çevirmək vasitəsinə çevrilir. Müharibələrin nəticəsində ələ keçirilən qənimətin tayfanın və ya qəbilənin ümumi mülkiyyəti olması mahiyyəti arxada qalır. Əldə edilən qənimətlər sərkərdələrin şəxsi sərvəti olur. Ali sərkərdə və ona tabe olan qoşun başçıları hakim qüvvəyə çevrilir. Sərkərdəlik irsi xarakter alır.

Beləliklə, sivilizasiya əmək bölgüsündə yeni bir addımla başlayır. İbtidai-icma münasibətlərinin pozulması ilk sivilizasiyanın — sinifli cəmiyyətin meydana gəlməsinə səbəb oldu. Cəmiyyətin iki antaqonist siniflərə bölünməsi istehsalın inkişafında baş verən kəmiyyət və keyfiyyət dəyişmələrinin, məhsuldar qüvvələrin inkişafının təbii nəticəsi idi. İlk sivilizasiya cəmiyyətin inkişafında ibtidai icma quruluşuna nisbətən irəliyə doğru güclü addım idi. Bu irəliləyişin də qədim insanların toxucu dəzgahını kəşf edib onu məişətə daxil etməsi, metal filizlərini əritməyə və metal emalı sənətinə bələd olması mühüm rol oynamışdır. Dəmirin kəşfi ilə cəmiyyətin inkişafında yeni mərhələnin, sinifli cəmiyyətin təməli qoyulur. Dəmirin kəşfi bəşər tarixində həqiqətən inqilabi bir hadisə, tarixi dönüşün başlanğıcı oldu.

Bəşəriyyətin dəmirdən istifadə etməyə başlaması ilə insan həyatının bütün sahələrində—əkinçilikdə, maldarlıqda, ev sənətində və maddi nemətlər bolluğu əldə edilməsində stimul yarandı. İstehsalın inkişafında baş verən kəmiyyət dəyişikliyi hər bir qəbilə və ya ailə üzvünün təklikdə payına düşən gündəlik əməyin qədərini də yüksəldirdi. Cəmiyyət üzvləri arasında sərvət əldə etmək, onu şəxsi mülkiyyətə çevirmək anlayışı məhz bu dövrdə, maldarlıq əkinçilikdən ayrıldıqdan sonra baş verdi. İstehsalatın genişlənməsi ona yeni işçi qüvvəsi cəlb etmək zərurətini irəli sürür. Hərbi toqquşmalar cəmiyyətin yeni işçi qüvvəsinə olan tələbatını ödəyə biləcək mənbə rolunu oynamağa başlayır. Cəmiyyətdə sənətkarlığın əkinçilikdən ayrılmasından ibarət olan ikinci ictimai əmək bölgüsü ölkədə məhsuldar qüvvələrin inkişafı və ictimai təbəqələşməni daha da sürətləndirdi. Bu mərhələdə tikinti sənəti genişlənir. Daş və ya kərpic hasarlar, qüllələr və dişli məhəccərlərlə əhatə edilmiş şəhər tipli daimi yaşayış məskənləri meydana gəlir. Onlar bir tərəfdən xarici təhlükədən mühafizə olunmaq vasitəsi, ikinci bir tərəfdən isə sənətkarlıq və ilk ticarət mərkəzi olmuşlar. İlk mübadilə meydana gəlir. O, sərvətin artmasına təkan verir. Sərvətin ayrı-ayrı şəxslərin əlində cəmləşməsi adət halına düşür. Barbarlığın yüksək pilləsində baş verən ikinci böyük ictimai əmək bölgüsü bu prosesi daha da dərinləşdirdi.

Əkinçilikdən və maldarlıqdan ibarət olan istehsal «ailəsinə» yeni bir müstəqil «üzv»—sənət əlavə edildi. Sənətin əkinçilikdən ayrılıb müstəqil peşəyə çevrilməsi prosesində mübadilə üçün əmtəə istehsalı inkişaf etməyə başlayır. Bununla da cəmiyyətin inkişafında, onun iqtisadi tərəqqisində mühüm rol oynayan yeni peşə sahəsi—ticarət meydana gəlir. İlk sivilizasiya pilləsində ara-sıra baş verən mübadilə daimi xarakter alır. Ticarətin meydana gəlməsi və onun tayfanın daxilində və onun sərhədlərində gedən mübadilə, habelə onun hüdudlarını aşıb, çox-çox uzaqlardakı ticarətdə iştirak etməsi cəmiyyətdə məhsuldar qüvvələrin inkişafını qat-qat artırır, insanların irəliyə hərəkatını sürətləndirir.

Tacirlərlə birlikdə, ticarəti tənzim etmək və onun inkişafında stimul yaratmaq məqsədi güdən metal pul da meydana gəlir.

Barbarlıqla ilk sivilizasiya arasında körpü olan hərbi demokratiya quruluşu dövründə əmtəə və qullardan ibarət olan sərvətlə yanaşı torpaq sərvəti də meydana gəlir. Ticarətin və mübadilənin genişlənməsi ilə əlaqədar toplanan sərvət sayca kiçik olan bir sinfin əlində təmərküzləşir. Bu hal, öz növbəsində, kütlələrin yoxsullaşmasını sürətləndirir. Sivilizasiyanın əsasını, maddi əkslik zəmini üzərində meydana gələn sinfi bərabərsizlik və bir sinfin digər sinif tərəfindən istismar olunması təşkil edir.

Beləliklə, sivilizasiya ictimai inkişafın elə bir pilləsidir ki, məhz bu pillədə ictimai əmək bölgüsü, bunun nəticəsi olaraq, ayrı-ayrı şəxslər arasında mübadilə və onların hər ikisini vahid orqanizmdə birləşdirən əmtəə istehsalı geniş inkişaf edir və onun nəticəsində «tarixə qədərki» cəmiyyətdə—ibtidai-icma quruluşunda çevriliş baş verir. İcma münasibətləri öz köklərindən ayrılır. Qəbilə quruluşu özünün əksinə çevrilir. Tayfa və qəbiləyə aid işlərin azad tənzim edilməsi qaydası, onları zülmə tabe etmək qaydası ilə əvəz olunur.

Qədim Azərbaycanın ərazisində yaşayan əhali kütləsi ilk sivilizasiya mərhələsinə e. ə. II minilliyin sonu I minilliyin başlanğıcında daxil oldu.

İbtidai-icma münasibətlərinin sürətlə pozulması və buna uyğun olaraq xüsusi mülkiyyətə meyl edən qüvvələrin arasıkəsilmədən artması, müharibələrin müntəzəm şəkil alması silah istehsal etmək sənətinin geniş inkişafına zəmin yaratdı. Təbərzin balta, qılınc, xəncər, nizə, ox ucları və s. silahların istehsal edilməsi miqyaslı şəklə düşdü. Metala olan ehtiyac daha da artdı. Bütün bunlar ölkənin ictimai quruluşunda əsaslı dəyişiklik yaratdı. Böyük tayfa ittifaqlarının yaranması başa çatdı. İnsanları zora tabe edən yeni ictimai qurum—dövlət meydana gəldi.

Tarixi araşdırmalar göstərir ki, e. ə. I minillikdə qədim azərbaycanlılar dəmir dövrünə qədəm qoyurlar. Ölkədə məhsuldar qüvvələr geniş vüsət alır. Sənət əkinçilikdən ayrılıb müstəqil peşəyə çevrilir. Şəhər həyatı inkişaf edir. Şəhərlər ticarət və sənətkarlıq mərkəzlərinə çevrilir. Ölkəni yad qüvvələrin basqınından mühafizə edilməsində onların əhəmiyyəti daha da genişlənir. Şəhərlərin ətrafında daşdan və kərpicdən inşa edilən hasarların və b. mühafizə vasitələrinin salınması

miqyaslı şəkil alır. Bütün bu göstəricilər qədim Azərbaycanın ibtidai-icma quruluşundan ilk sivilizasiya mərhələsinə daxil olduğunu söyləməyə imkan verir. Bununla belə, tarixi ədəbiyyatda Azərbaycanda ilk sivilizasiya dövrü tarixi haqqında müxtəlif fikir mövcuddur.

V. M. Sısoyev, Y. A. Paxomov göstərirdilər ki, Azərbaycanda ilk dövlət təşkilatı «Alban qəbilə ittifaqı» kimi meydana gəlmişdir. Bu «ittifaq» e. ə. I minilliyin son qərinələrində təşəkkül tapmışdır.

Y. A. Paxomov və V. M. Sısoyev, həmçinin Azərbaycan ərazisində yaşayan qədim xalqların e. ə. I minilliyin ortalarında iqtisadi təsərrüfat həyatları məsələlərinə ilk dəfə nəzər salmışlar.

Akademik İ. İ. Meşşaninov göstərir ki, e. ə. I minilliyin ortalarında kimerilər və skif tayfaları Zaqafqaziya, o cümlədən Azərbaycan ərazisinə soxuldular və məhz bu dövrdə Midiya dövləti meydana gəldi.

50-ci illərdə tarixi ədəbiyyatda başlıca diqqət Midiya dövləti və onun yaranması məsələsi üzərində cəmləşmişdir. Qeyd edilirdi ki, Midiya dövləti Azərbaycanda ilk və qədim dövlət olmuşdur. Azərbaycan tarixşünaslığına hakim kəsilən bu konsepsiya ilk ümumiləşdirilmiş əsər olan «Azərbaycan tarixinin qısa kursu», «Azərbaycan tarixinin ilk oçerki» kimi kitablarda və Midiya dövləti tarixinin görkəmli tədqiqatçısı tarix elmləri doktoru İqrar Əliyevin Azərbaycanın qədim tarixinə həsr edilmiş əsərlərində öz ifadəsini tapa bildi.

N. V. Minkeviçin «Qədim Azərbaycanda qəbilə quruluşunun pozulması», leninqradlı alim İ. M. Dyakonovun «Midiya ərazisində ibtidai-icma quruluşu» adlı məqaləsində, İqrar Əliyevin Midiya tarixinə dair əsərlərində və həmçinin «Azərbaycanın qədim tarixi oçerki» kitabında və digər tədqiqatlarda Midiya torpağında iqtisadi, ictimai və siyasi inkişafın bəzi mühüm məsələləri nəzərdən keçirilir.

N. V. Minkeviç arxeoloji materiallara və habelə etnoqrafik müşahidələrə əsasən belə bir nəticəyə gəlir ki, tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərində, e. ə. I minillikdə oturaq həyat sürən qədim azərbaycanlılar yüksək inkişaf səviyyəsinə qalxa bilmişlər. E. ə. IX—VIII əsrlərdə Xald çarlarının Zaqafqaziyaya hücumları ərəfəsində pərakəndə həyat sürən qəbilələr daha iri təşkilatlarda birləşirlər. Bu birləşmələrin başında çar dururdu. Bu dövrdə tikilən nəhəng siklop qalaların olması da artıq qəbilələrin iri qəbilə ittifaqlarında birləşmələrini sübut edir. Siklop qalalar Xald çarlığı basqınından qorunmaq məqsədi güdmüşdür. N. V. Minkeviç belə bir nəticəyə gəlir ki, Qədim Azərbaycan ərazisində dövlət e. ə. IX əsrdə təşəkkül tapmışdır.

İ. M. Dyakonov göstərdi ki, e. ə. II minillikdə bu ərazidə ilk böyük ictimai əmək bölgüsü baş verdi. Maldarlıq əkinçilikdən ayrıldı. Bununla da, barbarlıqdan sivilizasiyaya keçməyin ilk mühüm təməli qoyuldu. Maldarlığın əkinçilikdən ayrılması və onların hər birinin müstəqil təsərrüfat vahidi olması ölkədə mübadilənin meydana gəlib inkişaf etməsinə, iqtisadi əlaqələrin müntəzəm hal

almasına, sənətkarlığın genişlənməsinə təkan verdi. Sənətkarlığın intensiv inkişafı onun müstəqil təsərrüfat formasına düşməsinə, əkinçilikdən və maldarlıqdan ayrılmasına gətirib çıxardı. İ. M. Dyakonov qeyd edir ki, e. ə. IX əsrdə yerli əhali metallurgiya və metalişləmə sənətinə dərindən bələd olmuşdur. Bu ərazidə yaşayan etnik qruplar öz qonşuları ilə geniş və sıx iqtisadi və mədəni əlaqələrə girmişlər. İ. M. Dyakonov yazır ki, e. ə. I minilliyin əvvəllərində yerli əhali olan Lüllubeylərə Babil—Assuriya mədəniyyəti və dilinin təsiri çox güclü idi. Bu əlaqənin təsiri nəticəsində, güman ki, burada (Midiya ərazisində) siniflərin təşəkkül tapması, dövlət mexanizminin meydana gəlməsi prosesi başlayır.

Beləliklə, İ. M. Dyakonov Midiya dövlətinin meydana gəlməsinin əsasını qəbilə əlaqələri əsasında deyil, iqtisadi əlaqələr və başlıca olaraq qonşu dövlətlərlə olan iqtisadi və mədəni əlaqələr bazası üzərində meydana gəlməsi haqqında fikir irəli sürdü. Bu fikir mahiyyət etibarı ilə Midiya və Qədim Azərbaycan ərazisində dövlətin təşəkkülü yolları haqqında söylənilən mülahizələrdə irəliyə doğru mühüm addım olsa da, bu fikirlə də tam razılaşmaq olmaz. İ. M. Dyakonovun mülahizəsindən belə çıxır ki, Midiya dövləti quldar dövlət olan Babilistan və Assuriya ilə mədəni əlaqə və dil təsiri nəticəsində meydana gəlmişdir. Belə bir güman dövlətin təşəkkül tapmasında iqtisadiyyatın inkişafına əsaslanan yerli əlaqələrin həlledici rolu üzərinə kölgə salır.

Azərbaycan tarixşünaslığının son araşdırılması göstərir ki, e. ə. II minilliyin sonu və I minilliyin əvvəllərində dəmir dövrünün başlanması, başqa mədəni xalqlarda olduğu kimi, qədim azərbaycanlılarda da ictimai quruluşun tərəqqisini sürətləndirmişdi. Əməyin ictimai bölgüsü genişləndi. Bu ölkədə məhsuldar qüvvələrin daha da inkişaf etməsinə, mübadilə və xüsusi mülkiyyətin təşəkkül tapmasına təkan verdi. İctimai əmək bölgüsünün nəticəsi kimi meydana gələn mübadilə e. ə. II minilliyin sonlarında burada yaşayan yerli əkinçi və maldar tayfalar arasında iqtisadi əlaqələrin canlanmasına, onlarda iri tayfa ittifaqlarında birləşmə meylinin güclənməsinə səbəb oldu. Əmək məhsuldarlığının tərəqqi etməsi ölkədə izafi məhsul istehsal etməyə və beləliklə, məhsul bolluğu yaratmağa imkan yaratdı. Bu, cəmiyyətin daxilində əmlak bərabərsizliyi, insan əməyinin müəyyən bir hissəsinin tayfanın içərisindən çıxan digər şəxs tərəfindən mənilsənilməsi və nəhayət, insanın insan tərəfindən istismar edilməsi üçün iqtisadi zəmin yaradırdı.

Əmək məhsuldarlığının inkişafı ayrı-ayrı ailələrin bir qisminin varlanmasına, digərinin isə yoxsullaşmasına səbəb olurdu. Kollektiv mülkiyyətə əsaslanan ibtidai-icma quruluşu öz yerini xüsusi mülkiyyətə əsaslanan dövlət təsisatına «güzəştə» getməli oldu. Köhnə istehsal münasibəti ilə yeni məhsuldar qüvvələr arasındakı ziddiyyət aradan qalxmağa başladı. Cəmiyyət siniflərə parçalandı. Dövlət meydana gəldi. Qədim Azərbaycan ərazisində ilk dövlət təşkilatı Manna dövləti oldu.

Planetimizdə sinifli cəmiyyət ilk dəfə qədim Şərqdə meydana gəlmişdir. Sinifli cəmiyyətin meydana gəlmə tarixini öyrənmək xüsusi mülkiyyətin, siniflərin və dövlətin meydana çıxması prosesini dərk etmək deməkdir.

Maldarlığın əkinçilikdən ayrılmasından ibarət olan birinci ictimai əmək bölgüsü cəmiyyətdə sinfi təbəqələşmənin ünsürlərini meydana çıxarır. Dövlət mexanizminin elementləri baş qaldırır. Qədim Azərbaycan ərazisində I ictimai əmək bölgüsü Tunc dövründə baş verdi. Tayfalar arasında iqtisadi əlaqələr genişləndi. Mübadilə meydana gəldi. E.ə. III minilliyin sonu II minilliyin əvvəlində Cənubi Azərbaycan iqtisadi inkişafın səviyyəsinə görə başqa rayonlardan fərqlənirdi. İqtisadi əlaqələrin genişlənməsi maddi nemət bolluğu yaranmasına təkan verdi. Qəbilə və tayfa üzrə mövcud olan əvvəlki bölgünün ictimai dayağı sarsıldı. Dövlətin yaranması yolunda ilk addım olan qəbilə əlaqələrinin qırılması prosesi baş verdi. Urmiya gölü hövzəsində ilk sinifli cəmiyyətin elementləri formalaşmağa başladı. Bu dövrdə sənətkarlığın inkişafı da xeyli genişləndi. Sonuncunun intensiv inkişafı qəbilə münasibətlərinin pozulması prosesini daha da sürətləndirdi. Bu məsələlər haqqında məlumat verən Assuriya və Urartu mixi yazıları Urmiya gölü hövzəsində bir çox tayfa ittifaqları yaşadıqlarını göstərirlər. Bu tayfalar içərisində mannalılar iqtisadi, ictimai, sosial və mədəni inkişafın səviyyəsinə görə başqalarından fərqlənirdilər. Mannalılar haqqında ilk məlumatı Assuriya daşüstü yazılar verirlər.

Mannanın adı birinci dəfə Assuriya çarı II Salanansarın hərbi yürüşünə dair yazılarda, e. ə. 844-cü ildə çəkilir. Tarixi ədəbiyyatda isə ilk dəfə Mannaya diqqət Avropa tarixşünaslığında yetirilmişdir. Almaniya tarixçisi S. Belk «Das Reich dic Mannaer» adlı əsərini Manna tarixinə həsr etmişdir. Q. A. Milikişvili «Вестн. древн. истории» jur. № 1-də (1949-cu il) çap etdirdiyi «Manna çarlığı tarixinin bəzi məsələləri» adlı məqaləsində Mannanın siyasi tarixinə ilk dəfə olaraq nəzər salır. O, həmçinin 1954-cü ildə çap etdirdiyi «Nairi-urartu» adlı monoqrafiyasında Urmiya gölü hövzəsində yaşayan əhalinin etnik tərkibinə, o cümlədən mannalıların siyasi tarixi məsələlərinə diqqət yetirir. Assuriya və Urartu mixi yazılarının verdikləri məlumatların araşdırılmasına əsaslanan Q. A. Milikişvili güman edir ki, manna sözü, Urmiya gölü ətrafında yaşayan tayfalardan birinin adından götürülmüşdür. Tarixçinin fikrincə manna anlayışı Urmiya gölü hövzəsi torpaqları manna çarlığında birləşdirildikdən sonra, e. ə. IX əsrdən etibarən bütün əraziyə aid edilmişdir. Manna dövlətinin meydana gəlməsi, onun xarakteri, idarəçilik sistemi məsələsi Q. A. Milikişvilinin əsərlərində ilk dəfə olaraq araşdırılır. Qeyd edilir ki, dövlətin əhatə etdiyi ərazi ayrı-ayrı vilayətlərə ayrılmışdır. Onların hər biri çarın təyin etdiyi canişin tərəfindən idarə edilirdi. Canişinlərin bəziləri irsi prinsipinə əsasən təyin edilirdilər.

Manna dövlət başçıları (çar) suveren hakim idilər. Q. A. Milikişvili siyasi tarixlə yanaşı sinfi mübarizə məsələsinə də nəzər salır. Q. Milikişvili Manna çarı Axşerinin hakimiyyətliyi dövründə mannalıların çar hakimiyyətinə qarşı çıxan

üsyanına nəzər salır, onun başvermə səbəbini, hərəkətverici qüvvəsinin sinfi tərkibini müəyyənləşdirməyə səy göstərir. O güman edir ki, üsyanın baş verməsinin başlıca səbəbi Manna çarı Axşerinin skif və kimmerilərlə Assuriyaya qarşı ittifaqının güclənməsi və bunun əsasında skiflərin və kimmirilərin Manna torpaqlarında daha geniş məskunlaşmaları oldu. İ. Əliyev hesab edir ki, Axşerə qarşı olan üsyana səbəb çarın müstəbid idarəçilik sistemi olmuşdur. İ. M. Dyakonov güman edir ki, üsyan hakim sinfin özbaşınalığına qarşı çevrilmiş xalq üsyanı olmuşdur.

Çar Axşerin hakimiyyətliyi dövründə baş verən üsyanın səbəbindən danışarkən güman etmək olar ki, üsyana səbəb çarın xarici siyasət sahəsində torpaq sahiblərinin mənafeyinə zidd hərəkətləri oldu. Üsyan Assuriya çarı Aşşurbanapalın (669—627) Manna çarı Axşeri məğlub etməsi ilə başladı. Mannalıların çar hakimiyyətinə qarşı baş verən üsyanı haqqında fikir ayrılığı olmasına baxmayaraq, bu məsələyə tarixşünaslıqda diqqət yetirilməsi elmi cəhətdən əhəmiyyətlidir.

Manna bir müstəqil problem kimi İ. M. Dyakonovun «Midiya tarixi» adlı monoqrafiyasında daha geniş təsvir edilir. Assuriya mixi yazılarının məlumatlarına əsaslanan İ. M. Dyakonov Manna dövlətinin meydana gəlməsi və inkişafı məsələlərini və onun Midiya dövləti tərkibinə daxil edildikdən sonra, e. ə. VII—VI əsrlərdə Midiya cəmiyyətinin inkişafında oynadığı rol və tutduğu tarixi mövqeyini ətraflı nəzərdən keçirir. Monoqrafiyada Assuriya hökmdarlarının Urmiya gölü ətrafına hərbi basqınları və onların nəticələri geniş təhlil edilir. İ. M. Dyakonov Urmiya gölü hövzəsi ərazisində yaşayan tayfaların — Lullubeylərin, kutilərin, kassitlərin, xurritlərin, elamitlərin və b. tayfaların etnik mədəniyyətlərinin təhlilini verir və elmi müşahidələrinin nəticələrinə arxalanaraq güman edir ki, mannalılar Lullubeylərin və kutilərin varisləri olmuşlar. Yazılı mənbələrin və arxeoloji materialların müqayisəli tədqiqi nəticəleripə əsaslanan İ. M. Dyakonov göstərir ki, e. ə. IX—VII əsrlərdə Urmiya gölü hövzəsində ictimai quruluş ilkin sinifli cəmiyyət və dövlət təsisatından ibarət olmuşdur.

Manna dövlətinin siyasi idarəçilik sistemi məsələlərini ətraflı təhlil edən İ. Dyakonov onu ilkin quldar dövlətlər tipinə daxil edir. O göstərir ki, bu dövlət ibtidai-icma quruluşu qalıqları geniş mühafizə edilən, patriarxal və ev köləliyi çərçivəsindən kənara çıxmayan quldar dövləti idi. Dövlətin başında çar dururdu. Lakin başqa klassik quldar dövlət başçılarından fərqli olaraq onun hüquqları qəbilə quruluşu qalığı olan ağsaqqallar şurası tərəfindən məhdud edilirdi.

İ. M. Dyakonov əsərlərində gələcək Midiya dövləti ərazisinə daxil olan tayfaların siyasi tarixinin işıqlandırılmasına üstünlük verməklə yanaşı, ölkənin iqtisadi inkişafına da diqqət yetirir. O göstərir ki, e. ə. IX əsrdə Urmiya gölü ətrafı torpaqlarında iqtisadi inkişafın səviyyəsi xeyli yüksək olmuşdur. Burada yaşayan tayfalar qan qohumluğu prinsipi əsasında yox, ərazi bölgüsü üzrə məskunlaşmağa başlamışlar. Bu, dövlət təsisatının meydana gəlməyini əks etdirir. E. ə. I minilliyin əvvəllərində Manna ərazisində II ictimai əmək bölgüsü baş verdi. Sənətkarlıq

əkinçilikdən ayrılmağa başladı. Sənətkarlığın əkinçilikdən ayrılması ölkədə mübadilənin genişlənməsinə, iqtisadi əlaqələrin müntəzəm şəklə düşməsinə, maddi-nemət bolluğunun dinamik inkişafına və sonuncunun ayrı-ayrı şəxslərin əlində mərkəzləşməyə başlaması cəmiyyətdə iqtisadi və sosial ziddiyyətlərin baş qaldırmasını sürətləndirdi. Bu ziddiyyətləri tənzim edə biləcək qüvvə isə dövlətdir. Deməli e. ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycan ərazisində dövlətin meydana gəlməsi tarixən zəruri fakt oldu.

Manna torpağının iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdən biri olması quldar dövlət olan Assuriya və Urartu padşahlığının diqqətini özünə daha çox cəlb edir. Onların Manna çarlığı üzərinə hərbi basqınları daimi xarakter alır. Bu barədə İ.M.Dyakonovun əsərlərində və birinci növbədə «Midiya tarixi» monoqrafiyasında geniş danışılır. Tarixçinin göstərdiyinə görə nə Assuriya və nə də Urartu dövlətləri Manna çarlığını özlərinə tabe edə bilmədilər.

E. ə. VIII əsrin 30—20-ci illərində Manna dövlətinin hökmranlığı Urmiya gölünün cənub sahili hövzəsinə, Qızıl-uzun çayının cənubundakı rayonlarla birgə, bu çayın hövzəsinin böyük bir hissəsinə və eləcə də Urmiya gölünün Şərq sahilinə yayıldı. E. ə. VIII əsrin sonlarında, çar İranzunun 716-cı ildə vəfatından sonra Manna daxilində bir sıra təfriqəçi qüvvələrin mərkəzi dövlət hakimiyyətinə tabe olmaqdan boyun qaçırmaq səyləri xeyli genişləndi. Belə bir vəziyyət ölkə daxilində ictimai ziddiyyəti daha da dərinləşdirdi. Dövlət hakimiyyətindən narazı qüvvələr qat-qat artdı.. Assuriya və Urartu dövlətlərinin müvəqqəti dayandırılan basqınları bərpa edilməyə başladı. Daxildə də düşmən qüvvələrin üz-üzə mübarizəsi və xaricdən endirilən zərbələrin təsiri altında Manna dövləti zəiflədi.

Manna dövlətinin daxili vəziyyəti və xarici beynəlxalq aləmdəki vəziyyətinə aid materialları təhlil edən İ. Əliyev belə bir nəticəyə gəlir ki, Manna çarlığı e. ə. VIII əsrin 20-ci illərindən etibarən iflasa uğrayır. E. ə. 716-cı ildə Assuriya çarı II Sarqonun Manna dövləti ilə olan müttəfiqlik münasibətini pozub Urmiya gölü hövzəsi torpağına basqını və Manna dövlətinin paytaxtı İzirtu şəhərini tar-mar edib yandırması bu prosesi daha da sürətləndirdi. E. ə. VII əsrin 70-ci illərində Midiya dövlətinin formalaşması başa çatdı. E. ə. VII əsrin sonunda (615-ci ildə) Manna çarlığı süqut etdi. Onun ərazisi bu dövrdə qədim Şərqin ən güclü dövlətlərindən biri olan Midiya dövlətinin tərkibinə daxil edildi. Manna Midiya dövlətinin sonrakı ictimai və siyasi inkişafında, onun iqtisadi tərəqqisində mühüm rol oynamışdı. Manna midiyalılar tərəfindən işğal edilən vilayətlər içərisində ən çox tərəqqi edən ölkə olmuşdur. E. ə. IX əsrin əvvəllərində burada sənətkarlığın əkinçilikdən ayrılması və II ictimai əmək bölgüsünün baş verməsi bu ərazidə iqtisadi inkişafın iri addımlarla tərəqqi etməsinə, sinfi təbəqələşmənin genişlənməsinə və yuxarıda deyildiyi kimi, Yaxın Şərqdə az vaxt içərisində ad-san qazanmasına imkan verdi. Yazılı mənbələrin və b. tarixi sənədlərin verdikləri məlumatlar göstərir ki, Manna dövləti yaranana qədər Urmiya gölü və ona yaxın olan ərazidə ictimai-siyasi quruluş ibtidai-icma quruluşu olmuşdur. Eyni zamanda

son tarixi tədqiqatların verdiyi məlumatlardan aydın olur ki, bu regionda ibtidai-icma quruluşu ilə yanaşı bəzi xırda dövlət birləşmələri mövcud olmuşdur.

E. ə. IX əsrin əvvəllərində Assuriya padşahlığının hərbi basqınlarının qarşısını saxlamaq məqsədilə zamualılar öz məskənlərinin ətrafında geniş tikinti işləri aparır, müdafiə xətləri yaradır, qala-şəhər salırlar. Assuriya hərbçilərinin buradan ələ keçirdikləri sənətkarlıq məmulatlarından ibarət olan qənimət ölkədə istehsal qüvvəsinin, iqtisadi həyatın, sənətkarlığın, şəhər həyatının yüksək inkişaf səviyyəsində olduğunu göstərir. Zamualılarda yerli zəmin üzərində dəmir emal edən «sənət növünün» geniş inkişaf etməsi buna parlaq sübutdur. Burada zərgərlik sənəti yüksək səviyyədə olub, qonşu ölkələrdə ad-san qazanmışdı. Ölkədə iqtisadiyyatın tərəqqisi, sənətkarlığın çoxsahəli olub inkişaf etməsi ölkənin müdafiə qüdrətinin də güclü olduğuna sübutdur. Bu dəlillər Zamuada ilk dövlət təşkilatının meydana gəlməsi üçün iqtisadi və siyasi zəmin olduğunu göstərir. Zamuada meydana gələn siyasi birliyin başında «çar» adı daşıyan hakim dururdu. Bu siyasi quruluş daxili mahiyyətinə görə erkən quldarlıq quruluşu idi. E. ə. X əsrin sonu, IX əsrin əvvəllərində, Urmiya gölünün qərbində qəbilə quruluşu öz dövrünü başa vurur. Onun yerini dövlət tutur. Urmiya gölünün qərbində, Zamuanın şimali-qərb sərhəddində meydana gələn ikinci güclü siyasi birləşmə Gilzan «çarlığı» olmuşdur.

Manna dövlətinin yaranmasının başa çatması ərəfəsində, e. ə. I minilliyin əvvəllərində Azərbaycanın cənub torpaqlarında bir sıra müstəqil və özünü idarə etməyə qadir olan hərbi-siyasi birləşmələr də meydana gəlmişdir. Onlar ölkənin iqtisadi inkişafını təmin etməyə qadir olan ictimai quruluş olmuşlar. Son tədqiqlərdə bu regionda ölkənin iqtisadi, ictimai-siyasi və mədəni tərəqqisində mühüm rol oynayan, memarlıq sənəti cəhətindən inkişaf etmiş, əhali sıxlığının genişliyi ilə fərqlənən qala-şəhərlərin olduğu haqqında da maraqlı məlumatlar verilir. Ölkənin qonşu quldar dövlətlərin basqınından müdafiə olunmasında ordu ilə birlikdə şəhər əhalisi də iştirak edirdi. Onlar, əsasən, tikinti işlərinə bələd olan sənətkarlardan ibarət idilər. İzirtu və b. şəhərlərin sənətkarlıq mərkəzləri kimi fərqlənmələri, onların ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynadıqları haqqındakı məlumatlar ölkədə istehsal münasibətlərinin yüksək olduğunu, istehsal qüvvələrinin inkişaf etdiyini sübut edir. Bu faktlar Manna dövlətinin yaranmasında həlledici rol oynamışlar.

Azərbaycanlı tarixçi S. Qaşqay elmi araşdırmalarına əsasən belə bir qənaətə gəlir ki, Manna dövlətinin meydana gəlməsi, təxminən e. ə. 843-cü ildə başa çatmışdı. Tarixi ədəbiyyatda indiyədək Manna dövlətinin meydana gəlməsinin konkret tarixinin göstərilməməsi nəzərə alınsa, qeyd edilən bu fakt mühüm əhəmiyyət kəsb edir. S. Qaşqay hesab edir ki, Manna çarının hüquqları qeyri-məhdud olmuşdur. Lakin bu fikir tutarlı məxəzlərlə sübut edilmir. Mannada da, başqa erkən quldar dövlətlərdə olduğu kimi, dövlət başçısının hüquqları qəbilə başçılarından ibarət olan ağsaqqallar şurası vasitəsilə məhdud edilirdi. Bununla

belə, Manna dövlət başçıları suveren hakim olmuşlar. Urmiya gölü hövzəsində və Naxçıvanın ərazisindən son vaxtlar üzə çıxarılan arxeoloji tapıntıların müqayisəli öyrənilməsi göstərir ki, e. ə. VIII əsrin əvvəllərində Manna dövlətinin ərazisi Araz çayının Şimal axınına qədər uzanmışdır.

Yazılı mənbələrin məhdud və ziddiyyətli olmalarına baxmayaraq Manna dövləti ərazisində istehsalın səviyyəsi və təsərrüfatın formaları haqqında təsəvvür əldə etmək mümkündür. Tarixi araşdırmalar sübut edir ki, Urmiya gölü ətrafında yaşayan qədim tayfaların əsas peşəsi oturaq əkinçilik və maldarlıq olmuşdur. Torpağın münbit, məhsuldar olması, su ehtiyatının çoxluğu, geniş otlaqlar, mülayim iqlim burada əkinçilik və maldarlıq təsərrüfatlarının geniş miqyas almasına imkan vermişdir. Assuriyanın hakim dairələrinin yerli əhalinin üzərinə qoyulan verginin taxıl, mal-qara, metal, metal məmulatlarından toplamaları burada əkinçiliyin və maldarlığın inkişaf etdiyini, metal ehtiyatının çoxluğunu və metaldan cürbəcür əşyalar, istehsal alətləri və s. hazırlayan mahir ustaların olduğunu sübut edir.

Həsənlütəpədən aşkar edilən maddi-mədəniyyət abidələri göstərir ki, burada qədimdə kənd təsərrüfat texnikası yüksək olmuşdur. Dəmir mədəniyyəti xalqın məişətində geniş yer tutmuşdur. Torpağın şumlanmasında xışdan, dəmir toxadan, taxılın biçilməsində dəmirdən hazırlanmış oraqdan və başqa istehsal alətlərindən, taxılın daşınmasında isə ikitəkərli və dördtəkərli arabalardan istifadə edilmişdir. Bu faktlar bir daha sübut edir ki, mannalılar e. ə. II minilliyin sonu və I minilliyin başlanğıcında barbarlığın yüksək pilləsində yaşamışlar. Onlar ibtidai-icma quruluşundan sivilizasiyaya yerli zəmin əsasında gəlib çatmışlar. Mannalılar buğda, arpa, darı, vələmir və b. dənli bitkilər yetişdirmiş və onları xüsusi anbarlarda saxlamışlar. Ölkədə yüksək texnikaya malik olan süni suvarma sistemi geniş yer tutmuşdur. Suvarma sistemində saxsıdan hazırlanmış xüsusi biçimli borulardan istifadə edilirdi.

Mannalılar üzümçülük, bağçılıq və bostançılıq təsərrüfatlarına, onların sirlərinə də bələd olmuşlar. Mənbələr Manna ərazisindəki şəhərlərin hər birində şərab anbarlarının olmasını xəbər verirlər. Şərab saxsı küplərdə saxlanılırdı. Bəzi küplər 240 və daha çox litr şərab tuturdu. Ölkədə, yuxarıda deyildiyi kimi, əkinçilikdən sonra ikinci aparıcı peşə maldarlıq olmuşdur. Burada maldarlıq üçün təbii əlverişli şəraitin, zəngin və geniş otlaqların və örüşlərin olması maldar tayfalara xırdabuynuzlu mal-qara, cins at ilxısı saxlamağa imkan vermişdir.

Mannalılarda atçılıq təsərrüfatına xüsusi diqqət yetirilmişdir. Maldarlığın yarıköçəri xarakter daşıması və bu prosesdə atdan həm minik və həm də dartı vasitəsi, hərbi yürüşlərdə isə süvari qüvvə kimi istifadə edilməsi atçılığın inkişafını zəruri edirdi.

Mannada sənətkarlıq peşəsi də yüksək inkişaf etmişdi. Yuxarıda deyildiyi kimi, qədim Azərbaycan ərazisində ilk dəfə məhz burada, e. ə. I minilliyin əvvəlində sənətkarlıq əkinçilikdən ayrıldı və müstəqil təsərrüfat sahəsi oldu.

Manna ərazisi mis, gümüş, qızıl, dəmir, qurğuşun və s. yataqları ilə zəngin idi. E. ə. VIII əsrdə Manna sənətkarlarının qızıldan hazırladıqları cam zərgərlik sənətinin yüksək səviyyəyə qalxdığını, sənətkarlar arasında peşəyə görə əmək bölgüsünün olduğunu göstərir. Burada metal emalı geniş yayılan peşə idi. Urmiya gölünün cənubunda və qərbində, xüsusən Göytəpə və Ziviyədə aparılan arxeoloji qazıntı işləri nəticəsində üzə çıxarılan tapıntılar Manna ustalarının tuncdan hazırladıqları qablar, qızıl və gümüşdən düzəltdikləri bəzək şeylərinin bədii gözəlliyi, mannalı ustaların mahir sənətkar olduqlarını və burada metal emalı sənətinin yüksək inkişaf etdiyini göstərir. Mannalı ustaların səliqəliyi, bədii ustalığı bütün Qabaq Şərqdə bəlli olmuşdur. Assuriya mənbələri xəbər verirlər ki, Manna ustalarının tikinti işlərində qazandıqları təcrübədən Assuriyada geniş istifadə edilmişdir. Mannanın sənətkarlıq mədəniyyətinin qonşu xalqların və dövlətlərin sənətkarlıq məmulatlarında əks-səda tapması ölkənin bütün başqa Şərq ölkələri ilə yaxın iqtisadi-ticarət əlaqələrində iştirak etməsini də sübut edir. Qərblə Şərqi və bütövlükdə Şərq ölkələrini bir-biri ilə bağlayan karvan və su yollarının Azərbaycanın ərazisindən keçməsi iqtisadi əlaqələrin miqyaslı olmasına imkan vermişdir.

Manna ustalarının dəmirdən və tuncdan hazırladıqları silahlar yüngül, davamlı və orijinal olmuşlar. Onların hazırladıqları nizə, aypara formalı xəncər, qılınc və b. silah növləri naxışlarının quruluşuna, həkk olunan rəsmlərin orijinallığına, zahiri görüşünə və b. əlamətlərinə görə Şərqdə çox geniş yayılan skif silahlarından fərqlənmişlər. Burada zərgərlik və dulusçuluq sənəti daha geniş yayılan sənət növü olmuşdur. Saxsı qabların emal edilməsində xüsusi kürələrdən istifadə edilməsi dulusçuluq texnikasının yüksək olduğunu göstərir.

Mannalı sənətkarlar toxuculuq peşəsinə də bələd olmuşlar. E. ə. IX əsrdə Assuriya padşahları vergiləri yun və yundan toxunulmuş məmulatlardan toplamaları buna bir daha sübutdur.

Eramızdan əvvəlki II minilliyin sonlarından etibarən bu ərazidə məhsuldar qüvvələrin inkişafı, ibtidai-icma quruluşunun dağılması, yerli tayfaların ərazi bölgüsü üzrə məskunlaşması və xüsusi mülkiyyətin ilk izlərinin meydana çıxması zəmini əsasında cəmiyyətin siniflərə bölünməsi başlandı. Ölkədə torpağa, sənətkarlıq karxanalarına və ev qullarına sahib olan quldarlar sinfi meydana gəldi. Məhkum çoxluğu, hakim azlığın tabeliyində saxlayan mexanizm - dövlət təşəkkül tapdı. E.ə. I minilliyin əvvəllərində dövlət təşkilatının formalaşmasını sürətləndirdi. Qısa bir zamanda Şərqin güclü dövlətlərindən biri olan Manna çarlığı Urmiya gölü ətrafında pərakəndə halda yaşayan tayfaları öz ətrafında birləşdirdi və Yaxın Şərqin əzəmətli dövləti oldu.

E. ə. VIII əsrin əvvəllərindən etibarən Manna padşahlığının başında duran çarların hakimiyyəti irsi xarakter daşımışdır.

Çar ölkəni əyanların vasitəsi ilə idarə edirdi.

Manna dövləti, inzibati cəhətdən, vilayətlərə və mahallara bölünmüşdür. Onlar çarın təyin etdiyi canişinlər tərəfindən idarə edilirdi.

E. ə. IX əsrin əvvəllərində meydana gələn Manna dövləti erkən quldar dövlət olmaqla iki yüz ildən artıq hökmranlıq etmiş, Assuriya quldar dövlətin basqınının qarşısını almaqda mühüm rol oynamışdır.

E. ə. I minilliyin əvvəllərindən başlayaraq Manna etnosu həm dil, həm də etnotoponim cəhətdən, burada əvvəllər yaşayan etnoslardan fərqlənməyə başlayır. Atçılıq təsərrüfatının geniş vüsət alması qədim Azərbaycan ərazisində meydana gələn dövlətlərdə süvari hərbi qüvvənin güclü olması ilə əlaqədar olmuşdur. Ayrıca süvari qoşunun olması isə hərb sənətinin inkişafında mühüm addım idi. Tarixi ədəbiyyatda mannalılarda atçılıq təsərrüfatı tarixi ilə əlaqədar söylənilən bəzi fikir ilə razılaşmayanlar da var. S. Qaşqay yazır ki, e. ə. I minilliyin əvvəllərindən başlayaraq iran dilli tayfaların Cənubi Azərbaycan ərazisində görünmələri ilə əlaqədar olaraq burada hər şey dəyişdi. Bu tayfaların ölkənin tarixi inkişafında rolu «daha əhəmiyyətli» olmuşdur. O, daha sonra yazır ki, adı çəkilən tayfaların buraya gəlmələri ilə yeni təsərrüfat növü—atçılıq meydana gəlir.

Azərbaycanda maldarlığın inkişafı tarixinin öyrənilməsində T. Bünyadovun, F. Mahmudovun, Q. Aslanovun, R. Səttarzadənin və b. əsərlərində atçılıq təsərrüfatının meydana gəlməsi və inkişafı tarixi ətraflı təsvir edilir. T. Bünyadov arxeoloji materiallara və etnoqrafik müşahidələrə əsaslanaraq göstərir ki, Azərbaycan ərazisində «atçılığın tarixi təxminən eramızdan əvvəlki II minilliyin ikinci yarısına aid edilir... çox ehtimal ki, bu ərazi atın ilk dəfə öyrənilən vətənlərindən biridir».

Qayaüstü rəsmlərin tədqiqinə əsaslanan İ. M. Cəfərzadə Azərbaycan ərazisində atçılıqla tanışlığı daha qədim zamanlara — e. ə. V—III minilliklərə aid edir.

Beləliklə, arxeoloji məlumatların öyrənilməsinin nəticələrindən aydın olur ki, eramızdan əvvəlki I minilliyin ilk əsrlərindən atçılıq geniş inkişaf etmiş təsərrüfat növlərindən biri olmuşdur. Bu barədə Assuriya mixi yazıları ətraflı məlumat verirlər. Tarixi məlumatların araşdırılmasından aydın olur ki, bütün Azərbaycan ərazisində, o cümlədən Mannada atçılıq təsərrüfatı bəzi tarixçilərin güman etdikləri kimi, miqrasiya yolu ilə deyil, məhz yerli zəmin üzərində meydana gəlib, inkişaf etmişdir. R. X. Səttarzadə göstərir ki, müasir Azərbaycan atları ən qədim köklərinə görə Midiya atları ailəsinə daxildir. Teymur Bünyadov yazır ki, «zənnimizcə, Qafqazın ən qədim atlarından biri sayılan Qarabağ at cinsini, hətta Midiya atlarının nəsli hesab etmək olar. Qarabağ atlarının, bəzən Asiya at cinslərinin əcdadı hesab edilməsi də dəyərli fikirdir. Qarabağ at cinsi isə hələ e. ə. I minillikdə bəlli olmuşdu. O, qədim Azərbaycan atlarının bir növüdür. Bu faktlar S. Qaşqayın Manna ərazisində atçılıq təsərrüfatının irandilli tayfaların İranın şimal-qərbində məskunlaşmaları ilə başlaması haqqında fikrini açıq-aşkar təkzib edir.

Tarixi ədəbiyyatda irandilli tayfaların İranın şimal-qərb torpaqlarında və eləcə də Urmiya gölü ətrafında və Ermənistanın dağətəyi vilayətlərində görünmələri e. ə. IX—VIII əsrlərə aid edilir. Beləliklə, Azərbaycanda, o cümlədən onun cənubunda—Urmiya gölü sahillərində atçılıq irandilli tayfaların burada görünmələrindən çox-çox əvvəllər yerli əhaliyə bəlli olmuşdur.

E. ə. IX—VIII əsrlərdə irandilli tayfalar Manna ərazisinin içərilərinə girə bilmədilər. Onlar Urmiya gölünün cənub şərqində məskunlaşmalı oldular. Bu regionda göründükləri ilk dövrlərdə yerli qəbilələrə də təsir göstərə bilmədilər. E. ə. IX əsrin ortalarından Midiya dövləti yaranana qədər Urmiya gölü hövzəsində yaşayan tayfalar üzərində Mannanın təsiri isə çox güclü olmuşdur.

Midiya tarixi haqqında ilk məlumat verən Heredot olmuşdur. Midiya tarixini antik dövrdə və sonrakı əsrlərdə tədqiq edənlər məhz «tarixin atası» kimi şöhrət tapan Heredotun əsərləri ilə bəhrələnmiş və onların yazılarının mayasını Heredotun verdiyi məlumatlar təşkil etmişdir. Antik müəlliflərdən Heredotla yanaşı Polibi, sisiliyalı Diodor, Plutarx, Strabon, Ammian Martselin və bir çox başqa tarixçilər və coğrafiyaşünaslar da Midiya tarixinə dair maraqlı məlumat qoyub getmişlər. Onların fikirləri ziddiyyətli olsa da, Midiya tarixinin tədqiq edilməsinin mənbəşünaslıq əsasını təşkil edir.

Heredot göstərir ki, midiyalılar 6 tayfadan—buslardan, paretakenlərdən, struxatlardan, arizantlardan və maqlardan ibarət idi. O, hər bir tayfanın sakin olduğu ərazinin yerini də qeyd edir. Bu ölkənin öyrənilməsində Assuriya daşüstü yazıları və Assuriya—Babil mənbələri də əhəmiyyətli məlumat verirlər.

Sovet tarixşünaslığında Midiya tarixi məsələlərinə ilk nəzər salan alim akad. B. A. Turayev olmuşdur. O, 1935-ci ildə nəşr etdirdiyi 2 cildlik «Qədim Şərq tarixi» adlı kitabında mövcud ədəbiyyata, birinci növbədə antik tarixçilərin (yunan və Roma tarixçilərinin) yazılarının, habelə Assuriya—Babil məxəzlərinin və b. yazılı abidələrin verdiyi məlumatlara əsasən diqqət yetirmişdir. 40-cı illərin əvvəllərində Midiya tarixinin tədqiqinə dair görülən işlərin sahəsi daha da genişlənir. Görkəmli şərqşünas akad. V. V. Struve problemin mənbəşünaslıq bazasını daha da zənginləşdirdi. V. V. Struvenin 1941-ci ildə çapdan çıxan «Qədim Şərq tarixi» monoqrafiyasında Midiya tarixi məsələlərinə geniş yer verilir. Monoqrafiyada midiyalılar, onların etnogenezi məsələlərinə dair maraqlı fikir söylənilir.

Midiya dövləti tarixinin mənbəşünaslıq əsasının genişlənməsində Q. A. Milikişvilinin xidməti çox olmuşdur. Urartu daşüstü yazıların oxunulması və onun rus dilinə tərcümə edilməsi bilavasitə onun xidmətidir. Bu yazıda Midiya dövlətinin tarixinə aid başqa yerli abidələrdə az təsadüf edilən məlumatlar vardır. Leninqradlı alim İ. M. Dyakonov bu mövzu ilə bağlı olan bir çox məsələləri tədqiq etmiş və Midiya tarixi salnaməsinə maraqlı səhifələr gətirmişdir.

İ. M. Dyakonovun 1956-cı ildə nəşr olunan monoqrafiyasında Midiya ərazisində ibtidai-icma quruluşunun meydana gəlməsi, inkişafı və pozulması

məsələlərindən, bu prosesin sonrakı gedişinin nəticəsi kimi meydana gələn Midiya dövlətinin təşəkkül və inkişafı tarixindən danışılır. Monoqrafiya müxtəlif mərkəzlərdəki arxivlərdən üzə çıxarılıb sistemə salınmış zəngin mənbəşünaslıq bazasına malikdir. Kitabda faktik materiallara, başlıca olaraq antik tarixçilərin məlumatlarına əsasən Midiya ərazisində ilk sinifli cəmiyyətin təşəkkül tapması məsələsinə xüsusi diqqət yetirilir. İ. M. Dyakonovun «Qədim dövrdən e. ə. IV əsrin sonlarına qədər Midiya tarixi» monoqrafiyasında Midiya cəmiyyətinin güclü dövlət olması, onun sosial-iqtisadi və mədəni həyat tərzi haqqında maraqlı məlumat verilir. Əsərdə Midiya—Atropaten tarixi geniş təsvir edilir.

Midiya dövlətinin meydana gəlməsi və onun yolları məsələsini tədqiq edən İ. M. Dyakonov Azərbaycan xalqının etnogenezi problemi barəsində də bəzi mülahizələr söyləyir. İ. M. Dyakonov bir sıra yazılı mənbələrin və dilçilik materiallarının təhlilinə əsasən belə bir qənaətə gəlir ki, qədim Midiya və Qafqaz Albaniyası ərazisinin sakinləri eyni kökdən törəyən xalq olmuşlar. Bu fikir sanballı və tutarlı tarixi dəlillərə əsaslanmasa da, belə bir mülahizənin söylənməsi, sonralar tarixçilər, dilçilər və ictimai elmlərin digər nümayəndələrində məsələnin tədqiqinə marağın baş qaldırmasına səbəb olmuşdur.

Akademik V. V. Struve yazır: «İqrar Əliyevin qiymətli əsəri tarix elmində İranın qərb əyalətlərində, əsasən, sonralar Midiya dövlətinin təşəkkül tapdığı torpaqlarda məskən salmış tayfa və xalqların ən qədim zamanlardan b. e. ə. VI əsrin son rübünə qədər tarixin taleyinin tədqiqinə həsr edilən ilk samballı əsərlərdən biridir. Müəllif əsas diqqətini Midiya tarixi problemlərinin üzərində cəmləşdirmişdir.

Midiya tarixinə dair müxtəlif dillərdə yazılan qərb mənbələri ilə yanaşı, qədim müəlliflərin məlumatlarına da mükəmməl bələd olan İ. Əliyev məxəzləri iki qrupa—maddi mədəniyyət abidələri və yazılı mənbələrə bölmüşdür. Hər iki qrup mənbədən qarşılıqlı və müqayisəli şəkildə istifadə edilməsi ona Midiya tarixinə dair bir sıra orijinal fikir söyləməyə imkan vermişdir. Akademik V. V. Struve göstərir ki, İ. Əliyevin Midiya tarixinə dair bəzi fikirləri tarixşünaslıqda qəbul edilmiş anlayışa, o cümlədən mənim fikrimə zidd olsa da, onun konsepsiyasının tutarlı tarixi dəlillərlə əsaslandırılması mühüm elmi maraq oyadır və müəllifin fikrində orijinal mülahizələrin olduğunu göstərir.

Jak de Morqan vaxtı ilə belə bir mülahizə söyləmişdir ki, İranın qərbində, əsasən, Midiya ərazisində yaşayış üçün əlverişli olmayan sərt iqlim şəraiti burada qədim insanların məskunlaşmasına imkan verməmişdir. Paleolit dövrü insanları burada yaşamamışdır. İnsanlar buraya kənardan gəlmişdir.

Daş dövrü abidələrinin sinxron tədqiqinə əsaslanan və Jak de Morqanın fikri ilə razılaşmayan İ. Əliyev belə bir nəticəyə gəlir ki, Orta Asiya və Yaxın Şərqin digər ərazilərində olduğu kimi, buraya da insanlar heç də kənardan gəlməmişdir. Onlar burada yerli zəmin üzərində təşəkkül tapmışlar. Bu fikri ilə İ. Əliyev son

vaxtlara qədər tarixşünaslıqda qəbul edilmiş Jak de Morqanın mülahizələrini elmi əsaslar üzrə alt-üst etdi və tarixşünaslıqda fikir aydınlığı yaratdı.

60-cı illərdən etibarən Manna, Midiya, Atropaten və Qafqaz Albaniyası tarixini tədqiq edənlərdən Y. Yusifov, S. Qaşqay, K. Əliyev, F. Osmanov, İ. Babayev, C. Xəlilov və başqa tarixçilərin əsərlərində Azərbaycanın antik dövrü tarixinin bir sıra aspektləri haqqında yeni fikirlər hasil oldu. Problemin mənbəşünaslıq bazası daha da zənginləşdi. Y. B. Yusifov Elamın keçmiş paytaxtı Suz şəhəri arxivindən aşkar edilən qədim yazılı abidələrin, arxeoloji materialların və b. qədim məxəzlərin sinxron-müqayisəli tədqiqinə əsasən Elam və Midiya tarixinin iqtisadi təsərrüfat həyatına və ictimai münasibətlərə dair bir sıra mülahizələr irəli sürdü. Y. Yusifov e. ə. XI əsrin ortalarına aid olan Suz təsərrüfat arxivi materiallarının araşdırılmasına əsasən göstərir ki, Midiya ərazisində artıq e. ə. II minilliyin başlanğıcında xüsusi sahibkar təsərrüfatı var idi. Eyni zamanda, o qeyd edir ki, Qabaq Asiyanın bütün başqa ölkələrində olduğu kimi, Midiya ərazisində də 3 təsərrüfat vahidi — xüsusi, icma və çar təsərrüfatı vahidləri olmuşdur. Sonuncu təsərrüfat sahəsində toxuculuq, dəmirçilik, silah istehsalı, əkinçilik alətləri hazırlamaq, dərzilik, dülgərlik və s. kimi peşələr geniş yer tuturdu. Çar sənətkarlıq təsərrüfatındakı emalatxanalarında çalışan işçi qüvvəsi qullardan, qul halına gətirilmiş hərbi əsirlərdən, ayrıca kəndlərdə yaşayan müxtəlif ixtisaslı azad sənətkarlardan ibarət idilər. Sənətkarlar çar sarayına mənsub olan rəislər tərəfindən nəzarət edilirdilər. Bu onu göstərir ki, çar sənətkarlıq təsərrüfatı mütəşəkkil təsərrüfat idi. Bu təsərrüfat haqqında deyilənləri dövrümüzə gəlib çatan yazılı mənbələr də təsdiq edir. Təsərrüfatın fəaliyyəti haqqında mükəmməl qeydiyyat aparılırdı. Sənətkarlar bəzən hərbi mükəlləfiyyətə cəlb edilirdilər. Azad sənətkarlarla çar təsərrüfatı arasında mal mübadiləsi mövcud olmuşdur. Mübadilə xarici ölkələrlə daha geniş idi. Xarici ticarət çarın ixtiyarında idi.

Azərbaycan tarixşünaslığında sübut edildi ki, bu dövlət iqtisadi vəhdəti olmayan hərbi-inzibati təşkilat olmuşdur. İqtisadi əlaqələrə əsaslanmayan təsisatlar isə, heç vaxt daxilən möhkəm olmamışdır. Bu hal özünü e. ə. VII əsrin əvvəllərində, Midiya dövlətinin özünü müdafiə edən siyasi təşkilatdan, başqalarının torpaqlarını tutmaq yoluna qədəm qoyan dövlətə çevrildiyi andan etibarən daha aydın göstərməyə başladı. İstila edilən torpaqların əhalisinin Midiya dövlət başçılarının asılılığından azad olmağa səyləri genişləndikcə dövlətin daxilində baş verən rəxnə aravermədən dərinləşirdi. Şərqin güclü dövlətlərindən biri olan Midiya padşahlığının süqutu sürətlənirdi.

E. ə. VIII əsrin 70-ci illərində Assuriya təcavüzünə qarşı mübarizənin gedişində meydana gələn, tarixə erkən quldar dövləti kimi bəlli olan Midiya çarlığı e. ə. VI əsrin ortalarında (e. ə. 550-ci ildə) süqut etdi. Midiya İranın Əhəmənilər dövlətinin tabeliyinə keçdi.

Midiya geniş əraziyə malik olmuşdur. Onun sərhəddi qərbdən Qızıl İrmak (Qalis) çayı, Şərqdən Gilmənd çayı, cənubdan İran körfəzi və şimaldan isə Araz

çayı ilə əhatə edilmişdir. Bu geniş torpaqda müxtəlif dillərdə danışan və müxtəlif iqtisadi, ictimai-siyasi, sosial və mədəni inkişaf səviyyəli tayfalar və xalqlar yaşamışlar. Əhalinin əsas peşəsi oturaq əkinçilik və yarımköçəri maldarlıq olmuşdur. Burada əkinçilikdən ayrılıb müstəqil peşə şəkli alan sənətkarlıq da geniş olmuşdur. Bu ərazi ən qədim dövrdən təbii zənginliyi, faydalı yeraltı sərvəti, mülayim iqlimi ilə də antik tarixçilərin, coğrafiyaşünasların, səyyahların diqqətini cəlb etmişdir. Burada dəmir, qurğuşun, gümüş, qızıl, qiymətli daşlar çıxarır, filizdən metal əridirdilər. Midiya ərazisində zəngin neft ehtiyatı var idi. Neftdən hazırlanan «Midiya yağı» və cins Midiya atları onu dünya meridianlarına çıxartmışdı.

Midiya ticarət və sənətkarlığın inkişafına görə qonşuları içərisində fərqlənirdi. Midiya ustalarının istehsal etdikləri əmək alətləri, silah, toxuduqları əlvan xalçalar və s. dünya şöhrəti tapmışdır.

Burada şəhərlər və şəhər həyatı ölkənin tarixi tərəqqisində mühüm rol oynamışdı. Antik tarixçilər Midiya ölkəsini şəhərlər yurdu adlandırdılar. Ölkə yad qüvvələrin aramsız hərbi basqınlarına məruz qalmasına baxmayaraq burada şəhər həyatı geniş vüsət almışdı. Sənətkarlıq yüksək inkişaf etmiş və əhalinin iqtisadi və sosial inkişafında, həmçinin mədəni yüksəlişində mühüm rol oynamışdı. Midiyalılar yerli zəmin üzərində inkişaf edən orijinal mədəniyyətə malik olmuşlar. Midiyanın paytaxtı Ekbatanın yeddi sıradan ibarət konsentrik divarlarla əhatə edilməsi, qırmızı kərpicdən inşa edilən çar sarayı öz əzəməti və memarlığına görə heç bir başqa ölkələrdə təkrar edilməyən füsunkar sənəd abidələri idi.

Qədim Şərqin əsas ticarət yolu üzərində yerləşən Ekbatan (Həmədan) şəhəri böyük ticarət və sənətkarlıq mərkəzi idi.

Midiya dövlətinin başında irsi hakimiyyətə malik olan çar dururdu. Hakimiyyət Şərq istibdadı olmaq etibarı ilə ...icma torpaq mülkiyyətinə... əsaslanırdı. Tarixi dəlillərdən aydın olur ki, Midiyanın əsas istehsalçıları əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olan icmaçılar idilər. Əkinçi əhali süni suvarmadan geniş istifadə etmişdir.

Qədim müəlliflərin, Assuriya—Babil daşüstü yazıların verdiyi məlumatlardan göründüyü kimi burada memarlıq sənəti yüksək inkişaf etmişdi. Elamın keçmiş paytaxtı Suzda tikilən saraylar buna parlaq sübutdur.

Midiyalılar öz dövrünə görə, yüksək inkişaf etmiş mədəniyyətə malik olmuşlar. Onların mədəniyyəti qonşu xalqların mədəniyyətinin inkişafında müsbət rol oynamışdır. Midiya dövləti erkən quldar dövlət idi. Midiya quldarlıq dövlətinin süqutunu sürətləndirən başlıca amillərdən biri Qaumatanın hərəkatı olmuşdur.

Qaumata kimdir? Bu sual antik müəlliflərin diqqətini cəlb etdiyi kimi müasir tarixçiləri də düşündürən sualdır. Qədim zamanlardan tarixçilərin diqqətini cəlb edən bir məsələ də Qaummanın başçılığı altında Midiya torpağında baş verən üsyanın xarakteri, hərəkətverici qüvvələri, ictimai tərkibi və s. məsələlər olmuşdur.

Onlara münasibət ən qədim dövrdən bu hərəkat haqqında geniş fikir ayrılığı yaratmışdır.

Qaumata hərəkatına tarixi prosesin ayrılmaz tərkib hissəsi kimi nəzər salan Azərbaycan tarixçiləri bu problemin salnaməsində bir sıra parlaq səhifələr açdılar.

Midiya torpağında Qaumatanın başçılığı altında havalanan sinfi mübarizə haqqında antik müəlliflər bir sıra mülahizələr söyləmişlər. «Tarixin atası» Heredot göstərirdi ki, hərəkat əyan ailəsinə qarşı çevrilmişdir. O, üsyanın baş verməsinin səbəbini kahin və sehrbazların şəxsiyyəti ilə əlaqələndirirdi. Qeyd edirdi ki, bütün bu hadisələrin günahkarı, Əhəmənilər dövlətinin hakimi Kambizin, Misirə hərbi yürüşə getdiyi zaman əvəzinə təyin etdiyi hamisi maq Patidzeyt (Qaumata) olmuşdur.

Bahstun daşüstü yazıda Qaumata Əhəmənilərin padşahı Kirin kiçik oğlu Bardiye ilə eyniləşdirilir. Bu yazı kahin Qaumata ilə şahzadə Bardiye haqqında antik tarixşünaslıqda ciddi dolaşıqlıq yaratmışdı. Uzun müddət tarixçilər qədim tarixşünaslığa hakim kəsilən bu dolaşıq fikrin kələfinin ucunu tapmaqda olmazın əngəllərlə üz-üzə gəlmişlər. Antik müəlliflər etiraf edirlər ki, Kirin oğlu şahzadə Kambiz öz qəddarlığı, qaniçiciliyi, zülmkarlığı ilə xalqın dərin qəzəbini və misilsiz nifrətini qazanmışdı. O öz amansızlığı ilğ təkcə midiyalıların deyil, iranlıların və Əhəmənilər imperiyası ərazisində yaşayan başqa xalqların da qəlbində sönməz kin və qəzəb atəşi alovlandırmışdı. Geniş xalq kütləsinin Kirin kiçik oğlu şahzadə Bardiyeyə münasibəti və hüsn-rəğbəti, Kambizə olan münasibətlə müqayisəyə gəlməyən dərəcədə yaxşı olmuşdur. Kambiz qardaşının Əhəmənilər dövləti ərazisində yaşayan xalq kütləsi içərisində, həmçinin əyanlar arasında xüsusi hörmətə malik olduğunu bilir və onu öz yolu üzərindən kənar etməyə bütün gücü ilə səy göstərirdi. Kambiz e. ə. 526-cı ildə məqsədinə nail oldu.

Lakin Bardiyenin ölümü zülmkarın yaxasını ölkədə şahə qalxan xalq qəzəbindən xilas edə bilmədi. Antik müəlliflərin məlumatlarında şahzadə Bardiye ilə maq Qaumatanın bir-birinə zahirən çox oxşadıqları, iki bərabər hissəyə bölünmüş almaya bənzədikləri qeyd edilir. Bu patoloji oxşarlıqdan ustalıqla istifadə edən Qaumata e. ə. 529-cu ildə saray çevrilişi edib, hakimiyyəti öz əlinə aldı. Ölkədə cərəyan edən siyasi hadisələrin midiyalıların xeyrinə istiqamətləndirmək və onların axınına midiyalılıq donu geyindirmək, nəticə etibarı ilə Midiyanın itirilmiş əvvəlki hüquqlarını bərpa etmək üçün paytaxtı Ekbatana keçirdi. Qaumata özünü yalançı çar elan etdi. E. ə. 529—522-ci illərdə ölkənin hakimi oldu*.

Qaumata hərəkatı, beləliklə, e. ə. VI əsrin II yarısından etibarən tarixşünaslığa yol tapdı. Bu hərəkatın tarixşünaslığına dair yazılar bütün tarixçi

---

* «Allahlar yatanda» (Bakı, 1984) adlı tarixi povestin müəllifi T. M. Məmmədov səhvən göstərir ki, şahzadə Bardiye e. ə. 523-cü ildə öldürüldü. Əslində isə o, e. ə. 526-cı ildə qəsd nəticəsində həlak olmuşdur.

nəslinin diqqətini cəlb etmiş, elmi cəhətdən, tarixi biliyin inkişafı baxımından böyük maraq doğurmuşdur. Qərb və Şərq tarixşünaslığında bu məsələyə geniş yer verilir. İran tarixi ilə məşğul olan iranşünaslar və eləcə də İran midiyaşünasları Qədim Şərqdə güclü əks-sədaya səbəb olan bu hadisənin tədqiqinə xüsusi maraq göstərirlər. Bununla belə, Qaumatanın başçılıq etdiyi hərəkatın tarixinə dair Şərqdə və Qərbdə yazılan əsərlərin heç birində, o cümlədən bu problemə xüsusi diqqət yetirən Qərb tarixçilərindən Şpikel, Praşek, Markvart, Tyurin və b. əsərlərində hərəkatın elmi tarixi yazılmamışdır. Şərq və Qərb tarixşünaslığında hərəkatın ictimai xarakteri və hərəkətverici qüvvələrinə geniş maraq göstərilmişdirsə də bu mühüm məsələlər, o cümlədən hərəkatın sosioloji tərkibi haqqında, indi də müxtəlif fikirlər mövcuddur.

Akademik V.V.Struve hesab edirdi ki, Qaumata kahin olmaqla geniş xalq kütləsinin mənafeyinə qəbilə başçılarının hüquqlarının məhdud edilməsi hesabına yalnız din xadimlərinə, kahinlərə və məbədlərin digər başçılarına tam azadlıq verilməsini, onların hökmranlığının təmin edilməsini tələb etmişdir. V. V. Struve göstərir ki, üsyanın başçısı dilənçi vəziyyətində yaşayan, miskin həyat sürən geniş xalq kütləsinin havadarı olmuşdur.

Qaumata hərəkatı problemi tarixşünaslığının son nəticələrinin araşdırılmasından aydın olur ki, onun elmi tarixinin yaradılması öz parlaq ifadəsini müasir Azərbaycan tarixşünaslığında tapa bilmişdir. Onun ən yaxşı tədqiqatçısı İ. Əliyev olmuşdur. Qaumatanın başçılığı ilə başlanan hərəkatın ictimai xarakteri, hərəkətverici qüvvəsi və sosial tərkibinə dair tarixi ədəbiyyatda söylənilən müxtəlif fikirləri (Şpikel, Praşek, Markvart və b. fikirlərini və habelə akademik V. V. Struvenin mülahizələrini) problemə aid müxtəlif dövrlərdə yazılan və müxtəlif dillərdə olan ilk məxəzlərin sinxron tədqiqinin təhlilinə əsaslanan İ. H. Əliyev özündən əvvəlki müəlliflərin fikirlərinə tərəfdar çıxmayaraq göstərir ki, bu üsyan geniş xalq kütləsini əhatə edən ictimai hərəkat olmuşdur. O qeyd edir ki, Qaumata hərəkatının qısa bir dövrdə geniş vüsət almasının, xalq kütləsinin rəğbətini qazanmasının səbəbini sehrbazın (Qaumatanın) ölkədə Əhəmənilər hökmdarlığına qarşı həyata keçirdiyi tədbirlərdə axtarmaq lazımdır. Qaumata hakimiyyətə gələn kimi Əhəmənilərin tabeliyində olan midiyalılara göndərdiyi sərəncamında bildirdi ki, midiyalılar 3 il müddətində vergidən və hərbi mükəlləfiyyətdən azad olurlar.

Aydındır ki, bu sərəncamda xalqın həm iqtisadi, həm də mənəvi mənafeyi öz ifadəsini tapa bilmişdir. Məhz bu cəhət xalqın Qaumatanın çağırışına tərəf çıxması və əhəmənilərin hökmranlığına qarşı çevrilmiş üsyanda fəal iştirak etməsi üçün əsas olmuşdur. Bəzi tarixçilər Qaumata hərəkatını xalqa zidd siyasət hesab edirlər. Bir halda ki, bu hərəkat öz xarakterinə görə xalqa zidd olmamışdır. Onun başlıca hərəkətverici qüvvəsi əhəmənilərin zülmünə məruz qalan, hər cür təhqir edilən, alçaldılan Midiyanın geniş xalq kütləsi idi. Onun xalqa zidd olmadığını əsaslandıran bir mühüm dəlil də Qaumatanın ölümü xəbərini eşidən midiyalıların dərin hüzn və kədəridir.

Qaumatanın başçılıq etdiyi üsyan əhəmənilərin Midiyadakı hökmranlığına güclü zərbə vurdu və onun dayaqlarını zəiflətdi. Qaumata hərəkatı məğlub oldusa da, onun köləliklə əlaqədar baş qaldıran xalq hərəkatına təsiri böyük olmuşdur. Qaumata hərəkatının alt-üst edilməsində Midiya cəmiyyətinin əyanları əhəməni sülaləsi başçılarına yaxından kömək etdikləri halda, əhalinin əsas hissəsi Qaumatanın tərəfində olmuşdur. Qaumata hərəkatı mahiyyətinə görə, midiyalıların İran hökmranlığına qarşı azadlıq hərəkatı idi. Bu hərəkatda irandilli olmayan bütün tayfalar iştirak etmişdir.

«Qaumata hərəkatına» aid tarixi ədəbiyyatda «yalançı çarın»—Qaumatanın çar Kirin oğlu Bardiyanın adından istifadə etməsi, zahirən ona oxşadığına görə çar adını qəbul etdiyi qeyd edilir. Tarixilik baxımından bu məsələnin də araşdırılması tədqiqatçıların diqqətindən yayınmışdır.

Kirin yaratdığı dövlət irsi sülalə ardıcıllığı üzrə təşkil edilən quldar dövləti idi. Bu dövlətin başında yalnız İran çarı Kirin və onun nəslinə mənsub olanlar dura bilərdilər. Qaumata və ona yaxın olan Midiyanın hakim dairələri, birinci növbədə ali din xadimləri başa düşürdülər ki, yalnız Kirin kiçik oğlu şahzadə Bardiyanın adından istifadə edib hakimiyyətə sahib olmaqla Midiya cəmiyyətinin artıq itirilmiş adını və hüququnu geri qaytara və bərpa edə bilərlər. Məhz bu səbəblər, güman ki, kahin Qaumataya Bardiyanın adını qəbul edib hakimiyyətə sahib olmaq üçün addım atmağa əsas vermişdir. Lakin Midiya cəmiyyətini artıq bərpa etmək olmazdı. Midiya 200 il Kirin yaratdığı İran dövlətinin tabeliyində qaldı.

Midiya dövləti icma münasibətlərinin qorunub saxlanması səbəbindən quldarlığın tam surətdə istehsal qüvvəsinə çevrilmədiyi erkən quldar dövlət idi. Kirin yaratdığı dövlət isə Midiya dövlətinə nisbətən quldarlıq münasibətinin daha geniş yayıldığı dövlət olmuşdur.

Kirin yaratdığı Əhəmənilər hökmranlığından ibarət olan İran dövləti efemer dövlət idi. O, e. ə. IV əsrin sonlarında, Makedoniyalı İskəndərin zərbəsi ilə iflasa uğradı. E. ə. IV əsrin 20-ci illərində Midiya cəmiyyətinin keçmiş ərazisində Midiya—Atropaten dövləti meydana gəldi. Bu dövlət Azərbaycan xalqının formalaşmağa başladığı dövrdə meydana gələn qədim Azərbaycan dövləti idi. Bəşəriyyətin yaddaşı olan tarix göstərir ki, miladdan əvvəl min illər ərzində Azərbaycanın qədim ərazisinin sakinləri neçə-neçə hakimlərlə və «fatehlərlə» üz-üzə gəlmiş, neçə-neçə işğalçı orduya sinə gərmiş, onları öz torpaqlarından qovub çıxarmış, öz yurdunu azad etmiş, babalarının müqəddəs ocağını sönməyə qoymamışlar. Özünün orijinal mədəniyyəti, dilinin lüğət tərkibini, etnik əsaslarını, hər bir xalqın bel sütunu olan adət-ənənəsini, genetik xüsusiyyətlərini göz bəbəyi kimi hifz edib saxlamış və zamanın sınaqlarından keçirib inkişaf etdirmişdir. Tarix göstərir ki, fatehlər gəlib-gedər olduğu halda, xalq və onun maddi və mənəvi mədəniyyəti daimidir, tükənməzdir.

Antik tarixçilərin məlumatlarından aydın olur ki, arasıkəsilməz basqınçı qoşunların döyüş meydanı olmasına baxmayaraq burada şəhər həyatı inkişafda

olmuşdur. Lakin bəhs etdiyimiz dövrə aid tarixi ədəbiyyatda Midiya ərazisinin şəhər həyatı lazımi səviyyədə tədqiq edilməmişdir. Midiyalılar totemlərə sitayiş etmişlər. İndi də keçmiş Midiya ərazisinin bəzi yerlərində «İlanpiri» adlanan ibadətgahların olması buna sübutdur. Midiyalıların heyvana, bəzən bitki və ya başqa varlıqlara sitayiş etmələrini təkcə maddi-mədəniyyət abidələri deyil, həm də antik tarixçilər və coğrafiyaşünaslar da xəbər verirlər.

Midiya cəmiyyəti ərazisində ideologiyanın bir növü olan sehr, cadu geniş yayılan ideologiya idi. Sehrbazlar (maqlar) göy cisimlərinin, günəş sisteminin, ulduzların hərəkətini öyrənməyə xüsusi maraq göstərmişlər.

Midiyalılar torpağı, odu və suyu müqəddəs hesab etmişlər. Onlar bu üç müqəddəs varlığın paklığını qoruyub saxlamaq üçün ölülərini yandırırdılar.

Maqizm xüsusiyyətlərinə, dəfn mərasimi qaydalarına və s. görə zərdüşt ayininə və yaxud məzdəkilik ayininə (atəşpərəstlik ayini) yaxın olmuşdur. Tarixi ədəbiyyatda deyilir ki, zərdüşt dini Qədim İranda atəşpərəst dini olmuşdur. Atəşpərəstliyi bütövlükdə İrana aid etmək düzgün deyil. Məlum olduğu kimi Midiya ərazisində yaşayan etnoslar İran dilli tayfaların buraya gəlib məskunlaşmasından xeyli əvvəl oda sitayiş etməyə başlamışlar. Şərqi İran və Midiya ərazisinin çox hissəsi məzdəkilik təliminin qədim mərkəzi olmuşdur. Bu hal özünü Qaumatanın başçılığı altında baş verən üsyanda da göstərmişdi. Məlum olduğu kimi indiyə qədər Midiya dövlətinin tarixi coğrafiyası, onun Azərbaycanın qədim tarixində oynadığı rol, tutduğu yer və d. bu kimi məsələlər ətrafında fikir aydınlığı əldə edilməmişdir.

Midiyaşünaslığa dair son tarix və dilçilik ədəbiyyatında midiyalıların azərbaycanlıların qədim əcdadları olduğu güman edilir və göstərilir ki, Midiya qədim azərbaycanlıların vətəni olmuşdur.

Tarixçi ictimaiyyət arasında bu fikrə tərəfdar olmayanlar da var. Midiya dövləti tarixinə dair məlumatların müqayisəli elmi araşdırılması göstərir ki, Midiyanın qədim azərbaycanlıların tarixi taleyində oynadığı rol və tutduğu yer haqqında söylənilən fikirlərin bir-birinə zidd olmasına baxmayaraq hər iki mülahizənin tərəfdarları öz görüşlərində, müəyyən mənada haqlıdırlar. Əvvəldə deyildiyi kimi, Midiya tarixinin ilk tarixçisi Heredot olmuşdur. O, 9 kitabdan ibarət «Tarix» əsərində Midiya ərazisində 6 qəbilənin—bus, paretakən, struxat, arizant, budi və maq qəbilələrinin yaşadığını xəbər verir. Heredot bu qəbilələrin məskunlaşdıqları ərazinin də təxminən yerini müəyyənləşdirməyə səy edir. O qeyd edir ki, paretakənlər İsfahanın şimal və şərqindəki ərazidə, arizantlar Midiyanın uzaq Şərqində, Rey (Raq, indiki Tehran) şəhərinin yaxınlığında məskunlaşmışdılar. Həmin ərazidə, arizantların qonşuluğunda maq qəbilələri yaşamışlar. Buslar Midiya dövlətinin paytaxtı Ekbaton (Həmədan) rayonunda, budilər isə Midiyanın qərb torpağında sakin olmuşlar. Beləliklə, Heredotun göstərdiyi 6 qəbilədən ibarət olan midiyalılar Ekbaton (Həmədan), İsfahan və Rey (Tehran) torpaqları əhatəsindəki ərazidə yaşamışlar. Bu ərazi tarixi-coğrafi baxımından, Cənubi

Azərbaycanın cənubi şərqində — ilk Azərbaycan dövləti olan Mannanın qonşuluğunda yerləşmişdir. Midiya qəbilələri ərazi bölgüsü əsasında məskunlaşmışlar. Bu bölgü dövlətin meydana gəldiyinə güzgü tutur. Deyilənlərdən hasil olan nəticə budur ki, e. ə. VIII əsrin 70-ci illərində təşəkkül tapan Midiya dövləti Azərbaycanın qədim ərazisində deyil, onun cənubi şərq qonşuluğunda meydana gəlmişdir. Lakin bu o demək deyildir ki, Midiya cəmiyyəti qədim azərbaycanlıların tarixi taleyində heç bir rol oynamamışdır. Məsələni bu şəkildə qoymaq tarixilikdən kənar olardı.

E. ə. VIII əsrin əvvəllərində meydana gələn Midiya dövləti az bir vaxt içərisində Şərqin ən güclü dövlətlərindən biri oldu. O, çar Kiaksarın dövründə (e. ə. 625—584-cü illər) Urartu padşahlığının süquta uğramasında, skif çarlığının məhv edilməsində həlledici rol oynadı. E. ə. VII əsrin sonlarından etibarən Midiya dövləti başqa torpaqların zəbt edilməsi hesabına öz ərazisini genişləndirdi. E. ə. 615-ci ildə Midiya dövləti Manna torpağını işğal etdi. Midiya e. ə. 610—590-cı illərdə Manna ilə yanaşı skif və Urartu torpaqlarını özünə tabe etdi. 3 çarlıq— Manna, Skif və Urartu çarlığı bir müddət (70 ilə yaxın) müstəqil hökmranlığını qoruyub saxlamışdır. E. ə. 593-cü ildən etibarən isə onların adı artıq çəkilmir. İ. M. Dyakonov göstərir ki, e. ə. VI əsrin əvvəllərindən etibarən qədim Şərq mənbələrində mannalılar midiyalılarla qarışır və onlar midiyalılar kimi ünvanlaşırlar. Manna inkişaf etmiş kənd təsərrüfatı, şərabçılıq, sənətkarlıq ölkəsi olmaq etibarı ilə Midiyanın iqtisadi, ictimai və mədəni yüksəlişində mühüm rol oynamışdır. Midiya dövləti erkən quldar dövləti olmuşdur. O, Qədim Şərqin tarixi inkişafında mühüm rol oynamışdır. Qeyd etmək lazımdır ki, Midiyanın hökmranlığı dövründə iqtisadi, ictimai və mədəni inkişafda qazanılan nailiyyət bu regionda yaşayan tayfaların və etnik qrupların qarşılıqlı əlaqələri nəticəsində əldə edilmişdir.

Tarixi gerçəklikdən hasil olan elmi ümumiləşmə budur ki, Midiya dövləti İran dövləti idi. Qədim Azərbaycan torpaqlarının bir hissəsi bir müddət bu dövlətin tabeliyində olmuş və e. ə. IV əsrin ortalarında «kiçik Midiya» adı altında əhəmənilərin İran dövləti tabeliyindən azad olub əvvəlki müstəqilliyini bərpa etmişdir. Azərbaycan xalqının etnogenezində Midiya etnosu həlledici ilmə olmamışdır.

«Azərbaycan tarixi»ndə deyilir ki, «Kiaksar (miladdan əvvəl 625—584-cü illər) və onun oğlu Fraortun hakimiyyəti dövründə midiyalılar Mannanı özlərinə tabe etdilər. Manna dövləti süqut etdi. Bundan sonra ümumi «midiyalılar» məfhumu Azərbaycanın cənub hissəsində yaşayan mannalıları və başqa tayfaları da əhatə edir».

Beləliklə, e. ə. VII əsrin sonlarından etibarən Midiyanın ərazisi şimaldan Araz çayı boyu torpaqlarını əhatə etmişdir. Bu ərazi e. ə. VI əsrin ortalarına qədər dəyişmədi. E. ə. 550-ci ildə Midiya dövləti süqut etdi. Onun ərazisi əhəmənilər dövlətinin tərkibinə daxil edildi. Sonuncu e. ə. IV əsrin ortalarından başlayaraq

daxili sosial ziddiyyətlərin təsiri nəticəsində zəifləməyə başladı. 336 — 323-cü illərdə Makedoniyalı İskəndərin vurduğu zərbə bu prosesi daha da sürətləndirdi. Əhəmənilər dövləti süqut etdi. Əhəmənilər imperiyası tərəfindən işğal edilən Midiya cəmiyyəti ərazisində iki müstəqil dövlət—Midiya—Atropaten və yaxud kiçik Midiya və böyük Midiya dövləti təşəkkül etdi. Atropatenin ərazisi, qədim Azərbaycanın ilk dövləti olan Manna dövlətinin əhatə etdiyi ərazi ilə üst-üstə düşür.

İranın əhəmənilər dövlətinin xarabalıqları üzərində meydana gələn Atropaten dövlətinin Cənubi Azərbaycan torpaqlarını əhatə etməsi bir daha onu göstərir ki, mannalılar Midiya dövlətinin, sonralar isə əhəmənilər imperiyasının siyasi təsiri altında olduqları dövrdə də özlərinin mədəniyyətini, mənəvi həyat tərzini qoruyub saxlamışlar. Mannanın varisi olan Atropaten müasir azərbaycanlıların qədim vətəni olmuşdur.

*V fəsil*

# ATROPATEN VƏ QAFQAZ ALBANİYASI

E. ə. IV əsrin sonlarında Midiyanın Şimal-Qərb vilayəti tarixi Midiyadan ayrıldı. O, tarixi ədəbiyyata Midiya-Atropaten və ya Atropaten kimi daxil oldu. Antik müəlliflərdən Plutarx onu, bəzən Midiya, bəzən də Atropaten adlandırır. Atropatena toponiminə başqa qədim müəlliflərin, Ammian Martselininin, bizanslı Stefanın və digərlərinin əsərlərində də rast gəlmək mümkündür.

Strabon Atropatendə yaşayan etnik qrupların—kadusilərin, amardların, tapirlərin və b. xalqların adlarını çəkir. Güman ki, həmin etnoslar yerli avtoxtinlərin sələfləri olmuşlar. Strabonun məlumatlarına əsaslanan Polibiy Atropaten ölkəsinin tarixi coğrafiyasını nəzərdən keçirir. Onun fikrinə görə Atropaten ölkəsi indiki Cənubi Azərbaycanın ərazisində olmuşdur.

Ölkədə atəşpərəstliyin geniş yayılması ilə əlaqədar olaraq Atropateni «Odlar yurdu» adlandırırlar. Sasanilərin dövründə Atropatena Adurbadaqan kimi xatırlanır. Erməni müəllifləri Atropatenin «Ator-patotqan», «Atrapatakan», yəni sərkərdə Atropatın məkanı, suriyalılar onu «Adrabiqan» və ya «Adarbaycan», ərəb coğrafiyaçıları «Adarbaycan», «Azirbiycan», «Azərbaycan», türk müəllifləri—«Azərbaycan» adlandırmış, yeni fars tarixi ədəbiyyatında isə bu anlayış «Azərbaycan», XIX əsrdən etibarən rus mənbələrində bu söz «Azərbaycan» kimi səslənmişdir.

Beləliklə, Atropaten Azərbaycan istilahının tarixi ədəbiyyata məlum olan adlarından ən qədimidir. Bu anlayış ilk dəfə e. ə. IV əsrdən etibarən Makedoniyalı İskəndərin Şərqə, o cümlədən Urmiyə gölü hövzəsinə hərbi yürüşü ilə əlaqədar olaraq yunan mənbələrində adı çəkilməyə başlanmışdır. Sonralar onun şəkli dəyişmiş və ayrı-ayrı xalqların dil quruluşuna uyğun olaraq başqa-başqa formalarda tələffüz edilmişdir.

Məhz bu məlumatları əsas götürən tarixçilər Azərbaycan adının etimologiyasını sərkərdə Atropatın adı ilə əlaqələndirmişlər. Azərbaycanın qədim tarixinə nəzər salan E. A. Paxomov və V. M. Sısoyev antik dövrün yunan mənbələrinin, habelə qədim erməni, İran və ilk orta əsr ərəb müəlliflərinin verdikləri məlumatlara əsaslanaraq Azərbaycanın adının mənşəyini «Atropat» istilahı ilə bağlayırdılar.

V. M. Sısoyev yazır ki, «Azərbaycan» adının kökü -«Adər» və ya «Azər» sözü təşkil edir. Fars dilində «Adər» və ya «Azər» od deməkdir. Deməli, «Azərbaycan» Odlar yurdu və yaxud «Odu mühafizə edən» torpaq mənası daşıyır.

S. M. Mollazadə «Azərbaycan toponimləri» kitabında yazır ki, e. ə. IV əsrdə meydana gələn «Azərbaycan» anlayışı ...həm Azərbaycan xalqının, həm də Azərbaycan dövlətinin özülü idi. Əslində elə «Azərbaycan» adı da qədim «At (a)

patakan»ın müəyyən fonetik dəyişikliyə uğramış formasıdır. «At (a) rapatakan»ın mənası «Atropata» məxsus, «Atropatın» deməkdir.

Azərbaycan adı Firdovsinin «Şahnamə» əsərində də Azərabadkan kimi işlədilir.

Tarixşünaslıqda, bəzən «Azərbaycan» odu qoruyub saxlamaq və ona sitayiş etmək mənası verməsi ilə əlaqədar olaraq onu zərdüşt dini ilə də əlaqələndirirlər. V. M. Sısoyev göstərir ki, bu din ən qədim dinlərdən biridir. O, e. ə. VII əsrin əvvəllərində, skif cəmiyyətinin formalaşması dövründə təşəkkül tapmışdır. Zərdüşt dininin inkişafına Midiya kahinlərinin dini təliminin təsiri olduğu güman edilir. Bir halda ki, Azərbaycan adı ilk dəfə e. ə. IV əsrdən etibarən çəkilməyə başlamışdı.

«Azərbaycan tarixi»ndə «Azərbaycan» adının «Odlar ölkəsi» anlayışı ilə əlaqədar olduğu qeyd edilir.

Tarixi ədəbiyyatda «Atropatena ölkəsi» adı, habelə Atropatın özü və milli mənsubiyyəti haqqında müxtəlif fikirlər var. Antik müəlliflər daxil olmaqla, tarixçilərin əksəriyyəti güman edirlər ki, Atropaten dövləti sərkərdə Atropatın adı ilə bağlı olmuşdur. Strabon «Coğrafiya» adlı əsərində yazır ki, «Midiya iki böyük vilayətdən ibarət idi. Bunlardan on irisi Böyük Midiya, qismən kiçiyi isə Kiçik Midiya, yaxud Atropatan Midiyası adlanırdı. «Atropatan Midiyası»nın adı hərbi sərkərdə Atropatın adından götürülmüşdür».

Atropaten oykomikasına aid məlumatların təhlilinə əsasən fərz etmək olar ki, Azərbaycan sözü coğrafi anlayış kimi, Atropaten ünvanından götürülmüşdür. Lakin Atropaten adının sərkərdə Atropatın adından, «Odu mühafizə» edən, «Od allahı» kimi atəşpərəstliklə bağlı olan anlayışlardan götürülməsi tarixilik və toponim baxımından inandırıcı deyil. E. ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycan ərazisində yaşayan tayfa və qəbilələr içərisində antik müəlliflərin əsərlərində adı çəkilməyən tayfalardan biri güman ki, Atropat tayfası olmuşdur. Tarixi ədəbiyyatda bu oykonimakanın meydana gəlməsini e. ə. IV əsrə aid edirlər. Bəzi mənbələrdə isə, o cümlədən atəşpərəstlik dini kitabı olan «Avesta»da onun adı e. ə. I minilliyin əvvəllərində çəkilir. Bu ərazidə Atropat adlı qəbilənin yaşadığı güman edilir.

Tarixdən məlumdur ki, coğrafi yerlərin ünvanı olan toponimlər öz adlarını əksər hallarda, qəbilələrin və ya tayfaların adından götürmüşdür. Bu da bir həqiqətdir ki, insanlar özlərini (dövlətin meydana gəlməyə başladığı andan etibarən) və qəbilənin, tayfanın üzvü, yaşadığı ərazinin sakinləri saymağa başladığı zamandan, yaşadığı yerlərə, həm özlərinə və bəzən həm də qonşularına ad vermişlər. Yer kürəsinin dili hesab edilən toponimlər bu yolla meydana gəlmişdir. Atropatın semantikasına bu baxımdan yanaşdıqda güman etmək olar ki, Azərbaycan adı sərkərdə Atropatın adından deyil, güman ki, sonuncunun da mənsub olduğu, Atropatın qəbiləsi adından götürülmüşdür.

Sərkərdə Atropat Makedoniyalı İskəndərin Orta Asiyaya hərbi səfəri zamanı Midiyanın valisi olmuşdur. Valilik vəzifəsini yerinə yetirən Atropat, həm də

Atropaten və Albaniya qoşunlarının sərkərdəsi idi. Antik müəlliflərin məlumatlarını etnogen fasiləsizlik baxımından nəzərdən keçirən Z. İ. Yampolski göstərir ki, Azərbaycan ərazisində e. ə. II—I əsrlərdə yerli əhalidən 120 min nəfərdən ibarət qoşun təşkil edilmişdir. E. ə. 323-cü ildə Makedoniyalı İskəndər öldükdən sonra, onun yaratdığı imperiya süqut etdi. Onun ərazisi İskəndərin sərkərdələri arasında təqsim edildi.

Nəsli varislik hüququ əldə edən Atropat məhz bu dövrdən etibarən Atropaten dövlətinin başçısı oldu. Bu dövlət Yaxın Şərqin güclü dövlətlərindən biri olmuşdur. E. ə. IV əsrin sonlarında o daha da güclənir. Strabonun məlumatına görə Atropatena 10 min nəfərlik süvarisi və 40 min nəfərlik piyada qoşunu olan bir dövlət idi. Onun başçısı Atropat e. ə. 306-cı ildə çar adı qəbul etdi.

Tarixi ədəbiyyatda Atropatın etnik mənsubiyyəti haqqında müxtəlif fikirlər var. V. M. Sısoyev onu İran mənşəli hesab edir. Müasir İran burjua tarixçiləri də bu fikirdədirlər. Azərbaycanın qədim tarixini tədqiq edən bəzi Azərbaycan tarixçilərinin də əsərlərində «Atropaten» sözünün İran mənşəli olduğu güman edilir.

Son vaxtlar nəşr edilən «О слове «Азербайджана», «Заметки историков» adlı məqalədə «Atropaten» sözünün hansı dil qrupu ailəsinə mənsub olduğuna nəzər salmadan məqalənin müəllifləri yazırlar ki, «Azərbaycan» oykonimakasının mənası «Od allahının məkanı» deməkdir. Beləliklə, onlar da bu anlayışın İran dillərinə məxsus qaynaq olduğunu qəbul edirlər.

Z. İ. Yampolski əsərlərində antik müəlliflərin məlumatlarını geniş təhlil edərək Atropaten oykonimakasının semantikasını açmağa cəhd göstərir. Məlum olduğu kimi, Strabon Azərbaycan ərazisində müxtəlif ləhcələrdə danışan 26-ya qədər tayfa yaşadığını qeyd edir. Strabonun məlumatında deyilir ki, Azərbaycan vilayətində 26 «Qlottay» yaşamışdır. Tarixçilər və dilçilər ən qədim zamanlardan son vaxtlara qədər «Qlottay» sözünü dil anlayışı mənasında işlətmiş və göstərmişlər ki, bu regionda müxtəlif dilli 26 tayfa yaşamışdır. 50-ci illərin ortalarında «qlottay» anlayışına yenidən nəzər salan Z. İ. Yampolski belə qənaətə gəlir ki, bu ərazidə ən qədim dövrdən müxtəlif ləhcələrdə danışan çoxlu qəbilələr və tayfalar yaşamışdır. Onların əksəriyyəti türk dilli etnoslar olmuşlar. Bu dil qrupu tarixin dərin qatlarına işləyən kök üzərində durmuşdur. Məhz bu cəhət başqa dillərdə danışan gəlmə tayfaların onların dillərini dəyişdirməyə imkan verməmişdir. Beləliklə, Z. İ. Yampolskinin «Qlottay» anlayışının «dil» yox, «ləhcə» («nareçiya») kimi qəbul etdilməsi fikri daha həyatidir. Deyilən aydınlıq sübut edir ki, Azərbaycanın qədim ərazisində yaşayan əhalinin içərisində uzaq keçmişlərdə türkdilli etnoslar aparıcı qüvvə olmuşdur. Respublikamızın ərazisindən son vaxtlar qeydə alınan külli miqdarda toponimlərin üçdə iki hissəsindən çoxunun türk dilləri ailəsinə mənsub olması fikrimizə əsas verir.

Antik müəlliflər Atropaten vilayətini sıx əhalisi olan ölkə adlandırırlar. «Erməni tarixinin atası» Moisey Xorenski də Azərbaycanı əhalisi sıx olan ölkə hesab edir.

İbtidai icma quruluşundan ilk sivilizasiya dövrünə qədəm qoyulduğu, əhali mütəhərrikliyinin yenicə aradan qalxdığı bir dövrdə, əhalinin sıxlığı geniş olan bir ölkədə yaşayan xalq kütləsi vahid bir ləhcədə danışa bilməzdi. Güman ki, onların ünsiyyət vasitəsi olan dil müxtəlif ləhcəli bir dil olmuşdur.

Atropaten dövləti qədim Azərbaycanın tarixi taleyində, bu torpağın müstəqilliyinin mühafizə edilməsində, onun Şərq və Qərb ölkələri ilə iqtisadi əlaqələrinin inkişafında mühüm rol oynamışdır. Strabon göstərirdi ki, atropatenlilərin ermənilər və parfiyalılar kimi qonşuları var idi. Bu qonşular tez-tez onların vilayətini kəsib götürür, lakin atropatenlilər müqavimət göstərir və çox vaxt zəbt olunmuş yeri geri alırdılar. Bu faktlar bir daha Atropaten dövlətinin güclü və müstəqilliyini mühafizə edib saxlamağa qadir olan siyasi mexanizm olduğunu göstərir.

Azərbaycan Zaqafqaziyanın digər qonşu ölkələri kimi İran, Kiçik Asiya, Mesopotamiya ilə birlikdə tarixi-coğrafi mənsubiyyət baxımından Yaxın və Orta Şərq arealına daxildir. Azərbaycan xalqı bu regionun oturaq həyat sürən qədim sakini olmuşdur. Bu xalqın Zaqafqaziya, Yaxın və Orta Şərq xalqları içərisində özünəməxsus orijinal mövqeyi vardır. O, tarixin ən ağır, ən keşməkeşli dövrlərində belə öz yüksək maddi və mənəvi mədəniyyətini qoruyub saxlamışdır. Azərbaycan ilk insanın qədim vətəni, qədim sivilizasiyanın mərkəzlərindən biri olmuşdur. Antik müəlliflərin, birinci növbədə Strabonun məlumatlarına, habelə Cənubi Azərbaycan ərazisindən aşkar edilən arxeoloji materiallara o cümlədən Taxtü-Süleyman, Həsənlutəpə və b. arxeoloji qazıntı abidələrinin öyrənilməsinə əsaslanan tarixçilər etiraf edirlər ki, qədim Azərbaycanda, o cümlədən Atropaten ərazisində əhalinin əsas peşəsi oturaq əkinçilik və maldarlıq olmuşdur. Tarixi ədəbiyyatda burada sənətkarlığın geniş yayıldığı qeyd edilir, şəhərlər və ticarət yolları haqqında ətraflı məlumat verilir. Atropaten və Albaniya ərazisində su arxları və kəhrizlərdən geniş istifadə edilmişdir. Burada əkinçiliklə yanaşı maldarlıq da geniş yayılmış təsərrüfat sahəsi idi. A. Fazili yazır ki, eramızdan bir neçə əsr əvvəl Atropaten və Albaniyada yarımköçəri maldarlıq mövcud olmuşdur. Atropaten və Albaniyada qədimdən şöhrət qazanmış kustar sənətkarlıqdan ibarət olan xalçaçılıq, metallurgiya, zərgərlik və s. sənətkarlıq sahələri yüksək inkişaf səviyyəsinə çatmışdır.

Azərbaycanın iqtisadi, ictimai və siyasi həyatında qədim şəhərlərin və ticarət yollarının böyük əhəmiyyəti olmuşdur. Bu prosesdə Atropaten ölkəsi mühüm rol oynamışdır. Su və quru yollarının Albaniya və Atropaten ərazisindən keçməsi bu regionun dünya ticarət əlaqələrində iştirak etməsinə imkan vermişdir. E. ə. IV, b. e. III əsrlərdə burada metallurgiyanın və b. xammal mənbəyinin zəngin

olması onun Yaxın Şərq ilə ictimai-iqtisadi münasibətlərə girməsinə şərait yaratmışdır.

Atropaten Yunanıstan və Romadan Baktriya və Hindistana gedən Şimal karvan yolu üzərində yerləşmişdi. Atropaten vasitəsi ilə Albaniyadan İberiyaya, Ermənistana və Qara dəniz sahillərinə yollar uzanırdı. Bu yolların ölkənin iqtisadi və ictimai inkişafında böyük əhəmiyyəti və təsiri olmuşdur.

Atropaten dövlətinin meydana gəlməsi və e. ə. I minilliyin əvvəlindən başlanan yerli tayfaların birləşməsi ilə onların xalq halına düşməsi prosesi gücləndi. Bu birləşmənin iqtisadi, sosial-mədəni əsasını ölkədə məhsuldar qüvvələrin inkişafı, təsərrüfat və mənəvi əlaqələrin genişlənməsi təşkil edirdi. Tayfalar arasında əlaqələrin tərəqqi etməsində ünsiyyət vasitəsi olan dilin təkmilləşməsi mühüm rol oynamışdır. Güman ki, İran dilli olmayan Atropaten dili yerli əhalinin dilinin mayası olmuşdur.

Tayfaların xalq halında birləşməsi uzun sürən tarixi prosesdir. Bu prosesin gedişi dövründə iqtisadi əlaqələr zəmini üzərində tayfalar xalq anlayışı çərçivəsində qovuşub qarışdılar. Ayrı-ayrı tayfalara xas spesifik xüsusiyyətlər aradan qalxır, təşəkkül tapmaqda olan xalqın psixologiyası, mənəviyyatı formalaşır, xalqın vahid ərazi birliyi meydana gəlir. Deyilən iqtisadi, ictimai, sosial və ərazi dəyişikliyi Atropaten dövlətinin mövcud olduğu dövrdə baş vermişdir. «Azərbaycan tarixi» kitabında deyilir ki, xalqın özəyinin təşkilində Azərbaycan ərazisində iki yüz ildən artıq yaşamış ilk dövlət, Manna dövlətinin böyük əhəmiyyəti olmuşdur... Atropaten dövlətinin meydana çıxması Azərbaycan ərazisində xalqın təşəkkülü üçün daha əlverişli şərait yaratmışdır.

Tarixi araşdırmalardan aydın olur ki, Cənubi Azərbaycan torpağında təşəkkül tapan Atropaten mövcud olduğu tarixi dövrdə ən çox Azərbaycanın şimal torpaqlarına meyl etmiş, şimal qonşuluğunda, eyni vaxtda meydana gələn Albaniya dövləti ilə ünsiyyətdə olmuşdur. Onun uzunmüddətli müstəqil inkişaf yolu Arazın Şimal hissəsində yerləşib, həm etnik və həm də mədəni cəhətcə Atropatenə yaxın olan Albaniyanın inkişaf tarixi ilə sıx surətdə bağlı olmuşdur.

Azərbaycanın şimal hissəsi qədim zamanlarda Albaniya adlanmışdır. Yunanlar e.ə. IV əsrdə Cənubi Qafqazın şərq torpaqlarını Albaniya, qərbini isə İberiya adlandırmışlar. Urartu mixi yazılarında bu ərazi «Kux Albaniya» adlanır. Yəni dağlıq ölkə. («Kux» - farsca dağ deməkdir. Alb və ya alp-Xet dilində dağlıq mənasını verir.) Erməni tarixçiləri Albaniyanı Alpan və ya Ağvan ölkəsi adlandırırlar. Albaniya haqqında ərəb, türk mənbələrində, gürcü salnamələrində də məlumat vardır.

"Tarixin atası" Heredot diqqətini Midiya dövləti üzərində cəmləşdirdiyi halda, onun müasiri e.ə. VI-V əsrlərdə yaşayan coğrafiyaşünas və tarixçi Miletli Hekatey (Miletski) «Təsviri coğrafiya» adlı əsərində Asiya ölkələri, o cümlədən Qafqaz Albaniyası tarixinə dair maraqlı məlumat verir. Heredot «Tarix» əsərində kimmerlərin və skiflərin hərəkatı, Əhəməni dövləti, Miq, Kaspi: udin (utin) və

başqa yerli tayfalar haqqında xəbər verir. Strabonun məlumatları Şərqi Zaqafqaziyanın qədim tarixi, ölkənin əhalisi, onların təsərrüfatı, həyat tərzi, adət-ənənəsi, dini münasibəti, coğrafi mövqeyi və s. məsələləri əhatə edir. Qafqaz Albaniyasının (Şimali Azərbaycanın) erkən orta əsrlər tarixinin araşdırılmasında ilk alban tarixçisi Musa Kağankantlının* «Alban tarixi» misli olmayan qiymətli məxəzdir. Kitabda Azərbaycanın şimalında təşəkkül tapan dövlətin - Arran, yaxud Arran dövlətinin tarixi, siyasi, iqtisadi, sosial, mədəni, ideoloji, hüquqi həyatı, Azərbaycanda gedən etnogenetik proseslər geniş miqyasda, başqa mənbələrdə rastlaşmadan şərh edilir.

Şimali Azərbaycanın və Dağıstanın xeyli hissəsi daxil olmaqla böyük bir ərazi qədimdə Albaniya kimi tanınmışdır. Onun ərazisi Kiçik Qafqaz sıra dağlarından Böyük Qafqazın şimal-şərq ətəklərinə qədər uzanmışdır. Strabon xəbər verir ki, qərb tərəfdən İberlərlə həmsərhəd olan albanlar, şərqdə Kaspi dənizi arasındakı böyük bir ərazidə məskunlaşmışdılar. B.e. II əsrində yaşayan Klavdi Ptolomey göstərirdi ki, Albaniya şərqdən Kaspi dənizi, qərbdən İberiya, cənub-qərbdən Atropaten və Ermənistanın bir hissəsi, şimaldan Sarmatiya ilə hüdudlaşırdı.

Albaniya qonşuları ilə müqayisədə maraqlı demoqrafik göstəriciyə malik olmuşdur. Bu torpağı adlı-sanlı edən, dünya meridianlarına çıxaran, onu məşhurlaşdıran yerli əhali öz sıxlığı ilə yanaşı, sakinlərinin müxtəlif etnik tərkibi, ləhcə müxtəlifliyi ilə də qonşularından fərqlənmişlər. Ən iri tayfa olan albanlar əhali kütləsi içərisində üstünlük təşkil etmişdir.

Antik müəlliflər qeyd edirlər ki, Albaniya döyüş meydanına 22 min süvari və 60 min piyada çıxarmağa qadir olmuşdur. Atropaten və Albaniyanın, ümumiyyətlə, 127 min döyüşçüsü var idi. Sonuncular döyüş bacarığı olan kişi cinsinin 20%-ni təşkil edirdi. Alban döyüşçüləri içərisində qadınların da olduğu güman edilir. Beləliklə, mənbələrin məlumatlarına görə təkcə Albaniya döyüş meydanına 82 min nəfərə qədər ordu çıxara bilirdi. Deməli, bu ərazidə azı 400 minə qədər əhali yaşamışdır. Strabon yazır ki, albanlar ucaboylu, xoşsifətli və qamətli adamlar idilər. Başqa bir qaynaqda göstərilir ki, onlar alagözlü və sarışın saçlı olmuşlar.

Antik mənbələr xəbər verirlər ki, albanların yaşadıqları torpaqlar çox münbit və məhsuldar idi. Onlar bir dəfə əkilmiş torpaqdan iki, hətta bəzən üç dəfə məhsul toplayırdı. Strabon yazır: «Çox vaxt bir dəfə əkilmiş torpaq iki və hətta üç dəfə məhsul verir. Burada süni suvarma geniş yer tuturdu». Strabon göstərir ki, Albaniyanın əkinçilik üçün yararlı olan düzən yerləri Babilistan və Misirin torpaqlarından daha yaxşı suvarılırdı. Onun verdiyi məlumatdan aydın olur ki, Albaniyada şumlama əkinçiliyi mühüm yer tutmuşdur. Strabon burada yarımköçəri maldarlıq, inkişaf etmiş sənətkarlıq, atçılıq, bostançılıq və s. haqqında xəbər verir.

---

* Musa Kağankantlı «Alban tarixi»nin bir yerində göstərir ki, o, Bərdə şəhəri yaxınlığındakı Kağankat (Kağan) (Xaqan+kənd) kəndində anadan olmuşdur.

Antik mənbələrdə ölkənin iqtisadi, ictimai və sosial inkişafının nəticəsi kimi meydana gələn əmlak bərabərsizliyi haqqında da məlumat vardır.

Azərbaycan ərazisində meydana gələn quldar dövlətlərdən biri də Alban dövləti olmuşdur. Albaniya dövləti haqqında V.M.Sısoyev «Azərbaycan tarixinin qısa oçerki» kitabında, Y.A.Paxomov isə «Azərbaycan tarixinin qısa kursu» adlı əsərində bəzi fikir və mülahizələr söyləmişdir.

Y.A.Paxomov yazır ki, «Əhali (albanlar) bir çox dildə (26 dildə) danışırdılar və inkişaf səviyyələri xeyli aşağı idi: ticarət məhsul mübadiləsindən ibarət idi. Yarımköçəri həyat sürürdülər... Albanlar 100-ə qədər say bilirdilər». Tarixçi qeyd edir ki, "albanlarda şəhər həyatı olmamışdır». Y.A.Paxomovun fikrinə tərəfdar olan V.M.Sısoyev göstərir ki, «albanların təsərrüfat həyatında ibtidai əkinçilik üstünlük təşkil etmişdir». Daha sonra o qeyd edir ki, «lakin onlar qonşuları olan vəhşi dağlılara nisbətən mədəni idilər. Əsasən maldarlıqla məşğul olan albanlar əkinçilik təsərrüfatına da bələd idilər».

V.N.Leviatov 1950-ci ildə çap etdirdiyi «Azərbaycan e.ə. V əsrdən b.e. III əsrinə qədər» adlı əsərində güman edirdi ki, albanlar e.ə. I əsrdə hələ pozulmayan qəbilə-tayfa münasibətləri şəraitində yaşayırdılar. O hətta belə bir fikir irəli sürür ki, guya albanlar ibtidai-icma quruluşundan, quldarlıq münasibətindən yan keçib, birbaşa feodalizmə keçmişlər. V.N.Leviatovun fikrilə razılaşmayan Z.İ. Yampolski qeyd edir ki, Qafqaz Albaniyası ilə Atropatendə dini mahiyyət daşıyan quldarlıq quruluşu qəbilə-tayfa münasibətlərinin pozulması zəmini üzərində təşəkkül tapmışdır. Məbədlərin ixtiyarında olan torpaq və b. istehsal vasitələri üzərində ictimai mülkiyyət deyil, xüsusi mülkiyyət üstün olmuşdur. Ölkədə icma mülkiyyətinin pozulması ilə icma torpaqlarının müəyyən bir hissəsi dini məbədlərin ixtiyarına keçir və din xadimlərinin şəxsi mülkiyyətinə çevrilir, sinfi təbəqələşmə baş qaldırır. Meydana gələn dövlət ali din xadimlərindən ibarət olan əyanların hakimiyyətinə əsaslanan erkən quldar dövlət idi.

E. ə. IV əsrdə Albanlarda qəbilə ittifaqı meydana gəldi. Onun başında qəbilə başçısı olan əyanlar dururdu. I minilliyin ortalarında burada qul əməyindən istifadə edilməyə başlanır. Quldarlıq münasibəti Atropatenə nisbətən Albaniyada zəif inkişaf etmiş və xeyli məhdud olmuşdur. Ölkədə azad icma üzvlərinin çoxluq təşkil etməsi, şübhəsiz, Şərqin ev köləliyindən ibarət olan quldarlıq quruluşunun təbiətindən irəli gəlirdi.

Mingəçevir, Yaloylutəpə və b. yerlərdən aşkar edilən küp qəbirlərin öyrənilməsi və bu qəbirlərin strukturu Azərbaycan ərazisində e. ə. II b. e. I—II əsrlərində quldarlıqdan ibarət sinifli cəmiyyətin olmasını sübut edir.

Qədim Şərq xalqları tarixinin öyrənilməsinə maraq göstərən tarixçi S. V. Yuşkov 1937-ci ildə «Исторические записки» jurnalında çap etdirdiyi «Qədim Albaniyanın sərhəddi məsələlərinə dair» məqaləsində yazırdı ki, «qədim Albaniyanın Yunan—Roma dövrü (yəni eramızdan əvvəlki dövrün son əsri və bizim eranın əvvəlləri—Y. S.) tarixinə dair indiyə qədər tədqiqat əsəri

yazılmayıb». 1957-ci ildə Q.A.Melikişvili göstərirdi ki, indiyədək bu ölkənin tarixinə dair monoqrafik əsər yazılmamışdır.

50-ci illərə qədər tarixşünaslıqda Atropaten dövləti, Atropaten anlayışına toxunulmamışdır. Bu sahədə ayrı-ayrı tarixçilər bir-biri ilə uzlaşmayan, bəzən hətta ziddiyyət təşkil edən və sistemsiz xarakter daşıyan mücərrəd mülahizələr söyləmişlər. Y. A. Paxomov 40-cı illərdə AzFANIN «Xəbərləri»ndə çap etdirdiyi məqaləsində qeyd edirdi ki, Atropaten və Qafqaz Albaniyası iqtisadi ictimai inkişafına görə icma münasibətlərindən feodalizmə keçid səviyyəsində olmuşdur. 1941-ci ildə çapdan çıxan «Azərbaycan tarixi» (qısa oçerk) adlı ümumiləşdirilmiş kitabda Atropaten və Qafqaz Albaniyasının iqtisadi-sosial və ictimai tarixinin xarakteri haqqında ilk düzgün fikir irəli sürüldü. Kitabda deyilirdi ki, bu regionun ictimai quruluşu erkən quldarlıq cəmiyyəti olmuşdur.

Qafqaz Albaniyası tarixi üzrə görkəmli mütəxəssis kimi tanınan K. V. Trever bu fikrə tərəfdar çıxmır. O, eramızdan əvvəlki IV əsrdə və bizim eranın VII əsrində Albaniyanın tarixi və mədəniyyətinə həsr etdiyi əsərlərində göstərir ki, tarixşünaslıqda Qafqaz Albaniyasının miladdan əvvəlki ictimai-iqtisadi quruluşu haqqında söylənilən mülahizə tarixi dəlillə sübut edilmir.

Tarixşünaslıqda, son vaxtlara qədər Atropaten və Qafqaz Albaniyasının iqtisadi inkişafı və ictimai quruluşu haqqında tamamlanmış fikir aydınlığı olmamışdır. Azərbaycan tarixşünaslığında bu məsələnin sistemli öyrənilməsinə təşəbbüs 60-cı illərdə edildi.

Azərbaycan tarixçilərinin son tədqiqatlarında qədim Albaniyanın iqtisadi-sosial strukturu ilə yanaşı onun ərazisində yaşayan yerli sakinlərin etnogenezi, onların mənəvi aləmi, dini münasibəti və Alban dövlətinin xarici siyasəti, Qafqaz Albaniyası ərazisində yaşayan tayfaların dili və s. bu kimi məsələlər haqqında maraqlı mülahizələr söylənilir. Qafqaz Albaniyasının tarixi coğrafiyasını müəyyənləşdirməyə təşəbbüs göstərən K. Əliyev və Z. İ. Yampolski və b. antik tarixçilərin, coğrafiyaşünasların verdikləri məlumatların və arxeoloji tapıntıların tədqiqinin nəticələrinə əsasən göstərirlər ki, Qafqaz Albaniyası Atropatenin şimalında yerləşmişdir. Onun sərhəddi bəzən Kür çayı, bəzən də Araz çayı ilə hüdudlanırdı. Bu ərazidə yaşayan xalqların vahid bir kökdən təşəkkül tapdıqlarını qeyd edən Z. İ. Yampolski belə bir nəticəyə gəlir ki, Azərbaycanın ayrı-ayrı ərazisində sakin olan əhalinin hamısı eyni adlı xalq olmuşdur. Onlar danışıq dillərinin oxşarlığına görə də eyni kökdən yaranmışlar.

Son zamanlar Qafqaz Albaniyası tarixinə aid çap olunan monoqrafik əsərlərdən Kamal Əliyevin «Qafqaz Albaniyası», Fazil Osmanovun «Qafqaz Albaniyasının maddi mədəniyyəti» və N. İ. Rzayevin «Qafqaz Albaniyasının incəsənəti», xüsusən, F. C. Məmmədovanın «Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası (e. ə. əsr.—er. VIII əsri)», (Bakı, 1986) monoqrafiyaları bu problemin öyrənilməsi xəzinəsinə yeni bir hədiyyədir.

Müasir tarixşünaslıqda fikir müxtəlifliyi olan məsələlərdən biri Albaniyanın tarixi coğrafiyasıdır.

F. Məmmədovanın 1986-cı ildə «Elm» nəşriyyatı tərəfindən nəşr edilən monoqrafiyasında, tarixi ədəbiyyatda ilk dəfə olaraq Qafqaz Albaniyasının tarixi coğrafiyası əsaslı şəkildə şərh edilir.

Qafqaz Albaniyası haqqında sanballı ümumiləşdirilmiş əsərin müəllifi K. V. Trever göstərir ki, e.ə. IV əsrdə Alban qəbilələri Kür çayının yuxarı və aşağı arxları hövzəsi və Xəzər dənizinin Dərbəndə qədərki ərazidə sakin olmuşlar. V. Minorskinin fikrincə Albaniya indiki Dağıstan daxil olmaqla, bütün Kaspi dənizi sahilini əhatə etmişdir. «Azərbaycan tarixi» kitabında deyilir ki, Azərbaycanın şimal vilayətləri və Dağıstanın xeyli hissəsi qədim Albaniya adlanırdı. Onun ərazisi Kiçik Qafqazdan və Kür ilə Arazın aşağı axarında böyük Qafqaz dağlarının Şimali-Şərq qurtaracağına qədər uzanırdı. K. Əliyev göstərir ki, Qafqaz Albaniyasının ərazisi Alazan gölü hövzəsindən Kaspi dənizi sahilinə və Böyük Qafqaz dağlarından Kiçik Qafqaza, qədim Ermənistanla atropatenlərin ölkəsinə qədərki ərazini əhatə etmişdir.

Albaniyanın siyasi sərhəddi haqqında mükəmməl fikir söyləyən F. Məmmədova hesab edir ki, e. ə. III b. e. VIII əsrlərində Qafqaz Albaniyasının dövlət sərhəddi, demək olar ki, dəyişməz və sabit olmuşdur. Bu ölkə şimaldan Dərbənd şəhəri, cənubdan Araz çayı, qərbdən İberiya, şərqdən Kaspi dənizi ilə hüdudlaşmışdır. Beləliklə, Qafqaz Albaniyası Kiçik Qafqaz, Araz çayının aşağı axarından Böyük Qafqaz sıra dağlarının Şimal-Şərq hüduduna qədərki böyük bir ərazini əhatə etmişdir. Erməni tarixçisi Anania Şiraklinin yazılı məlumatlarının toponim materiallarla müqayisəli tədqiqinə söykənən S. Mollazadə Qafqaz Albaniyasının geniş əraziyə malik olduğu barədəki fikrə tərəfdar çıxır. O yazır: «İberiyanın şərqində olan Qədim Albaniya Qafqaz dağları tərəfindən Sarmatiya ilə qovuşur və Kaspi dənizinə qədər uzanır».

Maddi-mədəniyyət abidələrinin araşdırılmasına əsaslanan F. Osmanov «Qafqaz Albaniyasının maddi-mədəniyyəti» adlı monoqrafiyasında göstərir ki, Qafqaz Albaniyası Azərbaycanın böyük hissəsini, Dağıstanın cənubunu və Şərqi Gürcüstanın müəyyən hissəsini əhatə etmişdir. V. N. Leviatova görə isə bu ölkə Qafqaz sıra dağlarının cənubundan Kür çayının axarına qədərki ərazini əhatə edirdi.

Azərbaycan tarixşünaslığında Qafqaz Albaniyasının şəhərləri və şəhər həyatı problemini tədqiq edən İ. Babayev qədim Albaniyanın geniş əraziyə malik olduğu fikrə tərəfdar olmaqla yanaşı, göstərir ki, onun sərhəd xətti hələ indiyə qədər müəyyən edilməmişdir. O, bunun səbəbini qədim Albaniyanın hüdudunun çox tez-tez dəyişməsi ilə izah edir.

Beləliklə, Qafqaz Albaniyasının geniş əraziyə malik olması şübhəsizdir. O, bir tərəfdən Kiçik Qafqaz və Araz çayının aşağı axarı, digər tərəfdən isə Böyük Qafqaz sıra dağlarının Şimal-Şərq hüdudları torpaqları ilə əhatə edilmişdir. Qədim

alban qəbilələrinin məskunlaşdıqları ərazinin dəqiq müəyyən edilməsi Qafqaz xalqlarının, o cümlədən Azərbaycan xalqının qədim əcdadlarının tarixi inkişafı haqqında bir sıra məsələləri aydınlaşdırmağa imkan verir. Qafqaz Albaniyasının sərhəd xətti haqqında söylənilən müxtəlif fikirlərin mühakiməsindən belə bir fikir hasil olur ki onun ərazisi e. ə. IV—b. e. əvvəllərində müasir Azərbaycan və Dağıstanın cənub vilayətləri torpaqlarını əhatə etmişdir.

Azərbaycanın qədim tarixinin tarixşünaslığında diqqət yetirilən bir məsələ də bu ərazidə yaşayan etnosların yerli zəmin üzərində təşəkkülü məsələsidir. Bu məsələ maddi-mədəniyyət abidələrinin araşdırılması əsasında şərh edilir. Son vaxtlar Azərbaycanın qədim tarixinə dair respublikada çap olunan əsərlərin tarixşünaslıq baxımlı icmalından aydın olur ki, Albaniyanın ərazisində yaşayan əhalinin etnik tərkibi müxtəlif olmuşdur. Bu cəhətlər maddi-mədəniyyət abidələrində öz əksini tapa bilmişdir. Arxeoloqların araşdırmaları göstərir ki, albanlara xas olan, onları digər tayfalardan fərqləndirən adətlərdən biri dəfn mərasimi qaydası olmuşdur. Onun mənbəşünaslıq əsasını, əsasən, arxeoloji abidələr və etnoqrafik müşahidə materialları təşkil edir. Bu sənədlərin və həmçinin qədim mənbələrin müqayisəli tədqiqinə dirsəklənən İ. Babayev, C. Xəlilov, K. Əliyev, F. Osmanov, Z. İ. Yampolski və b. göstərirlər ki, ən qədim zamanlardan albanlarda ən geniş yayılan dəfn mərasimi torpaq, küp və çiy kərpic qəbir mədəniyyəti olmuşdur.

Maddi-mədəniyyət abidələrinin sinxron tədqiqi göstərir ki, Qafqaz Albaniyası abidələri içərisində Yaloylutəpə abidəsi xüsusi yer tutur. Ə. Ş. İsmizadənin «Yaloylutəpə mədəniyyəti» kitabında deyilir ki, torpaq qəbirlər Alban tayfaları arasında ən geniş yayılan dəfn mərasimi olmuşdur. İ. Babayev, K. Əliyev, Osmanov və b. tarixçilər də bu fikrə tərəfdar çıxırlar. Albanlar nəşin yanına (kişi isə) ərzaq, dəmirdən hazırlanmış istehsal aləti, silah, qadınların qəbrinə isə tuncdan, gümüşdən, şüşədən və s. düzəldilmiş bəzək şeyləri qoyurdular. Qəbirlərdən üzə çıxarılan saxsı qablar orijinal formada olmaqla, qonşu tayfalara məxsus olan saxsı qablara bənzəmirlər.

Albanlarda küp qəbir mədəniyyəti də geniş yayılan dəfn mərasimi olmuşdur. Onlar ölülərini tək basdırırdılar. Böyük Qafqaz sıra dağlarının vadisində, Alazan çayı hövzəsində Pirsahat çayı və Kür çayının yuxarı axarına qədərki ərazinin sakinlərində torpaq qəbir mərasimi əsas yer tutduğu halda, Mil düzü və Kür çayının cənubunda, su hövzəsi rayonlarında isə küp qəbirlərdən geniş istifadə edilmişdi. Küp qəbirlərinin ən geniş yayıldığı dövr e. ə. I minilliyin son rübü və eramızın I minilliyinin ilk əsrlərinə təsadüf edir.

Alban tayfalarının qəbirlərindən aşkar edilən gil qablar zərifliyi, özünəməxsus gözəlliyi və naxışların orijinallığına görə fərqlənirdilər. E. ə. IV—I əsrlərdə hazırlanan maddi-mədəniyyət abidələri albanların yaşadıqları ərazinin siyasi sərhəddini, onların iqtisadi-ictimai, sosial və mənəvi inkişaf səviyyəsini müəyyən etməyə imkan verirlər. Küp qəbirlərin öyrənilməsi göstərir ki,

tarixşünaslıqda bu məsələ ətrafında müxtəlif fikir vardır. Akademik İ. İ. Meşşaninov hesab edir ki, küp qəbirlər süni suvarma sistemi ilə əlaqəsi olmayan dağətəyi torpaqlarında oturaq əkinçi əhalisinə mənsub olmuşdur. R. M. Vahidov küp qəbirlərin daha geniş coğrafiyaya malik olduğunu, Kür—Araz mədəniyyətinin əhatə etdiyi ərazidə oturaq əkinçiliklə məşğul olan əhali arasında yayıldığını göstərir. K. V. Trever onu Qafqaz alban tayfalarına aid edir. K. Əliyev isə qəbirlərin növünə görə Qafqaz Albaniyası ərazisini və burada yaşayan etnik qrupları müəyyənləşdirməyə səy göstərir.

K. Əliyevin fikri ilə razılaşmayan F. Osmanov yazır ki, «Əlbəttə, etnik qrupların müəyyənləşdirilməsində qəbir tiplərinin, hətta onların istiqamətlərinin də (K. Əliyev bu istiqamətləri də müəyyən etməyə səy göstərir — Y. S.) müəyyən rolu vardır. Lakin ayrı-ayrı qəbir tiplərini yalnız bir qruna aid etmək, yaxud bir etnik qrupun dəfn adətini yalnız bir qəbir tipində birləşdirmək düzgün olmazdı». T. İ. Qolubkina küp qəbirləri albanlara xas olan mədəniyyət tiplərindən biri hesab edir. Lakin o, K. Əliyevdən fərqli olaraq, maddi-mədəniyyətin bu tipini etnik qrupları aşkarlaşdıran göstərici kimi qəbul etmir və qeyd edir ki, bu göstərici yalnız bəzi etnik qrupu müəyyənləşdirmək imkanı verir. R. M. Vahidov hesab edir ki, maddi-mədəniyyət abidələri, o cümlədən küp qəbirləri təkcə bir etnik qrupu deyil, bir neçə qrupları müəyyənləşdirə bilər. Qeyd etmək lazımdır ki, adət-ənənəyə bir neçə göstəricilər—toponimiya, əhalinin məşğuliyyəti, tarixi coğrafiyası və s. daxildir. Deməli, maddi mədəniyyəti, etnosları müəyyənləşdirən faktor kimi qəbul etdikdə etnik qrupların təsərrüfat həyatı, məşğuliyyəti, məskunlaşdığı ərazi, iqlim şəraiti və s. ilə əlaqəli götürmək lazımdır.

Son vaxtlar respublikada Azərbaycanın qədim dövr tarixinə və onun mühüm sahəsi olan Qafqaz Albaniyası məsələsinə dair yazılan monoqrafiya və elmi məqalələrdə ölkənin iqtisadi inkişafı, ictimai-sosial münasibətlər və onların səviyyəsi kimi məsələlərin təhlilinə və elmi araşdırılmasına diqqət xeyli genişlənmişdir. İ. Babayev, C. Xəlilov, Q. Əhmədov, K. Əliyev, F. Məmmədova, F. Osmanov, N. İ. Rzayev və başqa tarixçilərin əsərlərində qədim albanların təsərrüfat həyatı məsələsinin öyrənilməsinə daha geniş diqqət yetirilmişdir. Bu məsələnin mənbəşünaslıq əsası daha da zənginləşdirilmişdir. O. Ş. İsmizadənin «Yaloylutəpə mədəniyyəti» kitabında qədim albanların əkinçilik təsərrüfatında istifadə etdikləri istehsal alətlərinin mükəmməl təhlili verilir. Onların süni suvarma sistemi üzərində qurulmuş oturaq əkinçilik və inkişaf etmiş maldarlıq təsərrüfatlarından geniş bəhs edilir. Q. V. Trever Qafqaz Albaniyası tarixinə həsr etdiyi monoqrafiyasında albanların iqtisadiyyatına dair məsələləri daha ətraflı şərh etməyə səy göstərir. Bu regionda suvarma kanallarından, kəhrizlərdən və b. süni suvarma vasitələrindən geniş istifadə edildiyi qeyd edilir. Müəllif göstərir ki, qədim albanlar oturaq əkinçiliyin mahir ustaları olmuşlar. Onlar buğda, arpa, darı və b. dənli bitkilər yetişdirmiş, üzümçülük, bağçılıq, bostançılıq, dulusçuluq, toxuculuq, dabbaqlıq və s. peşələrlə məşğul olmuşlar. Lakin K. Treverin əsərində

qədim albanların ikinci başlıca məşğuliyyəti—maldarlıq təsərrüfatının öyrənilməsinə qismən az diqqət yetirilir. Bir halda ki, son vaxtlar Qafqaz Albaniyası ərazisinin mərkəz regionlarında, Göyçayla Ağsu çayı arasındakı ərazidə aşkar edilən maddi-mədəniyyət qalıqları qədim albanlarda maldarlığın, əkinçilik kimi geniş inkişaf etdiyini və onun albanların həyat şəraitində mühüm rol oynadığını bir daha sübut edir. «Albanlar öz yerlərini dəmirlə deyil, kobud ağacla, xışla şumlayırdılar» deyən Strabonun fikri ilə razılaşmayan T. Bünyadov yazır ki, «... ağac xışla yanaşı (e. ə. V—II əsrlərdə—Y. S.) gavahanlı xışlardan da istifadə edilmişdir» Daha sonra o qeyd edir ki, «Azərbaycan ərazisində kənd təsərrüfatının çox qədim və əsas sahələrindən birini maldarlıq təşkil etmişdir. Maldarlıq, əkinçiliklə birlikdə əsrlər boyu yerli əhalinin iqtisadi həyatının əsasını təşkil etmişdir». Teymur Bünyadov, beləliklə, arxeoloji abidələrin və etnoqrafik materialların qarşılıqlı tədqiqinə söykənərək qədim Azərbaycanın sosial-iqtisadi strukturunda bu təsərrüfat sahələrinin mühüm rol oynadıqlarını əsaslandırdı.

Azərbaycanda qədim dövrlərdən əkinçilikdə süni suvarma sistemindən geniş istifadə edilmişdir. Akademik İ. İ. Meşşaninov Azərbaycanda qədim dövrlərdə süni suvarmadan geniş istifadə edildiyini göstərməklə yanaşı qeyd edir ki, Mil düzündəki süni suvarma arxları b. e. IV—VI əsrlərində çəkilmişdir. A. A. İessen, Q. M. Əhmədov və b. tədqiqatçılar da bu fikrə tərəfdar çıxırlar. Q. Əhmədov güman edir ki, Govur arxı eramızın II əsrində, sasanilər dövründə çəkilmişdir. V. İ. Leviatov isə göstərir ki, eramızdan əvvəlki əsrlərdə süni suvarma arxlarının qazılması geniş vüsət almışdı. T. Bünyadov isə göstərir ki, suvarma arxlarının eramızdan əvvəlki əsrlərdə salınması fikri ilə razılaşmaq olmaz. R. M. Vahidov da e. ə. I minilliyin sonlarında bu regionun əkinçi əhalisinin süni suvarmadan istifadə etdiklərini qeyd edir. F. Osmanov, K. Əliyev və b. tarixçilər də qədim dövrlərdə əkinçilikdə süni suvarmadan geniş istifadə edilməsi fikrinə tərəfdar çıxırlar. Qədim azərbaycanlılar süni suvarma ilə, şərtsiz, eradan əvvəl tanış olmuşlar.

Hər bir ölkənin və xalqın iqtisadi inkişafı, ictimai quruluşu və mədəni inkişafı səviyyəsini müəyyənləşdirən göstəricilərdən biri də şəhərlər, şəhər həyatı, sənətkarlıq və onun inkişafı, ticarət münasibətləri və mübadilə məsələləridir. 60-cı illərdən sonrakı dövrdə ölkənin arxeoloji baxımdan sistemli və ardıcıl surətdə tədqiq edilməsi sənətkarlıq sahəsində bir sıra qaranlıq sahələri aydınlaşdırmağa, qədim azərbaycanlılarda sənətkarlığın növlərini müəyyənləşdirməyə imkan verdi. Ölkənin qədim tarixi son dərəcə müxtəlif cəhətləri olan vahid və qanunauyğun bir proses kimi elmi surətdə öyrənilməsi yolunda mühüm addım atıldı. Faktik sənədlər əsasında müəyyənləşdirildi ki, qədim albanlarda, eləcə də burada yaşayan başqa yerli tayfalarda dulusçuluq peşəsi, qara, boz və qırmızı rəngli gil qablar istehsalı çox geniş yayılmış sənətkarlıq növlərindən olmuşdur. F. Osmanov yazır ki, «Eramızdan əvvəlki minilliyin sonu və eramızın ilk əsrlərində Albaniyada dulusçuluq sənətinin yüksək inkişafı nəzərə çarpır. Albaniya ərazisində, xüsusilə

onun paytaxtı Qəbələdə evlərin üstünün kürədə yüksək keyfiyyətlə bişirilmiş kirəmitlə örtülməsi, e.ə. VIII—III əsrlərdə qırmızı qab istehsalı və s. faktlar fikrimizi sübut edir.

Albanların dulus kürələrindən geniş istifadə etmələri, burada sənətkarlığın inkişaf etmiş texnikaya malik olduğuna parlaq sübutdur. Son tədqiqatlar göstərir ki, Qafqaz Albaniyasında kütləvi şəkil alan dulusçuluq sənəti sahəsində müxtəlif proseslər tətbiq olunmuşdur.

Qədim albanlar da dulusçuluq sənəti ilə yanaşı, metalişləmə sənəti də geniş yayılan peşə növlərindən olmuşdur. Yerli əhalinin hazırladığı əmək aləti, silah, bəzək şeyləri və s. məmulatlar keyfiyyətinə, zərifliyinə görə qonşu ölkələrdə hazırlanan sənətkarlıq əşyalarından üstün olmuşdur. Albanlarda metalişləmə və metaləritmə texnikası da yüksək idi. Onlar istehsal etdikləri məmulatların hazırlanmasında cürbəcür ölçülü və biçimli qəliblərdən istifadə etmişlər. İstehsal alətləri, silah və b. şeylərin hazırlanmasında dəmir və tuncdan daha geniş istifadə edilmişdir. Qədim Azərbaycanda metalişləmə sənətində döymə üsulu ən geniş yayılan üsul olmuşdur. Azərbaycan ərazisindən aşkar edilən sənətkarlıq məmulatlarının bir ümumi sistemə malik olması, Qafqaz Albaniyası ərazisinin müxtəlif hissələri arasında iqtisadi və mədəni əlaqələrin geniş olduğuna sübutdur.

Arxeoloji axtarışlar zamanı üzə çıxarılan maddi abidələr içərisindən dəmirdən hazırlanmış kənd təsərrüfatı alətlərinin çoxluq təşkil etməsi albanların əkinçilikdə dəmirdən hazırlanmış əmək alətlərindən geniş istifadə etdiklərini söyləməyə, ikinci bir tərəfdən isə son vaxtlara qədər alban tayfalarının yalnız ağac xışdan istifadə etdiklərini israr edən tarixçilərin fikirlərini təkzib etməyə təminat verir. Qədim albanlar şüşə istehsalı, toxuculuq və başqa sənət növlərinin sirlərinə də bələd olmuşlar. Qədim albanlar toxuculuqda təbii boya materiallarından geniş istifadə etmişlər.

Metallurgiyanın, dulusçuluğun, toxuculuğun və b. sənət sahələrinin inkişafı ölkənin iqtisadi həyatını xarakterizə edən göstəricilər olmaqla, eyni zamanda onlar iqtisadiyyatın başqa sahələrinə—mübadiləyə, ticarətin inkişafına müsbət təsir etmişlər.

Azərbaycan qədim dövrü tarixşünaslığında ölkənin iqtisadi həyatının mühüm tərkib hissəsi olan ticarətin, ticarət əlaqələrinin, mübadilənin tədqiqi məsələsinə də diqqət xeyli genişlənmişdi. Bununla belə, tarixi ədəbiyyatda qədim albanların iqtisadi inkişafı, xüsusən onlarda ticarət və ticarət əlaqələri haqqında müxtəlif fikirlər vardır. Son vaxtlara qədər antik müəlliflərin məlumatlarına əsasən tarixçilər güman edirdilər ki, Albaniya əhalisi ticarətə zəif cəlb olunmuşdur, burada mübadilə (məhsulun məhsula mübadilə edilməsi—Y. S.) ticarəti üstün yer tuturdu. K. V. Trever bunun səbəbini Albaniyanın ticarət yollarından təcrid edilməsində görürdü. O, qeyd edir ki, Alban şəhərləri dünya ticarət əlaqələri ilə əhatə edilməmişlər. Ona görə də e. ə. I minilliyin sonu və bizim eranın əvvəllərində ticarət ölkənin iqtisadi həyatına daxil olmamış və ona təsir edə bilməmişdir. O,

güman edir ki, ticarətin zəif inkişafı albanlarda ikinci böyük ictimai əmək bölgüsü olan sənətkarlığın əkinçilikdən ayrılmasına mane olmuşdur. O, Amu-Dərya-Xəzər dənizi-Kür çayı və daha sonra Qara dəniz vasitəsilə Şərq və Qərbin bir çox ölkələri ilə ticarət əlaqələrində Albaniyanın iştirak etdiyi haqdakı fikirlə də razılaşmır.

K. V. Treverin fikrinə tərəfdar olmayan R. M. Vahidov arxeoloji qazıntı materiallarının araşdırılmasına əsasən göstərir ki, Kür çayı Qafqaz Albaniyası tarixində mühüm rol oynamışdı. Bu su yolu albanları iqtisadi cəhətdən Yunanıstan, Roma, Bizans, sonralar isə Parfiya ilə əlaqələndirən başlıca ticarət arteriyası olmuşdur.

Tədqiqatlar göstərir ki, Albaniyada pul e. ə. III əsrdən başayaraq kəsilməyə başlamışdı. Y. A. Paxomov Albaniyanın ərazisində aşkar edilən sikkələrin sinxron tədqiqinə əsasən qeyd edir ki, albanlarda məhsul mübadiləsi üstünlük təşkil etməklə yanaşı, pul dövriyyəsi də mövcud olmuşdur. Bu hal e. ə. I əsrdə burada yerli zəmin üzərində sikkə kəsmək sənətinə yiyələnməyə imkan vermişdir.

K. Əliyevin, F. Osmanovun əsərlərində, M. M. Rəsulovanın namizədlik dissertasiyasında və b. tədqiqlərində də bu məsələnin şərhinə xüsusi diqqət verilir. Qafqaz Albaniyasının qədim dünya ilə ticarət əlaqələri, bu münasibətlərin əsas aparıcı vasitəsi olan dünya ticarət yollarını tədqiq edən M. M. Rəsulova göstərir ki, qədim Azərbaycanı xarici aləmlə əlaqələndirən qədim ticarət yolları Dərbənd keçidi, Böyük və Kiçik Qafqaz sıra dağları aşırımı, Kaspi dənizi, Zaqafqaziya və buradan da Qara dənizə gedirdi. Qədim albanların antik dünya ilə əlaqəsini son vaxtlar bu ərazidən aşkar edilən sikkələr və s. başqa ölkələrdən buraya gətirilən cürbəcür sənətkarlıq məmulatı qalıqları da sübut edir. Son tədqiqatların nəticələri göstərir ki, e. ə. II—I əsrlərdə qədim Albaniyanın dünya ticarətində rolu xeyli geniş olmuşdur. Albanlarda ticarətin primitiv xarakter daşıdığını, onlarda pulun dövriyyədə iştirak etmədiyini, albanların pul haqqında təsəvvürə malik olmadıqlarını, onların yüzə qədər saya bildiklərini söyləyən iddiaçılar bu məsələlər haqqında Strabonun məlumatlarına istinad edirlər. Onların çoxu—K. V. Trever, V. Leviatov və b. Strabonun məlumatlarını elmi baxımdan təhlil etmədən, hərfi mənada istifadə etmişlər. Strabonun «albanlar yüzdən artıq say bilməmişlər» deyimi, albanların heç də say bilmədiklərini, alış-verişə, ticarətə bələd olmadıqlarını sübut etmir. Albanların özlərinə məxsus say sistemi olmuşdur. Onlar sayı iyirmiyə qədər saydıqdan sonra 30 rəqəmini iyirmi on, 40 rəqəmini 2 iyirmi, 50 rəqəmini iki iyirmi on, yüz rəqəmini 5 iyirmi və s. deyə saymışlar. Albanlarda say sistemi orijinal, həm də mürəkkəb formada olmuşdur. Albanların say bilmədiklərini iddia edənlər məsələnin bu cəhətinə diqqət yetirməmişlər.

Qafqaz Albaniyası problemində şəhərlər, şəhər həyatı məsələləri çox mühüm və aktual məsələlərdən biridir. Son vaxtlara qədər bəzi tarixçilər, o cümlədən qafqazşünas A. P. Novoseltsov hesab edir ki, Qafqaz Albaniyasında şəhərlər olmamışdır. Onlar ölkənin, xalqın iqtisadi-sosial, ictimai-siyasi və mədəni inkişafında heç bir əhəmiyyətli rol oynamamışlar.

Şəhərlərin və sinifli cəmiyyətin meydana gəlməsi bir-biri ilə bağlı olan amillərdir. Arxeoloji qazıntıların son nəticələri göstərir ki, qədim Albaniya ərazisində şəhərlər və şəhər həyatı e. ə. I minilliyin ortalarında meydana gəlməyə başlamışdır. Onlar ticarət və sənətkarlıq mərkəzləri kimi, əsasən, ticarət yolları üzərində təşəkkül tapmışlar. S. Xəlilov və İ. Babayev göstərirlər ki, Qafqaz Albaniyasında şəhərlər e. ə. IV əsrdə meydana gəlmişdir. Toponim materiallarının təhlilinə əsaslanan S. Mollazadə də qədim Azərbaycan ərazisində, o cümlədən Qafqaz Albaniyası ərazisində şəhərlərin çox qədimdən meydana gəldiyini etiraf edir. Qədim Albaniyada şəhərlərin ticarət və sənətkarlıq mərkəzləri olmadığını söyləyən Strabonun məlumatları sərkərdə Pompeyin hərbi səfərlərinin iştirakçılarının verdikləri xronoloji materiallardan ibarət olmuşdur. Məlum olduğu kimi, Pompey Albaniyanın içərilərinə hərəkət etməmişdir. O və onun yol yoldaşları Albaniyanın geniş ərazisində cərəyan edən həyat mexanizminə bələd olmamışlar. Onların məlumatları səhih və dəqiq olmamışdı.

60-cı illərdən etibarən Albaniya ərazisinin arxeoloji və etnoqrafik baxımdan, toponim cəhətdən öyrənilməsi nəticəsində toplanan təcrübə, maddi-mədəniyyət abidələri, toponim materialların yazılı məlumatlarla qarşılıqlı və müqayisəli şəkildə öyrənilməsi bu problemin salnaməsində bir sıra fikir aydınlığı yaratmağa imkan verdi. E. ə. IV—b. e. III əsrlərində Albaniyada şəhər həyatını tədqiq edən İ. Babayev faktik sənədlərə söykənərək göstərir ki, e. ə. I minilliyin ortalarından başlayaraq burada şəhərlər və şəhər həyatı yüksələn xətlə inkişaf etmişdir. Ptolemeyin xəbər verdiyi 29 şəhər və iri insan məskənləri inzibati, mədəni, ideoloji və iqtisadi mərkəzlər kimi ölkənin və xalqın sosial-iqtisadi həyatında mühüm rol oynamışlar.

Deyilənlərdən göründüyü kimi, tarixi ədəbiyyatda qədim Azərbaycanın sosial-iqtisadi həyatında mühüm rol oynayan şəhərlər haqqında indiyə qədər fikir ixtilafları davam etməkdədir. «Azərbaycan tarixi»ndə Albaniyanın xarici ölkələrlə iqtisadi ticarət əlaqəsinin rüşeym halında mövcud olduğu iddia edilir. Bu fikrə Y. A. Paxomov və K. V. Trever də tərəfdar çıxırlar. Z. İ. Yampolski, M. M. Rəsulova və b. isə hesab edirlər ki, Xəzər dənizi, Kür və Rion çayları vasitəsilə Qara dənizə gedən su yolu albanların ticarət əlaqələrində mühüm rol oynamışdır. K. Əliyev, F. Osmanov və b. qeyd edirlər ki, indiki Bakı, Şamaxı, Göyçay, Şəki, Zaqatala, Balakən, Ləkidağ və oradan qərbə uzanan quru yolu, Kaspi dənizi, Kür və Rion çayları və Qara dənizə gedən su yolu Qafqaz Albaniyasının xarici aləmlə əlaqələndirilməsində, onun qədim Şərq və Qərb ölkələri ilə ticarət münasibətlərində bulunmasında mühüm rol oynamışlar. Bu ərazidə e. ə. II—I əsrlərə və bizim eranın əvvəllərinə aid çoxlu miqdarda qədim Şərq və Qərb ölkələrinin sikkələrinin aşkar edilməsi bu fikri bir daha sübut edir.

Arxeoloji qazıntılar zamanı üzə çıxarılan sikkə dəfinələrinin iri şəhərlər ətrafında aşkar edilməsi, bir tərəfdən burada şəhər həyatının geniş olduğunu, ikinci bir tərəfdən isə bu ərazidə xarici ticarətlə yanaşı, daxildə də ticarət əlaqələrinin

üstün olduğunu, bu əlaqələrdə pulun iştirak etdiyini söyləməyə haqq verir. Xalq arasında indi də bir çox yolların - «Bazarqan yolu», «Elçi yolu» və s. yol ünvanları adlarının çəkilməsi ölkənin daxilində iqtisadi ticarət əlaqələrinin, mübadilənin inkişaf etdiyini söyləməyə imkan verir. Albanlarda müxtəlif vəznə malik çəki daşlarından istifadə edilməsi deyilənləri bir daha təsdiq edir. E. ə. I minilliyin II yarısında albanlarda ikinci böyük ictimai əmək bölgüsünün baş verməsi, onlarda mübadilənin genişlənməsinə, iqtisadi həyatın daha da inkişaf etməsinə təkan verdi. Bu ölkənin daxilində və habelə xarici iqtisadi əlaqələrində mübadilənin daimi şəkil almasını və inkişafının sürətlənməsini mümkün etdi. Xəzər dənizi və Kür çayı kimi su yollarının Zaqafqaziyadan, birinci növbədə Qafqaz Albaniyası ərazisindən keçməsi, onun dünya tranzit ticarəti ilə əhatə olunmasına və dünyanın bir çox ölkələri ilə əlaqə yaratmasına imkan vermişdir.

Qafqaz Albaniyasının qədim Şərq və Qərb ölkələri ilə ticarəti, iqtisadi əlaqələri, habelə ölkənin daxilində mübadilənin inkişaf etməsi ölkədə əmtəə istehsalının inkişafına təkan olmaqla yanaşı, həm də sosial dəyişikliyin baş verməsi üçün şərait yaradırdı.

E. ə. I əsrin əvvəllərində Azərbaycanda ilk quldarlıq quruluşu meydana gəlməyə başlamışdı.

Beləliklə, qədim albanlarda, habelə Atropatendə siniflərin meydana çıxması, quldarlığın inkişafı, dövlətin yaranması e. ə. I əsrə təsadüf edir. F. Osmanov son zamanlar aşkar edilən yerli sikkələrin «gəlmə» sikkələrlə müqayisəli tədqiqinə əsasən hesab edir ki, Qafqaz Albaniyasında e. ə. II əsrdən etibarən ciddi təbəqələşmə baş vermişdir.

Şimali Azərbaycanda iqtisadi və sosial bərabərsizliyin, sinifli cəmiyyətin təşəkkül tapması tarixinin daha qədim olduğunu güman edən İ. Babayev hesab edir ki, e. ə. IV—II əsrlərdə bu ərazidə varlı və yoxsul təbəqənin olması artıq bu dövrdən başlayaraq dövlət və onun idarə orqanlarının meydana gəldiklərini söyləməyə imkan verir. Şəhərlər, şəhər əhalisi—sənətkarlar, tacirlər ölkələrin və xalqların tarixi inkişafında, onların iqtisadi tərəqqisində, ictimai quruluşunda, sosial münasibətlərində, mədəni və mənəvi aləmdə mühüm rol oynamışlar.

C. Xəlilov, İ. Babayev arxeoloji tapıntıların araşdırılmasının nəticələrinə əsasən göstərdilər ki, Qafqaz Albaniyası ərazisində şəhərlər e. ə. IV əsrdən etibarən meydana gəlməyə başlamışdır. Onlar ölkənin iqtisadi həyatında, ticarət əlaqələrində və sənətkarlığın inkişafında mühüm rol oynamışlar.

Sinifli cəmiyyətin ictimai və siyasi xarakterini müəyyən edən amillərdən biri də vergi sistemidir. Torpaq vergisinin nə ilə, hansı yolla ödənilməsidir. K. Əliyev məbəd mülkiyyətinin sosial iqtisadi quruluşu tarixini araşdırarkən müəyyən etmişdir ki, burada toplanan torpaq vergisi məhsul və pulla ödənilmişdir. Torpaq vergisinin məhsulla yanaşı, pulla ödənilməsi Qafqaz albanlarında iqtisadi-sosial strukturun inkişaf səviyyəsinin yüksək olduğunu, burada dövlət idarə sisteminin müntəzəm şəkil aldığını, pulun artıq insanların məişətinə daxil olduğunu, onun

təkcə iqtisadi-ticarət əlaqələrində deyil, eyni zamanda ictimai münasibətlərdə də iştirak etdiyini göstərir. Toplanan vergilər hakim sinfin nümayəndələrinin, o cümlədən din xadimlərinin, kahinlərin mənafeyinə sərf edilirdi. Məlum olduğu kimi, vergi sistemi məzlum sinfin istismar edilməsinin mühüm vasitələrindən biridir. Qəbilə cəmiyyəti dövründə vergi sistemi yox idi. Ona ehtiyac da yox idi. Vergi sistemi cəmiyyətin siniflərə bölgüsünün məhsulu kimi meydana gəlmişdir.

Beləliklə, e. ə. IV əsrdən etibarən alban tayfalarının birləşməsi və onların ərazi bölgüsü üzrə məskunlaşması sinfi təbəqələşmənin gedişini sürətləndirdi. «Siniflərin əksliyini cilovda saxlamaq» zərurətə çevrilirdi. Dövlət təşəkkül tapdı. Qafqaz Albaniyasında e. ə. II əsrdən etibarən pulun tədavüldə olması, qoşun qüvvələrinin varlığı, müxtəlif sənətkarlıq sahələrinin inkişafı Alban dövlətinin Yaxın Şərqin adlı-sanlı dövlətlərindən birinə çevrildiyinə sübutdur. Bu dövlət icma münasibətlərinin qorunub saxlandığı erkən quldar dövlət olmuşdur. O, azad icma üzvlərini zora tabe etmək, qulları əzmək məqsədi güdən quldarların dövləti idi. O, ölkədə məhsuldar qüvvələrin daha da inkişaf etməsinə təkan verdi. E. ə. IV—eramızın III əsrlərində iqtisadi, mədəni inkişaf səviyyəsinə görə xeyli tərəqqi edən Qafqaz Albaniyası Yaxın Şərqin və Qabaq Asiya ölkələri ilə sıx iqtisadi-ticarət və mədəni əlaqədə olmuşdur. Bu qarşılıqlı əlaqələr ölkənin iqtisadi və mədəni tərəqqisinə əhəmiyyətli təsir etmişdir. Eramızın II — III əsrlərində məhsuldar qüvvələrin inkişafı təsiri altında ölkənin sosial-iqtisadi strukturunda yeni bir ictimai münasibətlər—feodal münasibətləri cücərtiləri baş qaldırır.

Dövlət mexanizminin olması faktını göstərən şərtlərdən biri antaqonist siniflərin olması və onların sinfi mübarizəsidir. Qafqaz Albaniyasında hiyerodulların hakim sinfə qarşı mübarizəsi bu regionda sinifli cəmiyyətin olduğunu bir daha sübut edir. Hiyerodullar qədim Yunanıstanda və yunan müstəmləkələrində məbədlərə mənsub olan qullar olmuşlar. Qabaq Asiyanın bir çox şəhərlərində hiyerodul qadınların məbədlərdə fahişəliklə məşğul olmaları və bu yolla əldə edilən vəsaitdən öz sahiblərinə vergi vermələri dövlətin olmasına sübutdur.

Hiyerodullar Asiya kontinentinin tərkib hissəsi olan Zaqafqaziyada da mövcud olmuşlar. Albaniyadakı məbəd qulları da hiyerodullar adı altında tarixə bəlli olmuşlar.

Tarixi ədəbiyyatda hiyerodullar haqqında fikir ixtilafları vardır. Bəzi tarixçilər (Z. Yampolski, K. Əliyev və b.) hiyerodulların qul olduğunu qeyd etdikləri halda, bəziləri onların (K. V. Trever və s.) azad icma üzvləri olduğunu güman edirlər.

Alban kahinlərinin mülklərində məbəd qulları ilə yanaşı, icma üzvləri də çalışmışlar. Bu hal bir daha Albanlarda mövcud olan quldarlığın öz quldarlığından ibarət olduğu və beləliklə Şərq ölkələri üçün ümumi olan iqtisadi, ictimai və siyasi strukturunun albanlara da xas olduğunu sübut edir.

V. N. Leviatov hesab edir ki, hiyerodullar azad icma üzvləri olmuşlar. Ermənistan tarixçisi Q. Manandyan da güman edir ki, hiyerodullar məbədlərdə çalışan azad adamlar idilər.

Z. İ. Yampolski Atropaten və Qafqaz Albaniyasının ərazisində olan qədim məbədlərə aid yazılı mənbələrin, arxeoloji abidələrin və etnoqrafik müşahidələrin hərtərəfli tədqiqinə əsaslanaraq ilk dəfə olaraq qeyd etdi ki, hiyerodulların allaha qurban gətirilməsi qaydası onların məbəd qulları olduğunu güman etməyə imkan verir. Hiyerodullar məhkum sinfin müxtəlif formalarından biri olmaq etibarilə antik müəlliflərin də diqqətini cəlb etmişdilər. Strabonun əsərlərində Kiçik Asiya, Mesopotamiya hiyerodulları ilə yanaşı, Ermənistan, Albaniya, qismən İberiya hiyerodulları haqqında məlumat verilir. Bu problem qədim Şərq ölkələri tarixşünaslarının da nəzərini özünə cəlb etmiş və onun öyrənilməsinin coğrafiyası durmadan genişlənmişdir. 30-cu illərdə qədim Zaqafqaziyada ictimai-iqtisadi təbəqələşmə, sinifli cəmiyyətin meydana gəlməsi, əhalinin tabelik forması kimi məsələlərin tədqiqi sahəsi də genişləndi. Antik müəlliflərin məlumatları əsasında hiyerodulların tarixini araşdıran tarixçilər onları məbəd qulları adlandırmışlar. Lakin bu fikirlə razılaşmayanlar da olmuşdur.

Beləliklə, bir qrup tarixçilər hiyerodulları məbəd qulları hesab etdikləri halda, digərləri onları məbədlərin ixtiyarında olan azad icma üzvləri güman etmişlər.

Albanlarda hiyerodullar tarixinə ilk nəzər salan A. Y. Krımski hesab edirdi ki, hiyerodullar adi asılı şəxslər yox, «allaha məxsus» (bojix lyudey) adamlar olmuşlar. Onlar kahinlərin idarə etdikləri təsərrüfatda çalışan «müqəddəs qullar» idi. Z. İ. Yampolskinin fikrincə, məbəd mülkiyyətinin tərkib hissəsi olan hiyerodullar quldarlıq cəmiyyətinin məhkum sinfinin xüsusi forması və tipi idilər. Hiyerodul kişilərin və qadınların məbədlərə qurban gətirilməsi və qurban verilməyə məhkum olmalarının qanuni şəkil alması bir daha hiyerodulların qul olduqlarını sübut edir. Feodalizm cəmiyyətindən fərqli olaraq quldarlıqda quldarlar azad icma üzvlərini zorakılıqla azadlıqdan və başqa ictimai-sosial hüquqlardan məhrum edib əmtəəyə çevirir və onları satmaq, almaq, qurban vermək, şəxsiyyətinə qəsd etmək hüququna malik idilər. Bu hal klassik formada Orta Asiya və Zaqafqaziyada təzahür etməsə də, insanların məbəd mülkiyyətinə qurban gətirilməsi qaydasının geniş yer tutması qurban gətirilənlərin əksəriyyətinin hiyerodullardan ibarət olmaları onların qul olduqlarını söyləməyə haqq qazandırır. Bu halın Zaqafqaziyada, xüsusən qədim albanlarda geniş yayılması hiyerodulların məbəd qulları olmasına etiraz edən, onların azad icma üzvləri olduğunu söyləyən tarixçilərin fikirlərinin səhv olduğunu göstərir.

Hiyerodullar cinayətkarlardan, müharibələr zamanı əsir alınıb qula çevrilənlərdən yox, məhz məbədlərə qurban verilən icma üzvlərindən ibarət olmuşlar.

Bu məsələni konkret formada nəzərdən keçirən K. Ə. Əliyev yazır: «Yəqin ki, Alban hiyerodullarını köləliklə bağlı olan ictimai kateqoriya yox, yalnız «allah qulları», yəni tərkibində sıravi kahinlərin daxil olduğu məbəd qulluqçuları kimi başa düşmək lazımdır. K. Əliyev Albaniyadakı məbəd torpaqlarının sakinlərini iki qrupa ayırır: 1. Məbəd icmasının üzvləri; 2. Hiyerodullar. O hesab edir ki, Alban hiyerodulları Kiçik Asiya hiyerodullarındn fərqli olmuşlar. Kiçik Asiyada hiyerodullar məbədlə bağlı olan vahid kütlə olduqları halda, Albaniyada vahid kütlə olmamışlar.

Mənbələrdə kahinlərə verilən töycünün məhsul, yaxud pul ilə ödənilməsi qeyd edilir. Belə bir faktın olması albanlarda sinifli cəmiyyətin, dövlət quruluşunun olması şübhəsizdir. Məlum olduğu kimi, fahişəlik sosial peşə kimi quldarlıq quruluşunda təşəkkül tapmışdır. Hiyerodul qadınların bədənlərini satmaları faktı albanlarda da hiyerodulların kölə olduqlarına sübutdur. Hiyerodullar haqqında tarixi ədəbiyyatdakı müxtəlif fikirləri tarixşünaslıq baxımından araşdıraraq, belə bir qənaətə gəlmək olar: 1. Hiyerodullar məbəd qulları idilər; 2. Məbəd qulları olmaq etibarilə alqı-satqı vasitəsi olmamışlar. Bu baxımdan klassik qullardan fərqlənmişlər; 3. Şərq ölkələrinin quldar cəmiyyətinin spesifik xüsusiyyəti çərçivəsindən kənara çıxmayan köləliyin bu xüsusi forması patriarxal köləliklə bağlı olmuşdur. Köləlik istehsal qüvvəsinə çevrilə bilməmişdir.

Hiyerodullar qədim Zaqafqaziyada xüsusiyyət təşkil edən qullar idi.

Bu anlayış Azərbaycan tarixşünaslığında nisbətən möhkəm yer tutan «hiyerodullar məbəd qullarıdır» konsepsiyasının doğru olduğunu bir daha təsdiq edir.

Beləliklə, qədim albanlarda mövcud olan hiyerodulların məbəd qulları olmasının tarixən əsaslandırılması bir daha göstərir ki, Atropaten kimi Qafqaz Albaniyası ərazisində meydana gələn qədim dövlət təsisatı erkən quldar dövlətlər olmuşlar. Burada icma münasibətlərinin geniş olması üzündən quldarlıq münasibətləri ev quldarlığı xarakteri daşımış və istehsal qüvvəsinə çevrilə bilməmişdir.

*VI f ə s i l*

# YAD NİYYƏTLƏR. ÖGEY SƏSLƏR

Azərbaycan torpağı bir neçə minillik qədim tarixə, onun sakinləri təkraredilməz zəngin maddi və mənəvi irsə malikdirlər. Bu real həqiqəti artıq Qərbin və Şərqin bir sıra tarixşünasları da etiraf edirlər. Bununla birlikdə, həqiqətə əyri güzgüdə baxanlar, ağı qara adlandıranlar da vardır.

XIX əsrin sonu, XX əsrin başlanğıcında Avropada mərkəziyyətçilik və irqçilik nəzəriyyəsinin təsirinə məruz qalan bir sıra tarixçilər Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəniyyət tarixini təhrif etmək yoluna qədəm qoydular. Avropa şərqşünasları uydurma «İran mədəniyyəti» görümünü irəli sürdülər. Bu anlayışa görə, İran mədəniyyətinin əsasını İslam dini qəbul edilməzdən əvvəlki mədəniyyət təşkil edir. «Şərqdə özünəməxsus şöhrəti olan «İran mədəniyyəti» Qərb alimlərinin əlində Azərbaycan mədəniyyətini təhrif etmək aləti» olmuşdur. Onlar Azərbaycan xalqının tarixinin və mədəniyyətinin orijinal olmadığını göstərməklə yanaşı, əsaslandırmağa çalışırdılar ki, Azərbaycan tarixi və mədəniyyəti dedikdə, onları «İran» mədəniyyəti və tarixi kimi başa düşmək lazımdır.

Həqiqətə yad olan belə bir uydurmanın hasil olmasının subyektiv əsası ilə yanaşı, obyektiv cəhətləri də vardır. Onlardan başlıcası, Azərbaycan tarixinin qədim dövrünə dair bir sıra «qaranlıq» səhifələrin olması və onlarda aydınlıq olmaması, fars və Azərbaycan dilində tutarlı faktlara əsaslanan tarixi ədəbiyyatın azlıq təşkil etməsi, uzun müddət tarixi mənbələrin aşkar edilib sistemə salınmaması və b. faktlar idi.

Lakin son vaxtlar aparılan araşdırmaların nəticəsində şərqşünaslıqda İranın islama qədərki tarixinin kamil bilicisi kimi tanınan amerikalı alim R. Fray, Azərbaycanın İran olmadığı həqiqətini etiraf edərək yazır ki, «indi olduğu kimi, keçmişdə də (antik dövrdə — Y. S.) bu ərazi büsbütün İran torpağı olmamışdır».

Azərbaycanın qədim tarixinə, antik mədəniyyətinə diqqət yetirən İran tarixçiləri—Məhəmməd Həsənxan Məraqei, Həsən Piriniya, Seyid Həsən Tağızadə, Əhməd Kəsrəvi (Təbrizli), Rəşid Yasəmi, Abbas Purməhəmmədəli (Şüştəri), Məhəmməd Müqəddəm və bir çox başqaları əsərlərində Azərbaycan xalqının etnogenezisi, onların dil mənsubiyyəti, Azərbaycan anlayışının meydana gəlməsi və onun kökləri, etimologiyası və s. kimi mühüm məsələləri tədqiq etmişlər. Onlar azərbaycanlıların İranəsilli olduqlarını, onların mədəniyyətinin mayasını qədim İran mədəniyyəti təşkil etdiyini, onun orijinal olmadığını, azərbaycanlıların irandilli etnoslardan törədiyini, bu prosesin yerli zəmin üzərində deyil, miqrasiya yolu ilə baş verdiyini sübut etməyə cəhd göstərmişlər. Bəzi müasir İran tarixçiləri Azərbaycan dilini, mədəniyyətini və tarixini İran tarixi və mədəniyyəti «qazanında əritməyə» səy göstərirlər. Bu meyl istər-istəməz tarixin və

mədəniyyətin təhrif edilməsinə səbəb olur. Saxtakarlıq özünü Azərbaycan tarixinin qədim olmasının qəbul edilməsində, Azərbaycan xalqının etnogenezisinin elmə zidd baxımdan şərh edilməsində, Azərbaycan dilinin kökləri və mənşəyinin heçə endirilməsində, onun mədəniyyətinin zənginliyinin və orijinal olmasının danılmasında və s. büruzə verir.

Azərbaycanın antik tarixinə, Azərbaycan xalqının etnogenezisi və dil mənsubiyyəti məsələlərinə dair İran tarixşünaslığını araşdıran Ş. Tağıyeva yazır: «İran burjua tarixçiləri İran Azərbaycanının həm ərazi cəhətdən, həm burada yaşayan əhalinin və onun dilinin mənşə etibarilə tamamilə bir olmasını iddia edirlər». İran tarixçiləri bütün mənalarda və bütün dövrlərdə Azərbaycan adını yalnız İran Azərbaycanı ərazisinə və burada yaşayan əhaliyə aid edirlər və göstərirlər ki, «onlar vaxtı ilə buraya köçüb gəlmiş ari-fars tayfalarından» törənmişlər. «İranda yaşayan azərbaycanlıların əcdadını indiki İran Azərbaycanı ərazisində vaxtı ilə sakin olan yerli tayfalarla qarışmış midiyalılar» təşkil edir.

Beləliklə, müasir İran tarixi ədəbiyyatının araşdırılması göstərir ki, İran tarixçiləri Azərbaycanın adının Araz çayından şimala, indiki Azərbaycan ərazisinə aid olmadığını israr edirlər. Bir halda ki, qədim dövrə aid yazılı mənbələr, dil faktları, arxeoloji tapıntılar, son vaxtlar qeydə alınan külli miqdarda toponimlər və digər maddi-mədəniyyət yadigarları sübut edirlər ki, Azərbaycanın hüdudu, inzibati vahid kimi, Urmiya gölü sahillərindən başlamış və Dərbəndə kimi uzanmışdır. Qeyd edilən faktların İran tarixşünaslığında təhrif edilməsi halları M. İ. Azərlinin «Azərbaycan dili haqqında ərəbdilli mənbələrdə verilən məlumatların bəzi İran alimləri tərəfindən saxtalaşdırılması», S. M. Onullahinin «İran burjua alimlərinin əsərlərində Azərbaycan dili tarixinin saxtalaşdırılması», T. M. Musavinin «Fəqihinin «Atrupatakan və nehzəte» əsəri haqqında», A. H. Fazilinin «Azərbaycan tarixinin bəzi problemlərinin İran burjua tarixçiləri tərəfindən saxtalaşdırılmasına dair» və b. əsərlərdə ifşa olunur.

Bəzi İran millətçi tarixçiləri, o cümlədən Cəmaləddin Fəqihi İrandilli tayfaların müasir İran ərazisinə e. ə. VIII əsrdən etibarən köçüb gəlmələri faktına göz yumaraq sübut etməyə çalışır ki, guya ari tayfalar e. ə. XIV əsrdən başlayaraq bu ərazidə görünməyə başlamış və bu proses e. ə. VI əsrədək davam etmişdir. O, tarixi fakta istinadsız israr edir ki, azərbaycanlılarla İranın digər məntəqələrində yaşayan adamların istər irqi cəhətdən, istərsə də dil cəhətdən vəhdət təşkil etmələri aydın məsələdir və bu haqda mübahisəyə də dəyməz. C. Fəqihi, Azərbaycan ərazisində e. ə. IX əsrdə təşəkkül tapan Manna dövlətinə nəzər salmadan göstərir ki, arilər e. ə. VIII əsrdə İran Azərbaycanı ərazisində öz hökumətlərini təşkil etmişlər. C. Fəqihi Midiya dövlətini İrana, midiyalıları isə İrandilli ari tayfaları ailəsinə aid edir. O, Midiya ərazisində yaşayan yerli aponegenlərin gəlmə fars-ari tayfalarının tarixi taleyində oynadıqları rola göz yumaraq tarixi gerçəkliyə kölgə salır. C. Fəqihi Strabonun «Midiyalılar farsların və ermənilərin müəllimi

olmuşdur» məlumatına bələd olsa da, onun üstündən sükutla yan keçərək azərbaycanlıların əcdadlarının qədim ari-farslar olduğunu sübut etməyə can atır.

Azərbaycanın qədim tarixi tarixşünaslığına aid respublikanın tarixçi alimlərinin son elmi axtarışlarının nəticələrinə və özünün tədqiqlərinə istinad edən T. Musavi İranın millətçi tarixçisi C. Fəqihinin Azərbaycanın qədim tarixinin tədqiqinə dair uydurmalarını təkzib edir və göstərir ki, İran Azərbaycanının Göytəpə və Həsənqulu məntəqələrinədək arxeoloji qazıntılar prosesində, Azərbaycanın Kültəpə qazıntısında eramızdan əvvəlki II minilliyə aid çox qüdrətli mədəniyyətin izləri aşkar edilmişdir. ...Midiya dövlətinin yaranmasından çox-çox qabaq, eramızdan əvvəl III minilliyin sonlarında Azərbaycan ərazisində kuti, lulubey etnosu əsasında ictimai-iqtisadi və mədəni cəhətdən öz dövrünə görə yüksək inkişaf etmiş Manna dövləti olmuşdur... Yeni eradan əvvəl I minilliyin başlanğıcınadək həmin əhalinin (yerli əhalinin—Y. S.) etnik və dil tərkibində heç bir təbəddülat da olmamışdır.

Bu faktlar bütün İran tarixçiləri kimi, Azərbaycanın qədim tarixini monoqrafik baxımdan tədqiq edən C. Fəqihiyə də bəlli olmuşdur. Lakin bu faktlar onun ideya istiqamətinə zidd olduğu üçün, onların üstündən sükutla yan keçmiş, tarixi həqiqətə göz yummuş və tarixi həqiqəti təhrif etmək yolunu özünə peşə seçmişdir. Beləliklə, müasir İran tarixçiləri iddia edirlər ki, Azərbaycan dili guya qədim zamanlarda fars dili olubdur. Türk dili burada sonralar, orta əsrlərdə zorakılıq yolu ilə qəbul etdirilib. Azərbaycan xalqının dili köçərilərin dili olub, onların özünəməxsus dili və ayrıca tarixi yoxdur.

Abdulla Fazili «Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında» (Bakı, 1970) və «Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında» (Bakı, 1983) monoqrafiyalarında bu problemə monoqrafik baxımdan diqqət yetirmişdir. A. Fazilinin müəyyən etdiyi kimi, müasir İran tarixşünaslığında qədim Azərbaycanın ictimai və siyasi quruluşu sırf iranpərəstlik və qatı millətçilik istiqamətində təsvir edilir.

İran tarixşünaslığında Atropaten dövlətinin qüdrətli dövlət olduğu göstərilir və üç yüz ildən artıq ömür sürdüyü qeyd edilir. Burada ruhanilər, ordu başçıları, dövlət qulluqçuları, əkinçilər və sənətkarlardan ibarət ictimai qruplar olduğu etiraf edilir. İran tarixçilərinin məlumatlarına əsasən A. Fazili göstərir ki, Parfiya dövründə Azərbaycan, Ermənistan və İran dövlətinin 18 əyalətindən 15-i əhali içərisindən çıxan başçı tərəfindən idarə edilmişdir. İran tarixçiləri etiraf edirlər ki, Atropaten dövlətinin başçısı sərkərdə Atropat özünü Azərbaycanın müstəqil hakimi elan etmişdir. Azərbaycanın nizami ordusu olmuşdur. Xüsusən onun süvari dəstələri böyük şöhrət qazanmışdır. Lakin İran tarixşünaslığında iddia edilir ki, guya Atropat iranlı olmuşdur. A. Fazili də İran tarixçilərinin Atropatın İran əsilli olması haqqında uydurmalarını tutarlı tarixi faktlara söykənərək tənqid etməkdən yan keçir və müəyyən mənada, bu təhrifə havadar çıxır. O yazır: Bəzi şəxslər Atropatın yunanlı və İskəndərin sərkərdələrindən olduğu fikrini irəli sürmüşlər, bu

da əsassızdır. Ona görə ki, Strabonun yazdığından başqa, Atropat adının özü də sübut edir ki, o, iranlı olmuşdur. Atropatın iranlı olması İranın tarixçiləri tərəfindən uydurulmuş səhv fikirdir və tarixi gerçəkliklə heç cür səsləşmir.

Ə. Kəsrəvi Azərbaycanın qədim tarixinə, onun dili və mənşəyi məsələlərinə həsr etdiyi kitablarında Azərbaycanın həm ərazi baxımından, həm də burada yaşayan əhalinin və onun dilini mənşə etibarilə ari tayfaları ilə bağlamağa çalışır. Onun bu fikri qatı millətçilik və iranpərəstlik xarakteri daşıyır. Bu tezisə qarşı Azərbaycan tarixşünaslığında tutarlı antitezis irəli sürülür. İ. Əliyev yazır ki, hind—Avropa elementləri (yəni arilər—Y. S.) Midiyaya gələrək, bəzi müəlliflərin etirafına görə, guya Midiya xalqlarının formalaşmasında mühüm rol oynamışlar. Lakin tədqiqatçıların əksəriyyəti onların mənşəyinin (midiyalıların—Y. S.) formalaşmasında dərin kökə malik olan, İran yaylasının ən qədim sakinləri və avtoxtin etnik tərkibli kuti, lulubəy və başqalarının oynadıqları faktı görmür və yaxud görmək istəmir... Əlimizdə elə bir əsas yoxdur ki, midiyalıların gəlmə element olduğunu sübut etsin. Lakin bunu deyə bilərik ki, hər hansı bir irandilli tayfa Midiya ərazisinə gəlmişdir. Cənubi Azərbaycanda kuti, lulubəy, kadusilər, kaspilər və s. tayfalar yaşamışlar. Onların heç biri İran mənşəli xalq olmamışdır.

Z. İ. Yampolski yazır ki, tarix boyu Azərbaycanda ən geniş yayılmış dillər öz quruluşuna görə fars dilindən və b. qonşu xalqların dilindən fərqli olmuşdur. İ. M. Dyakonov göstərir ki, «...Azərbaycanda türkdilli qrupa aid olan dil üstündür... Şübhəsiz ki, xalqın formalaşmasında (Azərbaycan xalqının—Y. S.) fiziki və mədəni cəhətdən əsas rolu yerli əhali oynamışdır».

M. Seyidov qədimdə Azərbaycanın ərazisində yaşayan xalqlar içərisində türkdilli etnosların üstünlük təşkil etdiklərini qeyd edir. O, yazır: «...Azərbaycanın əsasən cənubunda yaşamış Midiya qəbilələri, şimalında yaşamış Aran-Albanlar, nəhayət, çoxdan Azərbaycanın hər iki hissəsində məskən salmış türkdilli qəbilələr, qəbilə birləşmələri silsilələridir. Lakin bu üç qolun üçü də Azərbaycan xalqının etnik tərkibində eyni dərəcədə rol oynamışdır. Burada üstünlük türkdilli qəbilələrə verilsə daha doğru olar.»

Yuxarıda göstərildiyi kimi, e. ə. IV əsrin 30-cu illərində Makedoniyalı İskəndərin hərbi yürüşlərinin zərbəsi altında Əhəmənilər hökmranlığı süqut etdikdən sonra Midiya dövlətinin ərazisi iki hissəyə - Kiçik və Böyük Midiyaya ayrıldı. Kiçik Midiya və yaxud Midiya-Atropaten torpağında Atropaten dövləti meydana gəldi. Onun ərazisinə Azərbaycanın cənub vilayətləri ilə yanaşı, Şimali Azərbaycanın Kür çayına qədər uzanan torpaqları da daxil olmuşdur. Bu hadisələr «Kolumbiya ensiklopediyasına» daxil edilən «Azərbaycan» məqaləsində təhrif edilir və göstərilir ki, guya bütün bu ərazi qədim dövrlərdən Van və Urartu hakimlərinin hökmranlığı altında olmuşdur.

Yazılı məlumatlarda göstərilir ki, e.ə. VIII əsrin əvvəllərində Assuriya hökmranlığı ilə yanaşı Urartu çarları da Cənubi Azərbaycan torpağını, Urmiya gölü ətrafı vilayətləri qəsb etmək məqsədi ilə bir sıra hərbi yürüşlər təşkil etdilər. Lakin

onlar Manna dövlətinin əzəməti qarşısında diz çöküb geri çəkilməyə, öz mürtəce işğalçılıq siyasətlərindən imtina etməyə məcbur oldular. E. ə. VII əsrdə Yaxın Şərqin və Zaqafqaziyanın güclü dövlətlərindən olan Manna Cənubi Azərbaycanı öz hökmranlığı altında birləşdirdi.

Tarixşünaslığında Azərbaycanın qədim ərazisində təşəkkül tapan, onun tarixi inkişafında, Azərbaycan məfhumunun və Azərbaycan xalqının formalaşmasının özəyini təşkil edən Atropat və Atropaten dövləti haqqında da dərin dolaşıqlıq yaranmışdır. Həmin «Ensiklopediya»da deyilir ki, e. ə. 328-ci ildə İran çarı Atropat burada (Cənubi Azərbaycanda—Y. S.) müstəqil krallıq yaratdı. İranın müasir tarixçiləri bu fikri eyni ilə təkrar edirlər.

M. V. Sısoyev də səhvən Atropatı Əhəmənilər sülaləsinə aid edir. O da vaxtı ilə Atropaten dövlətinin ərazi bölgüsü məsələlərində bəzi anlaşılmazlığa yol verirdi. A. Fazili də bu fikrə havadarlıq edir. Lakin Atropat, tarixi məlumatlardan məlum olduğu kimi, heç vaxt İran çarı olmayıb. O, İranın Əhəmənilər dövlətinin valilərindən biri olmuşdur. Cənubi Azərbaycanda təşəkkül tapan, Şimali Azərbaycanın da Kür çayına qədər uzanan ərazini öz tabeliyində saxlayan Atropaten dövləti 6 əsrdən artıq hökmranlıq etmişdir. Atropaten dövlətində bəzən Selevikilərin, bəzən parfiyalıların, eramızın əvvəllərində isə sasanilərin siyasi nüfuzları güclü olmuşdur. Bununla belə, bu dövlət 6 əsrlik siyasi hakimiyyətliyi illərində öz müstəqilliyini saxlamağa səy göstərmiş və buna əsasən nail ola bilmişdir. İran tarixçilərinin verdikləri məlumatda deyilir ki, Azərbaycan şahları (yəni Atropaten hakimləri—Y. S.) eramızın əvvəllərində «Azərbaycanda şahlıq etməklə bərabər, həm də bütün İranın Şahənşahı olmuşdurlar».

Görkəmli albanşünas K. V. Trever albanları «Zaqafqaziyanın üç əsas qədim xalqlarından biri, Zaqafqaziya Azərbaycanı və Dağıstan xalqlarının əcdadlarından biri» adlandırır, albanların, «qədim və yüksək mədəniyyətə» malik olduqlarını göstərir.

«Böyük Ermənistan» anlayışı XVIII əsrdə Şərq məsələsinin tərkib hissəsi kimi meydana gəlmişdir. Onun tərəfdarları «dənizdən-dənizə» fikrini irəli atmaqla Qara dənizlə Xəzər dənizi arasındakı torpaqları «Böyük erməni dövləti» adı altında birləşdirməklə Böyük erməni imperiyası yaratmaq iddiasında olmuşlar. Onlar öz məqsədlərinə «nail olmaq» üçün zorakılıqla tarixi gerçəkliyi təftiş etmək yolunu peşə seçmişlər.

«Böyük Ermənistan» anlayışı iki mənada—siyasi və coğrafi mənalarda işlədilir. Mənbələrin verdikləri məlumatlar göstərirlər ki, «Böyük Ermənistan» coğrafi anlayış kimi e. ə. 220-ci ildən bizim əsrə qədər bəlli olmuşdur.

Selevkidlərin hakimi III Antiox e. ə. 220-ci ildə Van gölü hövzəsi torpaqlarını birləşdirib Böyük Ermənistan dövləti yaratdı və yerli erməni etnosundan olan Artaşesi (Artaksiya sülaləsinə mənsub idi) onun hakimi təyin etdi. O, siyasi mexanizm kimi e. ə. II—I əsrlər üçün xarakterik olmuşdur. «Böyük Ermənistan» dövləti çar Artaşes və II Tiqranın hakimiyyətliyi illərində əzəmətli

inkişaf pilləsinə yüksələ bilmişdi. Deməli, e. ə. II—I əsrlərdə «Böyük Ermənistan»ın iki anlayışı—siyasi və coğrafi anlayışları üst-üstə düşmüşdür. S. T. Yeremyan, A. Ş. Mnatsakanyan, B. Ulubabyan Strabonun verdiyi məlumatlara dirsəklənərək göstərirlər ki, Artsax, Uti, Paytakaran, yəni Qafqaz Albaniyası ərazisinin böyük bir hissəsi qədimdən Ermənistanın olmuşdur. K. V. Trever də Strabonun «Coğrafiya» kitabından götürülmüş dəlillərə əsaslanaraq yazır ki, e. ə. II əsrdə erməni çarı I Artaşes (189—170) Kür çayının sağ sahili torpaqlarını, Şəki, Utin (Udin) və qarqarların (albanların) yaşadıqları ərazini Ermənistana birləşdirdi. Kür çayı Ermənistanla Albaniyanın sərhəd xətti oldu. Tarixi araşdırmalar göstərir ki, Albaniya ərazisinin Böyük Ermənistan çarı II Tiqran tərəfindən zəbt edilməsi barəsində tarix ədəbiyyatında söylənilən mülahizələr tutarlı dəlillərə söykənmir. Albanşünaslığın görkəmli tədqiqatçısı F. Məmmədova yunan və Roma mənbələrinin müqayisəli təhlili nəticələrinə əsaslanaraq göstərir ki, II Tiqranın qəsbkarlıq siyasəti Albaniya ərazisinə toxunmamışdır. S. T. Yeremyan «Erməni xalqının tarixi» (I hissə) adlı kitaba daxil etdiyi atlasda göstərir ki, e. ə. II əsrə qədər Kür çayının sol və sağ sahil torpaqları — Sakasen, Oten (Udin), Kaspian, Paytakaran və Orixisten (Artsax) Albaniyanın ərazisinə daxil olmuş, e. ə. I əsrdə həmin torpaqlar çar II Tiqran tərəfindən Böyük Ermənistan ərazisinə qatılmışdır. O, tarixi faktlara kölgə salır, onları zorakılıqla saxtalaşdıraraq göstərir ki, Albaniyanın sağsahil ərazisi 6 əsr, yəni e. ə. II əsrdən b. e. IV əsrinə qədər mərkəzləşdirilmiş quldar dövləti olan Böyük Ermənistanın təsir dairəsində olmuşdur. Heç bir əsaslı və inandırıcı fakta əsaslanmayan bu fikri ilə müəllif bir tərəfdən Albaniya və digər tərəfdən isə Ermənistan tarixini saxtalaşdırır. Məlum olduğu kimi, «Böyük Ermənistan» siyasi anlayış kimi yalnız e. ə. 65-ci ilə qədər mövcud olmuşdur. E. ə. 65-ci ildə II Tiqranın ordusunun Roma sərkərdəsi Pompey tərəfindən darmadağın edilməsindən sonra Ermənistan yaylasını öz təsiri altında birləşdirən Böyük Ermənistan dövləti süqut etdi. Ölkə iki yerə ayrıldı. Şərqi Ermənistan — İran Ermənistanı (Pers—Armeniya), Qərbi isə Roma Ermənistanı (Romeyskaya Armeniya) adlandı. Beləliklə, e. ə. 65-ci ildən etibarən Qərbi Ermənistan Bizansın, Şərqi isə İranın tabeliyinə keçdi. «Böyük Ermənistan» coğrafi anlayış kimi qaldığı halda, siyasi məfhum kimi tarixin səhifələrindən silindi. Belə bir tarixi şəraitdə, görəsən hansı bir mərkəzləşmiş dövlət mexanizminin olmasından danışmaq olar?!

Tarixi araşdırmalar göstərir ki, Böyük Ermənistanın bölüşdürülməsi prosesinin Qafqaz Albaniyasına, onun ərazi sərhəddinə heç bir təsiri olmamışdır. Onun ərazi bütövlüyü e. ə. IV—III əsrlərdən b. e. VIII əsrinə qədər sabit olmuş və heç bir ciddi dəyişikliyə məruz qalmamışdır.

Yuxarıda deyildiyi kimi, «Böyük Ermənistan» konsepsiyasının ideoloqları qədim keçmişdə Albaniya ərazisinə daxil olan tarixi Qarabağın ermənilər tərəfindən məskunlaşdırıldığını iddia edirlər. Tarixi faktlar isə aydın-aşkar göstərir ki, müasir Azərbaycanın və onun təbii tərkib hissəsi olan Qarabağın əsas əhalisi

Qafqaz albanları olmuşlar. K. V. Trever «Qafqaz Albaniyasının tarixi və mədəniyyətinə dair oçerklər» adlı monoqrafiyasında yazır ki, Zaqafqaziyanın üç əsas qədim xalqlarından biri olan albanlar «qədim və yüksək mədəniyyətə» malik idilər.

İ. P. Petruşevski yazır ki, Azərbaycan xalqının mayasını Qafqaz albanları təşkil etmişlər. Onlar sonralar Azərbaycan xalqının tərkibinə daxil oldu və müsəlmanlaşdı. Onların kiçik bir qismi isə (Şəkidə, Dağlıq Qarabağda) ermənilərə qovuşub erməniləşdi.

Azərbaycan əhalisi ilə Qarabağ və Naxçıvanda yaşayan ermənilər albanlar xətti ilə qohum olduqlarını qeyd edən görkəmli qafqazşünas A. P. Novoselev yazır ki, «Qarabağın və qismən Azərbaycanın başqa vilayətlərinin (Naxçıvandan savayı) erməniləri onun (alban əhalisinin) nəsilləridir. Deməli, qədim Albaniya əhalisi həm də müasir azərbaycanlıların və ermənilərin bir hissəsinin ümumi əcdadıdır». Qeyd edilən bu faktlar «Böyük Ermənistan» anlayışı tərəfdarlarına məlum olsa da, onlar qəsdən bu faktlara göz yumur və Qafqaz Albaniyasının, onun əhalisinin erməni xalqının tarixi taleyində oynadığı rola kölgə salırlar.

Müasir dövrdə zamanın qarşıya qoyduğu vəzifənin — keçmişimizi olduğu kimi, tutarlı tarixi faktlara əsaslanaraq tədqiq etməklə yerinə yetirmək olar.

# N Ə T İ C Ə

Əvvəllər ədəbiyyatda belə bir konsepsiya irəli sürülmüşdü ki, guya burada ibtidai insanlar yaşamamışlar. Onlar bu əraziyə kənardan, yalnız yeni daş dövrünün axırı, tunc dövrünün başlanğıcında gəlmişlər. Azıx mağarasının aşkar edilməsi və bu mağaradan üzə çıxarılan çoxsahəli və çoxtəbəqəli maddi abidələrin tədqiqi bu konsepsiyanı təkzib etməyə imkan verdi.

Arxeoloji axtarışların son nəticələri göstərdi ki, daş dövrünün sonlarından Azərbaycan ərazisində yaşamış qədim insanlar mənimsəmə təsərrüfat formasından istehsal təsərrüfat formasına keçmişlər.

E. ə. VIII minillikdə cəmiyyətdə kişinin əməyi ilk plana keçməyə başlayır. Ana nəslinin ata nəsli ilə əvəz edilməsinin təməli qoyulur. Neolit dövrünü eneolit dövrü əvəz edir. Azərbaycan ərazisində daş dövründən Eneolitə, metal əsrinə keçid təxminən e. ə. V—IV minillikdə baş vermişdir.

Erkən tunc dövrünün səciyyəvi mədəniyyəti Kür-Araz mədəniyyətidir. Kür-Araz mədəniyyətinə aid maddi abidələrin araşdırılması göstərir ki, məhz tunc dövrünün əvvəllərində toxa əkinçiliyini xış əkinçiliyi əvəz edir. Əkinçilik Azərbaycanın qədim sakinlərinin başlıca təsərrüfat sahəsi idi. Dağlıq və dağətəyi rayonlarında əkinçiliklə yanaşı, oturaq maldarlıq iqtisadiyyatın mühüm sahələrindən biri olmuşdur. E. ə. III—II minillikdə tayfa içərisində ilk dəfə olaraq özünümüdafiə anlayışı meydana gəlir. Onlar ətrafı yaxşı görmək və qonşu qəbilənin «müdaxiləsindən» qorunmaq üçün hasarlanmış hündür təpələrdə məskunlaşırlar.

Yaşayış yerlərinin ətrafında çiy kərpicdən hündür divarların salınması, boyalı qablar mədəniyyətinin məişətə daxil olması bu dövrü səciyyələndirən komponentlərdir. Azərbaycan ərazisində Qarabağlar, Kültəpə, Oğlanqala və s. qala şəhər tipli yaşayış yerlərinin salınması burada yaşayan qədim insanların həyat tərzində mühüm dəyişiklik baş verdiyini göstərir. Dulus kürələrindən istifadə etmənin daimi şəkil alması sənətkarlığın əkinçilikdən ayrılmasına təkan verdi. Cəmiyyətdə ikinci ictimai əmək bölgüsü Orta tunc dövründə baş verdi.

E. ə. II minilliyin ikinci yarısında qəbilə-icma üzvləri arasında ictimai təbəqələşmənin gücləndiyi müşahidə olunur.

Dəmir dövrünün başlanması ilə bu proses daha da dərinləşir. Azərbaycanda I minilliyin I yarısında dəmir dövrü tunc dövrünü əvəz etdi. Dəmirdən istifadə insanlara istehsal alətlərini, silah istehsalını təkmilləşdirməyə, təsərrüfatın sahəsini daha genişləndirməyə, yaşayış yerlərinin mühafizə qüdrətini möhkəmləndirməyə, yüksək məhsul əldə etməyə, məhsuldarlığı artırmağa imkan verdi.

Tunc dövrünün sonu və ilk dəmir dövründə Azərbaycanda ibtidai-icma quruluşu süqut etdi. İlk sinifli cəmiyyət — dövlət meydana gəldi. Ölkə ibtidai-icma quruluşundan ilk sivilizasiyaya keçdi. İnqilabi rol oynayan dəmirin insanların məişətinə daxil olması bu prosesi daha da sürətləndirdi. Ölkədə məhsuldar

qüvvələrin inkişafı gücləndi. İbtidai-icma quruluşunun dağılması, xüsusi mülkiyyətin meydana gəlməsi və cəmiyyətin siniflərə bölünməsi müntəzəm şəkil aldı. Azərbaycanda ilk dövlət— Manna dövləti təşəkkül tapdı. Bu dövlət qədim Azərbaycan tayfalarının siyasi, təsərrüfat həyatında, ictimai cəhətcə birləşmələrində və onların mədəni tərəqqisində mühüm rol oynadı.

İlk sivilizasiyanı səciyyələndirən xarakterik cəhət şəhər həyatının, sənətkarlıq və ticarətin ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynaması, mübadilənin genişlənməsi, şəhərin kənd üzərində hökmranlıq edə bilməsidir. Tarixin inkişafının bu pilləsində istehsalatda iştirak etməyən yeni bir hakim sinif— tacirlər meydana gəlir. Ticarət müntəzəm şəkil alır.

Qədim Şərqin qüdrətli dövlətlərindən biri Midiya dövləti olmuşdur. O, Mannanın Cənub Şərqində meydana gəlmişdir.

Midiya dövlətində quldar-müstəbid siyasi quruluş hakim olmuşdur. Onun qədim Şərqin əzəmətli dövlətlərindən biri olmasına başlıca səbəb, bəzi tarixçilərin güman etdiyi kimi, heç də müvəffəqiyyətli müharibələr nəticəsində böyük əraziyə malik olması deyil, birinci növbədə daxili iqtisadi və mədəni inkişafı olmuşdur.

Son zamanlar Qafqaz Albaniyası tarixinin tədqiqi də uğurlu olmuşdur. Sübut edilmişdir ki, Qafqaz Albaniyası və Atropaten (Kiçik Midiya) ərazisində yaşayan etnoslar müasir azərbaycanlıların mayasını təşkil edirlər.

Albaniya Azərbaycanın qədim tarixi və mədəniyyətinin inkişafında mühüm rol oynadığı kimi, qonşu xalqların da tarixi tərəqqisində yaxından iştirak etmişdir. Ən qədim zamanlardan Azərbaycanın şimal-qərbində metallurgiyanın inkişaf etməsi, keyfiyyətinə görə Yaxın Şərqdə fərqlənən dəvəgözü daşının zəngin olması və başqa xammal ehtiyatının bolluğu, Qərblə Şərq ölkələrini əlaqələndirən ticarət-tranzit yolunun buradan keçməsi ölkənin iqtisadi-sosial və mədəni inkişafında əsaslı rol oynamış, beynəlxalq aləmdə nüfuzunu təmin etmişdir. O, dünya ticarətinə cəlb olunmuşdur. E. ə. IV əsrdən başlayaraq Qəbələ, Şəki, Şamaxı, Dərbənd, Bərdə, Örənqala və b. şəhərlər ölkənin iqtisadi-ictimai və sosial həyatında, həmçinin dünya ticarət əlaqələrində mühüm rol oynamışlar.

Albaniya dövləti icma münasibətlərinin mövcud olduğu erkən quldar dövlət olmuşdur. Burada icma əlaqələri geniş yer tutmuş və cəmiyyətin başlıca istehsal qüvvəsi olmuşdur. Qul əməyi istehsal vasitəsinə çevrilə bilməsə də, ölkənin sosial-iqtisadi həyatında özünəməxsus yer tutmuşdur. Qullar içərisində qadınların olması, onların arasında sinifli cəmiyyətin təbiətinə xas olan fahişəliyin yayılması, qullardan məbədlərə qurban gətirilməsi, Albaniyadan İrana metalla yanaşı qul ixrac edilməsi faktları bu ərazidə quldarlıq əlaqələrinin xeyli yer tutduğunu göstərir.

Manna və Qafqaz Albaniyası kimi Atropaten də Azərbaycanın qədim ərazisində yaşayan əhalinin tarixi taleyində mühüm rol oynamışdır. Tarixi ədəbiyyatda Azərbaycan ünvanının etimologiyası Atropaten anlayışı ilə əlaqələndirilir. Etiraf etmək lazımdır ki, Atropaten, qədim Azərbaycanın tərkib hissəsi kimi az tədqiq edilən sahələrdən biridir.

# ƏDƏBİYYAT


*Абдуллаев О. А.* Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982.

*Алекперов А. К.* Исследование по археологии и этнографии Азербайджана. Баку, 1960.

*Асланов Г. М., Вахидов Р. М., Ионе Г. И.* Древний Мингечаур. Баку, 1959.

*Алиев Играр.* История Мидии. Баку, 1960.

*Алиев Камал.* Античные источники по истории Азербайджана. Баку, 1987.

*Алиев Камал.* Кавказская Албания. Баку, 1974.

Azərbaycan tarixi, c. 1, Bakı, 1958.

Azərbaycanın tarix və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı. Bakı, 1978.

*Bakıxanov A.* Gülüstani-İrəm. Bakı, 1951.

*Бартольд В. В.* Место прикаспийских областей в истории мусульманского мира. Баку, 1925.

*Бабаев И. А.* Города Кавказской Албании в IX в. до н. э. — III в. н. э. Авт. док. дис. М., 1982.

*Bünyadov T.* Azərbaycanda əkinçiliyin inkişafına dair. Bakı, 1964.

*Bünyadov T.* Azərbaycanda maldarlığın inkişafına dair. Bakı, 1969.

*Vahidov R. M.* Mingəçevir III-VII əsrlərdə. Bakı, 1961.

*Гуммель Я. И.* Археологические очерки. Баку, 1940.

*Гусейнов М. М.* Древний палеолит Азербайджана. Баку, 1985.

*Геродот.* История в девяти книгах. 1, 101, Л., 1972.

*Джафарзаде.* Гобустан. Наскальные изображения. Баку, 1973.

*Джапаридзе О. М.* Археологические раскопки в Триалети. Тбилиси. 1969.

*Дьяконов И. М.* История Мидии. М.—Л., 1956.

*Əliyev V.* Azərbaycanın tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı, 1977.

*Əliyev V.* Qədim Naxçıvan. Bakı, 1979.

*İsmayılov Q.S.* Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981.

*Исмаилов Г. С.* Археологические исследования древнего поселения Бабадервиş. Баку, 1978.

*Исмизаде О. Ш.* Ялойлутепинская культура. Баку, 1955.

*Kaşкай С. М.* Из истории Маннейского царства. Баку, 1977.

*Левиатов В. Н.* Азербайджан с V в. до н. л. по III в. н. л. Изв. АН Азерб. ССР, 1950, № 1.

*Мещанинов И. И.* Ассирийская бусина из Азербайджана. Баку. 1926.

*Muradova F. M.* Qobustan tunc dövründə. Bakı, 1979.

*Меликиşвили Г. А.* Урартские клинообразные надписи. ВДИ, 1953. № 1—4; 1954, № 1.

*Минорский В. Ф.* История Ширвана и Дагестана X—XI вв. М., 1963.

*Махмудов Ф. Р.* Культура юго-восточного Азербайджана в эпоху бропзыы и раннего железа. Авт. канд. дис. Тбилиси, 1979.
*Мамедова Фарида.* Политическая история и историческая география Кавказской Албании. Баку, 1986.
*Nərimanov İ.* Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı, 1958.
*Новосельцев А. П.* Генезис феодализма в странах Закавказья. М., 1980.
*Osmanov F. L.* Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, 1982.
*Пассек Т. И., Латынин Б.* Очерк по истории Северного Азербайджана. «Изв. общ-ва обследования и изучения Азербайджана». Баку. 1926.
*Пахомов Е. А.* Краткий курс истории Азербайджана. Баку, 1923.
*Страбон.* География (пер. Г. А. Стратановского). М., 1964.
*Сысоев В. М.* Краткий очерк истории Азербайджана (северного). Баку, 1925.
*Струве В. В.* История древнего Востока. М—Л., 1941.
Сб. статей по истории Азербайджана. Вып. 1. Баку, 1949.
*Селимханов И. Р.* Историко-химические и аналитические исследования древних предметов из медных сплавов. Баку, 1960.
*Тревер К. В.* Очерки но истории и культуре Кавказской Албании IV в. до н. э. — VII в. н. э. М.—Л., 1959.
*Халилов Дж. А.* Материальная культура Кавказской Албании. Баку, 1985.
*Hüseynov M. M.* Uzaq daş dövrü. Bakı, 1973.
*Ямпольский З. И.* Из истории Древней Кавказской Албании. М., 1949
*Ямпольский З. И.* Древняя Албания III—I вв. до н. э. Баку, 1962.

## MÜNDƏRİCAT

GİRİŞ ........................................................................................................ 3
*I FƏSİL.* AXTARIŞLAR. TAPINTILAR ............................................................ 4
*II FƏSİL.* DAŞLAR DANIŞIR .......................................................................... 14
*III FƏSİL.* İBTİDAİ İCMA .............................................................................. 22
*IV FƏSİL.* AZƏRBAYCANDA İLK SİNİFLİ CƏMİYYƏT ............................... 42
*V FƏSİL.* ATROPATEN VƏ QAFQAZ ALBANİYASI ...................................... 64
*VI FƏSİL.* YAD NİYYƏTLƏR. ÖGEY SƏSLƏR .............................................. 83
NƏTİCƏ .................................................................................................... 90

*Юсиф Габибулла оглы Сафаров*

ДРЕВНИЙ АЗЕРБАЙДЖАН:
ЧТО МЫ О НЕМ ЗНАЕМ.
(на азербайджанском языке)

Баку -Азернеşр - 1989